TEMATİK TƏFSİR

# QURANDA AİLƏ

Müəllif:

Məhəmmədbaqir Saivər

Tərcümə edən:

Musa Hüseynli

kitaboxu.com

**Müəllif:** Məhəmmədbaqir Saivər

*İlahiyyatçı, alim*

**Tərcümə edən:** Musa Hüseynli

*İlahiyyatçı*

**Redaktor:** Mərdan Zalov

*İlahiyyatçı, filoloq*

**© Məhəmmədbaqir Saivər**

**QURANDA AİLƏ**

*Bakı-2024,* ..... səh.

kitaboxu.com

Kitabın bütün hüquqları qorunur.

İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

“.......................” Nəşriyyatında çapa hazırlanmışdır.

*DQİDK-nin* .........................................

*saylı məktubu ilə nəşrinə razılıq verilmişdir*

## MÜNDƏRİCAT

Müqəddimə ........ 8

## BİRİNCİ HİSSƏ

**Quranda qadın-kişi münasibətlərində davranış qaydaları** ........ 10
- Birinci qayda: Qarşılıqlı libas olmaq ........ 11
- İkinci qayda: Məhəbbət və mərhəmət ........ 12
- Üçüncü qayda: Nəzakətli davranış ........ 13
- Dördüncü qayda: Qarşılıqlı hüquq ........ 14

**Ailə təməlinin sabitliyini pozan amillər** ........ 16
Birinci hissə: Ailə təməlinin əvvəldən zəif olması ........ 16
İkinci hissə: Ailə təməlinin həyat boyunca zəifləməsi ........ 17
- Ailəni zəiflədən əxlaqi amillər ........ 17
- Ailəni zəiflədən hüquqi amillər ........ 17
- Ailəni zəiflədən elmi amillər ........ 18
- Virtual aləm və ailə təməlinin zəifləməsi ........ 18
- Ailəni zəiflədən iqtisadi amillər ........ 18

Üçüncü hissə: Ailə təməlinin möhkəmlənməsini qorumamaq ........ 19
Dördüncü hissə: Bəzi məsələləri və fəaliyyətləri tərk etmək ........ 19

**Ailə problemlərini həll etmək üçün Quranın göstərişləri** ........ 22
a)Ailədəki ixtilafların qarşısını almaqda qabaqlayıcı tədbirlər ........ 22
- 1) Məhəbbət və sevgini artırmaq ........ 22
- 2) Təlim ........ 22

b)Ailədə olan problem və ixtilafları aradan qaldırmaq ........ 23
- Birinci mərhələ: Özünü islah etmək ........ 23

İkinci mərhələ: Ər-arvadın öz aralarında sülh etməsi (razılaşması) ........ 23
Birinci prinsip: İslah etmək və yaxşılaşdırmaq niyyətində olmaq ........ 24
İkinci prinsip: Əxlaqi baxış ........ 24
Üçüncü prinsip: Xəsislikdən çəkinmək ........ 24
Dördüncü prinsip: Məsələyə yaxşılıq etmək prizmasından yanaşmaq ........ 25
Beşinci prinsip: Hamı eyni deyil! ........ 25
Üçüncü mərhələ: Başqalarından kömək almaq ........ 25
Dördüncü mərhələ: Qanundan yardım almaq ........ 26

**Ailənin hüquqi məsələləri** ........ 27
Birinci məqam: Nikah məcburi deyil, tərəflərin razılığı ilə olmalıdır ........ 27
İkinci məqam: Ədalət, yoxsa bərabərlik?! ........ 28
Üçüncü məqam: Ailə hüquqlarına bir məktəb çərçivəsində baxmağın zəruriliyi . 28
Dördüncü məqam: Vəzifələrin fərqliliyi insani keyfiyyətləri təyin etmir ........ 30
Beşinci məqam: Ailə fərdi və ictimai baxımdan müqəddəs bir qurumdur ........ 30
Altıncı məqam: Terminlərin bəyan edilməsində səthi və ya məqsədyönlü təhlillər ........ 30

**Ailənin ehtiyaclarını təmin etmək** ........ 32
Emosional və psixoloji ehtiyacların təmin edilməsi ........ 33
Cinsi ehtiyacların ödənilməsi ........ 33
Maddi ehtiyacların təmin edilməsi ........ 33
Din və dini ədəb-ərkan qaydaları ilə tanış olmaq ehtiyacının təmin edilməsi ........ 34
Ailəni inkişaf etdirmək məsələsi ........ 34

## İKİNCİ HİSSƏ

**Övlad sahibi olmağın əhəmiyyəti** ........ 37
Quranda övlad ........ 37

Hədislərdə övlad ... 41
a)Saleh övlad cənnət güllərindən biridir ... 41
b)Saleh övlad dünyada ən yaxşı nemətdir ... 41
c)Övlad xeyir-bərəkət mənbəyidir ... 41
d)İnsanın davamlı olan sədəqəsidir ... 41
Önəmli mətləblər ... 41
Birinci mətləb: Övlad insanın kamillik vasitəsidir ... 41
İkinci mətləb: Övlad sahibi olmaq ailə üçün bir imtiyaz hesab olunur ... 42
Üçüncü mətləb: Təkuşaqlı olmağın bəzi nəticələri ... 42
Dördüncü mətləb: Uşağın dəyəri, iqtisadi problemlərin mövcudluğu, bəzi məsələlərdə ziddiyyət deyil, toqquşmanın olması ... 43
Beşinci mətləb: Ana olmaq və işləmək arasında prioritet və öncəlik ... 43
Altıncı mətləb: Uşaq həyatın mənəvi ləzzətidir ... 43

**Uşaqlıqdan övlad tərbiyəsi ... 45**
a) Meyarlar və tərbiyəvi məsələlər ... 46
1. Ailədə həyalı olmağın öyrədilməsi ... 46
2. İnsanları cəhənnəmə və əzaba sürükləyən səbəblərlə tanış etmək ... 46
3. Namazı öyrətmək ... 47
4. Uşaqlara səbirli və hövsələli olmağı öyrətmək ... 47
5. Uşağa Allah-taala ilə rabitəsini gücləndirməyi öyrətmək ... 47
6. Uşağın oyun və əyləncəsinə diqqət yetirmək ... 47
7. Valideynin uşaqla ünsiyyəti ... 47
8. Uşaqların səhvlərinə göz yummaq ... 47
b) Quran metodları əsasında uşaqların təlim-tərbiyəsi ... 48
1. Nümunəvi tərbiyə ... 48
2. Nəsihət metodu ... 51
3. Təlim metodu ... 52
c) Quranda övlad tərbiyəsinin əsasları ... 53

kitaboxu.com

1) İnsan sərmayəsi ..... 53
2) Fitrət ..... 53
d) Tərbiyə mühiti ..... 53
Qapalı mühit ..... 54
Təzadlı mühit ..... 54
**Abort ..... 56**
Abortla bağlı bəzi məsələlər və onun ailədəki mənfi təsirləri ..... 56
Birinci məsələ: Abort bir insanın öldürülməsidir ..... 57
İkinci məsələ: İslam cəmiyyətində abort müsəlman bir insanı öldürməkdir ..... 57
Üçüncü məsələ: Abort ilahi əmanətə xəyanətdir ..... 57
Abort və ikinci dərəcəli dəlillər ..... 58
Abort etdirməyin səbəbləri ..... 58
Birinci amil: Əqidəvi və dini xürafat amili ..... 58
İkinci amil: Cahillik qeyrəti ..... 59
Üçüncü amil: İqtisadi və məişət məsələləri ..... 59
Fiziki qüsurlu övlada və ya anaya mərhəmət səbəbindən abort ..... 59

## ÜÇÜNCÜ HİSSƏ

**Feminizm ..... 62**
Feminizmin əsasları ..... 64
Humanistlərin səfsətələri ..... 66
Feminizmin İslam dünyasına sızması ..... 66
Dinşünaslıq sahəsi ..... 67
Dinin əhatə dairəsi barədə olan nəzəriyyələr ..... 68
İslami feminizm barədə bəzi məqamlar ..... 72
Birinci məqam ailənin önəmi ..... 72
İkinci məqam: İslam dinində azadlığın mənası və məsələlərin mərkəzində Allahın durması (Allah mərkəzlilik) ..... 72

Üçüncü məqam: Ər-arvad bir-birlərini tamamlayan tərəflərdir .... 73
Dördüncü məqam: İslam dinində ananın rolunun müqəddəsliyi .... 73
Beşinci məqam: İnsan haqlarında ictimai sahələrin fərqliliyi .... 73

**Qərb və İslami dəyərlərə əsasən haqqın mənşəyi .... 75**
Birinci mərhələ: İnsanın təbii haqqı .... 75
İkinci mərhələ: Cəmiyyətdə hüquqların toqquşması .... 76
Üçüncü mərhələ: Toqquşmaların miqyasını müəyyən edən qurum .... 76

**İslam və Qərb prizmasından azadlığın tərifi və əhatə dairəsi .... 80**

**Quran ayələrində hicab .... 83**
Hicabla bağlı ayələrdəki bəzi incə mətləblər .... 85
Hicabsızlıq səbəblərinin araşdırılması .... 91
Dini inanclardakı zəiflik hicabsızlıq amillərindən biridir .... 94
Dini amillər .... 94
Hicabla bağlı şübhələrə cavab .... 96
Birinci şübhə: "La ikrahə fid-din" (dində heç bir məcburiyyət yoxdur) ayəsi .... 96
İkinci şübhə: Hicab ictimai fəaliyyətlərə maneədir .... 97
Üçüncü şübhə: Qəlbin təmiz olsun .... 97
Dördüncü şübhə: İnsan ona qadağan olan şeyə hərisdir .... 98
Beşinci şübhə: Hansı ayədə hicabın vacib olduğu bildirilib?1 .... 98
Altıncı şübhə: Seçim məsələsində insanın azad olması .... 99
Hicab insanın deyil, Allahın haqqıdır .... 100
Yeddinci şübhə: Hicabın iffətdən ayrı olması .... 100
Hicaba nisbətdəki yanlış anlaşılmalarla bağlı mətləblər .... 100

İstifadə olunan ədəbiyyat .... 104

kitaboxu.com



**Bismillahir Rəhmanir Rəhim**

## Müqəddimə

Ümumilikdə İslam dinində, xüsusilə də Quranda önəm verilən məsələlərdən biri ailə məsələsidir. Quran ailəni rəhmət və məhəbbətin mənbə və mənşəyi hesab edir:

«وَ مِنْ آياتِهِ أَنْ خَلَقَ لَكُمْ مِنْ أَنْفُسِكُمْ أَزْواجاً لِتَسْكُنُوا إِلَيْها وَ جَعَلَ بَيْنَكُمْ مَوَدَّةً وَ رَحْمَةً إِنَّ فِى ذٰلِكَ لَآياتٍ لِقَوْمٍ يَتَفَكَّرُونَ»

"***Onların yanında aramlıq tapasınız deyə sizin üçün öz cinsinizdən zövcələr yaratmağı və sizin aranızda dostluq əlaqəsi, batini mehr-məhəbbət yaratması onun nişanələrindəndir, həqiqətən, bunda düşünən bir qövm üçün nişanələr vardır.***"[1]

İnsanlar cəmiyyətdə mərhəmətli və mehriban tərbiyə olunmaq istəyirlərsə, mərhəmət və mehribanlıq xüsusiyyətini ilk növbədə ailədən götürməlidirlər. Əgər ailədə bunlar olmazsa, cəmiyyət də məhrəmət, mehribanlıq və digər ülvi hisslərdən məhrum olacaq. Başqa sözlə, əxlaqlı cəmiyyətin formalaşması şübhəsiz ki, ailədən asılıdır. Əgər ailədə əxlaq çiçəklənməsə, cəmiyyətdə də bu nemətdən məhrum olarıq. Beləliklə, istər hüquqi nöqteyi-nəzərdən, istər tərbiyəvi, istərsə də düşüncə baxımından, "ailə" mövzularına diqqət yetirmək birbaşa olaraq öz təsirini cəmiyyətdə göstərəcəkdir.

kitaboxu.com

Qarşınızdakı kitabın bəzi bölmələri fiqhi (hüquqi) sahəyə aiddir. Çünki fiqhi bölmələrin daxilində teoloji, ideoloji və tanışlıq xarakterli baxışlar da vardır. Bu səbəbdən sadalanan mövzulara diqqət yetirmək və onlara məntiqi yanaşma ailələrin sağlam şəkildə və Quran əsasında tərbiyə olunmasında danılmaz müsbət təsirlərə malikdir. Bundan əlavə kitabda övlad sahibi olmaq və övlad tərbiyəsi, ailədə davranış qaydaları, ailənin hüquqi məsələləri, problemlərin həll yolları, ailənin ehtiyaclarını təmin etmək, onun təməlini zəiflədən səbəblər, feminizm və hicab mövzuları da araşdırılmışdır.

Beləliklə, bu kitab Quran, ailə, əxlaq, hüquq və sosiologiya mövzularını əhatə edir. Xatırladırıq ki, buna Quranı mövzu əsasında (tematik) təfsir etmə metodu deyilir və müasir dövrdə geniş şəkildə yayılmışdır. Kitabdakı ayələrin təfsirində əsasən "Əl-Mizan", "Nümunə" və "Təsnim" təfsirlərinə istinad olunmuşdur.

[1] "Rum" surəsi, ayə 21.

# BİRİNCİ HİSSƏ

- ***QURANDA QADIN-KİŞİ MÜNASİBƏTLƏRİNDƏ DAVRANIŞ QAYDALARI***
- ***AİLƏ TƏMƏLİNİN SABİTLİYİNİ POZAN AMİLLƏR***
- ***AİLƏ PROBLEMLƏRİNİ HƏLL ETMƏK ÜÇÜN QURANIN GÖSTƏRİŞLƏRİ***
- ***AİLƏNİN HÜQUQİ MƏSƏLƏLƏRİ***
- ***AİLƏNİN EHTİYACLARINI TƏMİN ETMƏK***

kitaboxu.com

## Quranda qadın-kişi münasibətlərində davranış qaydaları

Ailə sağlam cəmiyyətə nail olmaq üçün mühüm faktordur. Bir sözlə ailə bir məktəbdir. Bu məktəbin məzunları isə sağlam və saleh övladlardır. Ailə təməlini möhkəmləndirən prinsiplərdən ailənin mənəvi sağlamlığını artırmaq üçün istifadə etməklə, həm ailə daxilində inkişafa, həm də cəmiyyətin sağlam olaraq tərəqqisinə zəmin yarada bilərik. Belə ailələr isə cəmiyyətdə nümunəvi ailəyə çevrilə bilər. Bu səbəbdən də Quran ayələri əsasında ər-arvadın qarşılıqlı münasibətində davranış prinsiplərini müzakirə etmək lazımdır. Diqqət olunmalıdır ki, burda məqsədimiz yalnız fiqhi müzakirə deyil. Əksinə, fiqh, əxlaq, hüquq və dəyərləri əhatə edən bir müzakirədir.

Sual budur ki, Qurani-Kərimdə ər-arvadın qarşılıqlı münasibəti ilə bağlı prinsiplərimiz varmı? Elə prinsiplər ki, onlara əməl olunduqda, sağlam və ürək oxşayan ailə yaransın və ailə üzvləri belə mühitdə olmaqdan aramlıq hissi duysun və müəyyən bir inkişaf mərhələsinə çatmış olsun.

Bu mövzuda "ümumi və xüsusi qaydalar"la qarşılaşırıq. Onların bəzisi ailə, iş, məktəb, cəmiyyət, universitet və sair kimi mühitlərdə riayət edilməli olan ümumi qaydalardır. Bu qaydalar bütün insanlar üçündür. "İnsanları təhqir etmək, onlara nalayiq sözlər demək, tənə vurmaq, lağ etmək və s. kimi şərəf və ləyaqətin alçaldılması qanunla qadağandır. Bu qanunla yanaşı, həmçinin primitiv etik normalara riayət etmək lazımdır. Bu ümumi qaydalardan əlavə, ailədaxili xüsusi etik normalar da mövcuddur ki, onlardan bəzilərini aşağıda araşdırırıq:

**Birinci qayda:** ***Qarşılıqlı libas olmaq***

Qurani-Kərimdə buyurulur ki, kişi və qadın bir-birinin libasıdır. Qarşılıqlı libas olmaq özündə çox faydalıdır və əgər onlara əməl olunarsa, ailədaxili çoxsaylı mübahisə və münaqişilər azalar:

﴿...هُنَّ لِبَاسٌ لَكُمْ وَأَنْتُمْ لِبَاسٌ لَهُنَّ...﴾[1]

***"...Onlar sizin üçün libasdırlar və siz onlar üçün libassınız...."***

Kişi və qadın qarşılıqlı olaraq bir-birinin libasıdır. Bu ifadədən bəzi mətləbləri əldə etmək olar:

- Libas bədəni soyuq və istidən qoruyur. Yəni, qoruyucu xüsusiyyətə malikdir.
- Libas sahibinin əyninə olmalıdır. Bir insan üçün paltar seçsək, seçdiyimiz insana uyğun gəlməlidir.
- Libas bədənin örtüyüdür. Yəni, bədəndəki eyibləri örtür. Libas dəridə olan qara ləkələrin görünməsinə yol vermir.
- Libas həm də bəzək və zinətdir.

Məlum oldu ki, "qoruma", "uyğunluq", "gözəllik", "örtmək" libasın xüsusiyyətlərindəndir və ayədə "ər-arvad bir-birinin libasıdır" deyildikdə, libasın bütün xüsusiyyətlərini yerinə yetirmək, yəni "bir-birini qorumaq", "bir-birinə zinət olmaq", "bir-birinin eyiblərini örtmək" və "bir-birinə uyğun olmaq" mənası başa düşülür. Bunları həyatımızda icra etməliyik.

kitaboxu.com

Hər kəsə hər sözü deməməliyik. Çünki biz bir-birimizin libasıyıq. Ailədə dava-dalaş və söz-söhbət baş verə bilər və demək olmaz ki, normal ailələrdə əvvəldən sona kimi heç zaman dava-dalaş olmur. Ər-arvad bir-birinin libasıdır. Bu, o deməkdir ki, ailədəki dava-dalaş və münaqişələr evdən kənara çıxaraq yayılmamalıdır. Ər-arvad bir-birinin libasıdırlar, yəni qarşılıqlı olaraq bir-birlərinin eyiblərini örtürlər. Ailədə səs-küy o qədər yüksək olmamalıdır ki, qonşu və başqa ailələr bundan xəbərdar olsunlar.

"Bir-birinin libasıdırlar", yəni qarşılıqlı olaraq **bir-birlərinin ruhiyyəsini anlamağa çalışmalıdırlar**. Qadın öz ailəsində bir tərbiyə, kişi isə öz ailəsində tamamilə başqa bir tərbiyə alıb. "Qadın kişinin, kişi isə qadının libasıdır." – deyiləndə, mənası budur ki: "Ey xanım! Ərinin libası ol. Ey kişi! Xanımının libası ol." Xəbər cümləsi (bir-birinin libasıdırlar) formasında olmasına baxmayaraq, ayə göstəriş vermə (bir-birinizin libası olun) məqamındadır. Yəni, ey xanım! Ərinin ruhiyyəsini tanı. Ey bəy! Xanımının ruhiyyəsini duy ki, mübahisələr və məsafələr azalsın və qarşılıqlı anlaşmaya nail ola biləsiniz.

---

[1] "Bəqərə" surəsi, ayə 187.

Ayədə "bir-birinizin libasısınız" deyiləndə, mənası budur ki, **başqaları ilə müqayisə etməyi özünüzdən uzaqlaşdırın**. Siz bir-birinizə aid olan libassınız. Bir-birinizə baxın. Başqalarına baxmaqla bir-birinizin paltarını cırıb ləkələməyin.

Münaqişə və dava-dalaş zamanı köhnə məsələləri açmayın. Bəzən insan dalaşdıqda, köhnə ailə münaqişələri zamanı baş verən hər şeyi dilə gətirir. Keçmişdə baş vermiş hadisələri dilə gətirməyin. Əks təqdirdə, onları bir daha təkrarlamağınız, münaqişəni yenidən gündəmə gətirməyiniz həlli mümkün olmayan bir problem yaratmağınız üçün zəmin yarada bilər.

Maraqlısı budur ki, ayədə hər iki tərəfin bir-birinin libası olduğu bildirilir; yəni qarşılıqlı olaraq bir-birinizi dinləyin və eşidin. Ayədə tərəflərin birinin yalnız libas və digərinin bədən olmasından söz açılmır. İkiniz də bir-birinizi əvəz edə bilərsiniz. Sən danışırsansa, qarşı tərəf dinləyici olsun və əgər o danışırsa, sən dinləyici ol. Həmişə danışan tərəf olmayın. Bəzən danışmaqla yanaşı, dinləyici də olun.

**İkinci qayda:** ***Məhəbbət və mərhəmət***

Ər-arvad münasibətlərinə aid başqa bir qayda məhəbbət və mərhəmət qaydasıdır. Qurani-Kərimdə bu barədə buyurulur:

﴿وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُمْ مِنْ أَنْفُسِكُمْ أَزْوَاجًا لِتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُمْ مَوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَالِكَ لَآيَاتٍ لِقَوْمٍ يَتَفَكَّرُونَ﴾ [1]

***"Sizin üçün yanlarında rahatlıq tapasınız deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun nişanələrindəndir. Bunda düşünən bir zümrə üçün ibrətlər vardır."***

Dünyada hər şeyin mədən və mənşəyi var. Məsələn: Dəmir, qızıl və s. mədənləri. Məhəbbət və mərhəmət mədəni isə ailədir. Uşağın mehriban və mərhəmətli olmasını istəyirsinizsə, bunun yeri ailədir. Ailə bu mədəni kəşf edib üzə çıxartmalıdır. Bundan sonra ailə mərhəmət və məhəbbətlə yanaşı olan aram və sevgi dolu bir mühitə çevriləçək. Uca Allah buyurur ki, Mən bu ikisini ailədə yerləşdirmişəm, sən də üzə çıxart. Ailədə bu qabiliyyət və istedad var ki, ondan rəhmət və məhəbbət meydana çıxsın. Mən sizin Rəbbiniz olaraq bunu ailədə yerləşdirmişəm, sizin vəzifəniz isə onu ərsəyə gətirməkdir. Bunlar ərsəyə gəlsə, o zaman ailə mərhəmət, məhəbbət və sevgi mənbəyinə çevrilər. Belə bir ailədə həm orada böyüyən uşaqlar, həm də ər-arvad bu növ tərbiyədən faydalanar.

**Bağışlamaq və güzəşt yolu ilə rəhmət və mərhəmətin ərsəyə gəlməsi**

Mərhəmət "yaşayışda güzəşt və bağışlamaq" deməkdir. Həyatımızı yalnız qaydalar, göstərişlər və qanun çərçivəsində yaşamamalıyıq. Güzəşt və mərhəmət ailədə bir mədəniyyətə çevrilməlidir. Əgər ailədə qarşılıqlı güzəşt yaransa, həyatınız rəhmət və mərhəmətlə birgə olacaq. Ailə mühiti iş mühitindən fərqlidir. Təbii ki, iş

[1] "Rum" surəsi, ayə 21.

mühiti də mərhəmətlə dolu olmalıdır. Lakin ailənin mərhəmətə iş mühitindən daha çox ehtiyacı var. İş mühitində mərhəmətə daha çox vasitə ünvanında baxılır, ancaq ailədə olan rəhmət öz haqqından keçərək güzəşt etməkdir və bu, mərhəmətə qanun və vəzifə ünvanında yanaşmaq deyil. "Güzəşt"in bir nümunəsi də şəxsi haqlardan keçməkdir.

**Sevgi yolu ilə rəhmət və mərhəmətin ərsəyə gəlməsi**

Allah mərhəməti ailə mühitində yerləşdirmişdir. Asanlıqla və tərəflərin bir-birinə sevgi bəsləməsi ilə onu yaratmaq mümkündür. Hədislərdə "ailənizə dilinizlə "səni sevirəm" deyin" – deyə qeyd edilməsi bu rəhmət və mərhəmətin üzə çıxarılması üçündür. Uca Allah buyurur ki, mən bu rəhmət mədənini ailədə təyin etmişəm. Bu mədən ailədən kənarda mövcud deyil. Daha doğrusu, bu mədən ailədən kənarda fəsad, günah və ailələrin dağılmasına səbəb olur. Amma ailədə bu mədən "səni sevirəm" deməklə ərsəyə gəlir.

Həyatda bəzi münasibətləri xatırlayaq. Allahın Rəsulu (s) xanım Xədicənin (ə) vəfatının ildönümündə qurban kəsər və möminlər anası xanım Xədicənin (ə) dostlarına ehsan verərdi. Müsbət münasibətləri, müsbət işləri və bir-birinin zəhmətlərini xatırlamaq məhəbbət yaradır.

**Üçüncü qayda:** ***Nəzakətli davranış***

Quran ayələrinə əsaslanan ər-arvad münasibətlərinə aid başqa bir qayda **"nəzakətli davranış"** qaydasıdır. Bu barədə mübarək "Nisa" surəsində belə oxuyuruq:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَحِلُّ لَكُمْ أَنْ تَرِثُوا النِّسَاءَ كَرْهًا وَلَا تَعْضُلُوهُنَّ لِتَذْهَبُوا بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلَّا أَنْ يَأْتِينَ بِفَاحِشَةٍ مُبَيِّنَةٍ وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِنْ كَرِهْتُمُوهُنَّ فَعَسَىٰأَنْ تَكْرَهُوا شَيْئًا وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْرًا كَثِيرًا﴾ [1]

***"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş və nəzakətli rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun."***

Bu ayə uca Allahın Quranda qeyd etdiyi ən mühüm etik normalardan biridir. Bu mövzu ilə bağlı həm fiqhi, həm də digər kitablarda çoxlu nümunələr qeyd edilmişdir. Sözügedən ayəni həm fiqhi və həm də əxlaqi baxımdan nəzərdən keçirtmək olar:

**a) Fiqhi baxış**

Davranışın bir neçə növü var. Onlardan biri də adət-ənənə əsasında davranışdır. Adət-ənənə baxımından davranışı nəzərə alsaq, ayəni **"Onlarla adət-ənənəyə əsasən**

---

[1] "Nisa" surəsi, ayə 19.

**rəftar edin!”** kimi məna etməliyik. Bu zaman ayənin mənası belə olur ki, qadınların adət-ənənə ilə tənzimlənən hüquqları var və onlara riayət edilməlidir. Məsələn, əgər bir şəhərdə və ya bir bölgədə qadının qulluqçusunun olması adətdirsə, bu, onun üçün təmin edilməlidir.

**b) Əxlaqi baxış**

Əxlaqi təhlilə əsaslanaraq bildiririk ki, “**Onlarla xoş və nəzakətli rəftar edin!”** ayəsində işlənən “məruf” (yaxşı) sözü ilə ürfdə adət-ənənə halını almış işlər deyil, bir cəmiyyətin adət-ənənəsi tərəfindən yaxşı sayılan məsələlər nəzərdə tutulur. Çünki bir çox məsələlər adət-ənənə olduğu halda, cəmiyyətin onu pis hesab etməsi mümkündür. Ürfün adət-ənənəsində şəri baxımdan yaxşı sayılan şeyləri ağıl da yaxşı hesab edir. Beləliklə, onlarla adət-ənənəyə əsasən davranın, yəni həyat yoldaşınızla gözəl və nəzakətlə rəftar edin. Bir tərəfdən, əxlaqi baxımdan “**gözəl danışıq**”, “**qaş-qabaqlı olmamaq**”, “**zorakılıq etməmək**”, “**yersiz üzü turşutmamaq**” və digər tətəfdən, fiqhi aspektdən “**ailə xərclərinin tam ödənilməsi**” Qurani-Kərimdəki sözügedən qaydanın bariz nümunəsi kimi göstərilə bilər.

Quranda “**talaq-boşanma**” kimi həssas məsələlər zamanı da gözəl davranışdan bəhs edildiyini görmək olar. Belə hallarda talaq vermək qadınların haqqını, aliment və mehriyələrini kəsməyə səbəb olmamalıdır.

**“Xarici görünüşə diqqət etmək”** bu qaydanın başqa bir nümunəsidir. Bəzi təfsirlər və hədislərdə qeyd edilir ki, həyat yoldaşınızın gözəl görünməsini istədiyiniz kimi, siz də zahiri görünüşünüzə diqqət yetirin. Onların sizlə necə davranmasını istəyirsizsə, siz də onlarla elə rəftar edin. Bu istək “xarici görünüş”ə də aiddir. Əgər xanımınızın gözəl görünməsini sevirsinizsə, özünüzün xarici gözəlliyinizə də diqqət yetirin.

**Dördüncü qayda:** ***Qarşılıqlı hüquq***

Ər-arvad münasibətlərində başqa bir qayda qarşılıqlı hüquqlarla bağlıdır. Qurani-Kərimin “Bəqərə” surəsinin 228-ci ayəsində bu qaydaya işarə edilərək vurğulanır ki, insan yalnız özünü düşünməməlidir. Qadınların öhdəsində vəzifələr olduğu kimi, onların xeyirinə olaraq eynilə kişilərin də üzərinə düşən vəzifələr var. Yəni, bu vəzifələr mövzuya görə dəyişsə belə, qarşılıqlıdır və hər iki tərəfin üzərinə düşür. Burada önəmli olan haqq baxış və mövzuya görə dəyişən öhdəlik məsələsidir.

﴿وَالْمُطَلَّقَاتُ يَتَرَبَّصْنَ بِأَنْفُسِهِنَّ ثَلَاثَةَ قُرُوءٍ وَلَا يَحِلُّ لَهُنَّ أَنْ يَكْتُمْنَ مَا خَلَقَ اللَّهُ فِي أَرْحَامِهِنَّ إِنْ كُنَّ يُؤْمِنَّ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَبُعُولَتُهُنَّ أَحَقُّ بِرَدِّهِنَّ فِي ذَالِكَ إِنْ أَرَادُوا إِصْلَاحًا وَلَهُنَّ مِثْلُ الَّذِي عَلَيْهِنَّ بِالْمَعْرُوفِ وَلِلرِّجَالِ عَلَيْهِنَّ دَرَجَةٌ وَاللَّهُ عَزِيزٌ حَكِيمٌ﴾ [1]

***“Talaq verilmiş qadınlar üç paklıq müddətinə kimi gözləməlidirlər. Əgər Allaha və axirət gününə imanları varsa, Allahın onların bətnlərində yaratdığını***

[1] “Bəqərə” surəsi, ayə 228.

*gizlətmələri caiz deyildir. Əgər barışıq qəsdləri olsa «iddə» müddəti ərzində ərləri onları geri qaytarmağa daha haqlıdırlar. Qadınların boynunda kişilərin haqları olduğu kimi kişilərin boynunda (da) onların bəyənilən hüquqları vardır. (Hüquqlar arasındakı kəmiyyət və keyfiyyət fərqlərinə əsasən) kişilərin onlardan üstünlükləri vardır. Allah qüdrətli və hikmət sahibidir."*

kitaboxu.com

## Ailə təməlinin sabitliyini pozan amillər

İslam dininə görə ailə təməli müqəddəs və mübarək bir təməldir. İslam peyğəmbərindən (s) nəql olan mübarək hədisə əsasən İslamda evlilikdən daha sevimli bir quruluş və təməl yoxdur. Bu ifadə evliliyin fərd, ailə və cəmiyyətə verdiyi töhfələri baxımındandır.

﴿مَا بُنِیَ بِنَاءٌ فِی الْإِسْلَامِ أَحَبُّ إِلَی اللَّهِ مِنَ التَّزْوِیجِ﴾ [1]

Allahın Rəsulu (s) buyurmuşdur: ***"İslamda heç bir bünövrə evlənmək qədər Allah-taala yanında sevimli deyildir."***

Bu müqəddəs təməlin sabitliyini pozan və ailənin möhkəmliyini təhlükəyə salan amilləri tanımalı və üzə çıxartmalıyıq. Həmin amillər dörd hissədən ibarətdir:

**Birinci hissə:** ***Ailə təməlinin əvvəldən zəif olması***

Ailə bina kimidir. Əgər bu bina köhnəlmiş və ikinci dərəcəli materiallarla inşa edilərsə, nəticədə zəif bir bina olar. Belə zəif binanın da kiçik bir sarsıntı üzündən problemlə üzləşməsi təbiidir. Bu səbəbdən birinci hissə köhnəlmiş materiallarla inşa edilmiş ailəni təhlükəyə salan amillərlə bağlıdır. Bu, Quranın da bildirildiyi məsələdir:

﴿الزَّانِی لَا یَنْکِحُ إِلَّا زَانِیَةً أَوْ مُشْرِکَةً وَالزَّانِیَةُ لَا یَنْکِحُهَا إِلَّا زَانٍ أَوْ مُشْرِکٌ وَحُرِّمَ ذَالِکَ عَلَی الْمُؤْمِنِینَ﴾ [2]

***"Zinakar kişi ancaq zinakar və ya müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar və ya müşrik bir kişiyə ərə gedə bilər. Möminlərə isə bu, haram edilmişdir."***

---

[1] Həsən ibn Fəzl Təbərsi, "Məkarimul-əxlaq", səh 196.

[2] "Nur" surəsi, ayə 3.

﴿الْخَبِيثَاتُ لِلْخَبِيثِينَ وَالْخَبِيثُونَ لِلْخَبِيثَاتِ وَالطَّيِّبَاتُ لِلطَّيِّبِينَ وَالطَّيِّبُونَ لِلطَّيِّبَاتِ أُولَئِکَ مُبَرَّءُونَ مِمَّا يَقُولُونَ لَهُمْ مَغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ﴾ [1]

***“Pis qadınlar pis kişilərə, pis kişilər isə pis qadınlara, eləcə də pak qadınlar pak kişilərə, pak kişilər də pak qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.”***

Ailənin bünövrəsi zəif olsa və keyfiyyətsiz materiallarla qurulsa, kiçik problemlər səbəbilə zədələnər. Ailə təməlinin zəif qurulmasına misal olaraq aşağıdakı nümunələrə diqqət yetirin:

1) Küçə tanışlığı nəticəsində ailə qurmaq;
2) Özünü tanıtmaq və həyat yoldaşını tanımaqda reallığı nəzərə almadan ailə qurmaq;
3) Yalnız xarici gözəlliyinə görə evlənmək;
4) Ailələrin təzyiqi nəticəsində qurulan evlilik;
5) Bir-birilərini, zövqlərini və mədəniyyətlərini yetərincə tanımadan qurulan ailə;
6) Maddi mənfəət əsasında həyat yoldaşının seçimi.

İslam dininin bir-birinə tay və bərabər olanların evlənməsinə tövsiyə etməsi ailə təməlinin əvvəldən möhkəm olması ilə bağlıdır. Evliliyin gerçəkləşməsinə səbəb olan yanlış dəyişkən meyarlar, gözəllik və süni küçə dostluqları həmişə sabit qalmır. Belə məsələlərə əsaslanaraq qurulan ailədə ciddi problemlər qarşıya çıxacaq və bu dəyişkən meyarlar kənarda qalacaq.

**İkinci hissə:** *Ailə təməlinin həyat boyunca zəifləməsi*

Bəzən bina standartlara uyğun tikilir, ancaq həmişə sağlam qalmır. Binanın daxildən və yaxud xaricdən dağılması mümkündür. Bu da ailə təməlini dağıdan və zəiflədən amillərdən biridir. Ailənin dağılmasına səbəb olan amillərdən bəziləri əxlaq, agahlıq və dünyagörüşü, bəziləri isə hüquq, fiqh və şəriətlə bağlıdır.

**Ailəni zəiflədən əxlaqi amillər**

Ailəni zəiflədən **əxlaqi** amillərə bir-birinə qarşı pis rəftar, yersiz təəssübkeşlik, sui-zənn, bir-birini təhqir etmək, ərin xəsisliyi və sairə kimi məsələlər daxildir.

**Ailəni zəiflədən hüquqi amillər**

Bəzən problemin kökü fərdi haqlardan qaynaqlanır. Bir-birinin haqqına riayət etməmək, insaf və ədalət qaydasını görməzdən gəlmək və s. ailənin zəifləməsinə səbəb olan hüquqi amillərdəndir.

[1] “Nur” surəsi, ayə 26.

**Ailəni zəiflədən elmi amillər**

Bəzən "elmi" amil və "ailənin idarəçiliyində düzgün məlumatın olmaması" ailəni zəiflədir. Ər-arvad məsələsində Uca Allah buyurur ki, kişi ailənin başçısı və idarəçisidir:

﴿الرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاءِ بِمَا فَضَّلَ اللَّهُ بَعْضَهُمْ عَلَى بَعْضٍ وَبِمَا أَنْفَقُوا مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِلْغَيْبِ بِمَا حَفِظَ اللَّهُ وَاللَّاتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلَا تَبْغُوا عَلَيْهِنَّ سَبِيلًا إِنَّ اللَّهَ كَانَ عَلِيًّا كَبِيرًا﴾ [1]

***"Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və (əgər yenə xeyiri olmasa, şəriət qanunu çərçivəsində) onları vurun. Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür."***

Ancaq diqqət etməliyik ki, başçı olmaq özünü üstün görmək mənasında deyil. Baçşılığın mənası "ailənin idarə edilməsi" deməkdir. Əgər müdir məktəbi idarə edirsə, bu, o demək deyil ki, müdir müavindən daha çox insani dəyərə malikdir. Məktəb müdiri sadəcə məktəbin idarəçisidir. "Ailə başçısı kişidir" deyəndə də bu nəzərdə tutulur. İdarəçilik qadınların hüquqlarını əlindən almaq, hökmranlıq etmək, hüququndan sui-istifadə etmək və s. mənada deyil. Başçılığın mənası münasib həll yolları ilə ailəni müdrik şəkildə idarə etmək deməkdir.

**Virtual aləm və ailə təməlinin zəifləməsi**

Virtual aləm və sosial şəbəkələr ailə təməlini zəiflədən müasir dünyanın məhsuludur. Bu məhsul xəyanət, qeyri-qanuni və şəriətə uyğun olmayan münasibətlər və naməhrəmlərlə davamlı əlaqələrin yaranmasına səbəb olmuşdur. Bütün bunlar da öz növbəsində ər-arvadın mənəvi bağlılığının ailədən uzaqlaşmasına, ailə daxilindəki emosional münasibətin kəsilməsinə və ömrün ailədən kənarda keçməsinə səbəb olur. Bunların hamısı ailənin təməlini tədricən məhv edir. Nəticədə yeni məşğuliyyətlər yaranır.

**Ailəni zəiflədən iqtisadi amillər**

Ailənin zəifləməsinin iqtisadi səbəbləri də ola bilər. Təbii ki, aidiyyatı qurumlar da bu barədə tədbir görməli və bu məsələ ilə ciddi məşğul olmalıdırlar. İşsizlik, yoxsulluq və qeyri-münasib iqtisadi şərait ailədə stabilliyi pozur və problemlər yaradır. Bunlar ailənin təməlini zəiflədən amillərdir.

[1] "Nisa" surəsi, ayə 34.



kitaboxu.com

**Üçüncü hissə:** ***Ailə təməlinin möhkəmlənməsini qorumamaq***

Ola bilər ki, bir ailə əvvəldən düzgün seçimlə formalaşsın, sonradan da zəifləməsin, amma onu zəifldən kənar təsirlərin qarşısı alınmasın. Söhbət ailə təməlini qorumamaqdan gedir. Məqsəd yersiz müdaxilələrə nəzarətin olmaması və ailə mühitinə yad söhbətlərin daxil olmasına biganəlikdir. Bunlar ailə təməlini zəifldir. Ailə təməlinin sarsılması ilə nəticələnən kənar şəxslərin müdaxiləsi bilərəkdən və ya cəhalət üzündən, hətta nadanlıqdan irəli gələn sevgidən də ola bilər.

Bu zaman ailə təməlini ağıl və məntiq əsasında qorumaq lazımdır. Rasional müdafiədə məqsəd ehtiyatlı və müdrik tədbir görmək və dağıdıcı xarici amillərə nəzarət etməkdir. Belə ki, həm başqalarının, o cümlədən, valideynlərin və bacı-qardaşların hörməti qorunsun və həm də ailə daxilinə dağıdıcı təsirlərin qarşısı alınsın.

**Dördüncü hissə:** ***Bəzi məsələləri və fəaliyyətləri tərk etmək***

Bəzi işləri tərk etmək ailədə qeyri-sabitliyə səbəb olur. İnsan bəzi işləri tərk etməklə ailəni inkişaf etdirmir və ailə təməlini möhkəmləndirmir. Bəzi tədqiqatçılar qeyd edirlər ki, ailədə məhəbbət hər zaman qorunub saxlanılmalı və inkişaf etdirilməlidir. Məhəbbət "çiçək" timsalındadır. Çiçəyə qulluq etmək və qorumaq lazımdır ki, böyüsün, inkişaf etsin və güclənsin. Ailə bir-birinə məhəbbət əsasında formalaşsa da bu məhəbbəti artırmaq və inkişaf etdirmək lazımdır. Məsələn, məhəbbəti ailədə inkişaf etdirmək əvəzinə, onu ailəni zəiflədən amillər sayılan yerdə inkişaf etdirmək həmin yerlərə bağlılıq yaradır ki, bu da bəzi məsələlərin və fəaliyyətlərin tərk edilməsi deməkdir.

Ailənin sütunları var. O sütunlardan biri "ər-arvadın bir-birinə qarşı məhəbbəti", digəri isə "duyğusal ehtiyac" və "ər-arvadın bir-birinə fitri ehtiyacı"dır. Əgər bu məhəbbət və ər-arvadın bir-birinə qarşı emosional ehtiyacı ailədən kənarda təmin edilərsə, istər-istəməz belə bir ailə ibtidai və solğun sevgi ilə yaşamağa davam edəcək. Belə olduğu təqdirdə, həmin məhəbbət ailədən kənarda inkişaf edəcək və nəticədə ailə daxilində təmin edilməli olan ehtiyac ailədən kənarda qarşılanacaq.

Quran iffətə, cəmiyyətdə naməhrəmlə ünsiyyətə, hətta səs tonuna qarşı həssaslıqla yanaşır. Bu həssaslıq ona görədir ki, emosional, mənəvi, hətta fitri və cinsi ehtiyaclar cəmiyyətdə deyil, ailə daxilində təmin edilsin. Allah-taala "Əhzab" surəsində buyurur:

﴿يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَعْرُوفًا وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾ [1]

***"Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, yad kişilərlə nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Şəriətə müvafiq qaydada danışın. Evlərinizdə qalın! İlk cahiliyyə dövründə olduğu kimi, açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Həqiqətən, Allah siz Əhli-Beytdən hər cür pisliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etmək istəyir."***

Əgər din qadınların saçından danışırsa, burada məqsədi bir qadının saç telləri deyil. Şəriət məsələlərinə bu prizmadan baxanlar sualı dəyişərək "Ailə necə dağılır?" məsələsi üzərində fikirləşməlidirlər. Bunun səbəblərindən biri ər-arvadın fikrinin ailədən kənarda olmasıdır. Başqa bir səbəb qadının və kişinin başqalarının zinət və gözəlliklərinə baxaraq fikrini onlarla məşğul etməsidir.

Bu səbəbdən iffət və hicab məsələsi yalnız axirət və şəriət hökmü kimi müzakirə edilməməlidir. Söhbət həm də ailənin möhkəmliyindən gedir. Əgər bir qadın öz bəzək əşyaları və geyindiyi paltarlarla cazibəli formada cəmiyyətə çıxsa, başqalarını cəzb edəcəkdir. Həmin qadın imanı zəif olanların və hətta imanı güclü olanların belə diqqətini özünə çəkəcək və fəsadın yaranmasına səbəb olacaqdır. Bu tip qadınlar özlərini ailədən kənar yolda məşğul edirlər. Bununla da ailənin təməli tədricən zəifləyir və həmin şəxsin qəlbi başqa yerə yönəlir.

Bunlar bəzi işləri tərk etməklə yaranan incə məqamlardır. Əgər ər-arvad olaraq bunları həll etməsək, ailənin ilkin təməlindən yaranan məhəbbəti gücləndirməsək, sadalanan məsələlər ailə təməlinin zəifləməsinə səbəb olacaqdır.

Bəzi məsələlər və fəaliyyətlərin tərk edilməsi mövzusunda nəzərə alına biləcək başqa bir cəhət ailəni inkişaf etdirməməkdir. Ailənin inkişafı deyərkən, ailəni həqiqi eşq və mərhəmət mənbəyinə, həyatda həqiqi ləzzət mənbəyinə çevirmək nəzərdə tutulur. Bunlar ailəyə ucalıq gətirir.

Bəzi insanlar sırf fiziki ehtiyaclarını ödəmək üçün ailə qurur. Amma qeyd edildiyi mənada ailəni inkişaf etdirməyə başlayarkən ailə daxilində necə mənəvi gözəlliyin olduğunu müşahidə edir. Bu zaman insanların mənəvi aramlığı, kişi və qadının ruhi rahatlığı üzə çıxır.

Ailəni inkişaf etdirmək davranışla, ailə qurmağın gözəlliyini dərk etməklə habelə övlad sahibi olmaqla həyata keçirilir. Qurani-Kərimə əsasən, əgər ailə qurmaq

---

[1] "Əhzab" surəsi, ayə 33.

yolunda problemlərlə qarşılaşsanız və bu problemlərdən narahat olsanız, səbir edin. Sonra isə maraqlı bir məqama toxunaraq belə buyurur:

﴿وَ عَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ﴾ [1]

***“Onlarla gözəl və mülayim rəftar edin”***

Əgər ailədə nalayiq işlər və narahatlıqlar yaransa, ailənin dözüm, səbir və hövsələ nümayiş etdirməsi çoxsaylı xeyirə səbəb olacaqdır. Nümunə üçün ailənin gözünün işığına çevriləcək övladın dünyaya gəlməsi o xeyrlərdən biridir. Bütün bu işlər ailəni inkişaf etdirərək yüksəlməsinə zəmin yaratmağa xidmət edir.

Qurani-Kərimin “Təğabun” surəsində belə buyurulur:

﴿يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِنَّ مِنْ أَزْوَاجِكُمْ وَ أَوْلَادِكُمْ عَدُوًّا لَّكُمْ فَاحْذَرُوهُمْ وَ إِن تَعْفُواْ وَ تَصْفَحُواْ وَ تَغْفِرُواْ فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ﴾ [2]

***“Ey iman gətirənlər! Zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar da vardır. Onlardan qorunun! Lakin onları əfv etsəniz, göz yumsanız və bağışlasanız, (bilin ki,) Allah bağışlayandır, rəhimlidir.”***

Ailənizə mükəmməllik bəxş etmək istəyirsinizsə əfv və bağışlamağı həyatınız üçün bir qanun olaraq təyin edin. Əfv etmək qarşılıq verməmək, əvəz çıxmamaq və görməzldən gəlməkdir. Bağışlamağı bacarın və eyiblərin üstünü mərhəmətlə örtün. Bu mərhələlər ailənin heç bir mühitdə tapılmayan mənəvi gözəllik və ləzzət mənbəyinə çevirilməsinə səbəb olacaq.

---

[1] “Nisa” surəsi, ayə 19.
[2] “Təğabun” surəsi, ayə 14.

## Ailə problemlərini həll etmək üçün Quranın göstərişləri

Quranda ailə ilə bağlı müzakirələrin bəziləri evliliyin məqsəd və məramları, digər bir qismi isə ailə təməlinin möhkəmliyi ilə əlaqədar idi. Bu fəsildə "Qurani-Kərimdə ailə problemlərinin həll yolları" barədə bəhs edəcəyik.

Ailə problemsiz deyil. Buna görə də ailə daxilində problemlərin yaranması təbiidir. Amma Quranın bu problemlər üçün hansı həll yollarını təklif etdiyinə nəzər salmaq lazımdır.

Burada müzakirə iki hissəyə bölünməlidir. Birinci hissə "ixtilaf və problemlərin qarşısının alınması" üçün Qurani-Kərimin təklif etdiyi həll yolları barədədir. Digər hissəsi isə ailədə olan "mübahisə və ixtilafların aradan qaldırılması"nı əhatə edir.

**a) Ailədəki ixtilafların qarşısını almaqda qabaqlayıcı tədbirlər**

**1) Məhəbbət və sevgini artırmaq**

Ailədə ər-arvad arasında sevgi və məhəbbət inkişaf etməlidir. Məhəbbəti artırmaq ixtilafların qarşısını almaq üçün qoruyucu amildir. Bu iş eyni zamanda ixtilafların qarşısını almaq üçün ailə təməlini gücləndirən səbəbdir.

Ailə təməlini möhkəmləndirmə yolları, ailədə məhəbbəti artıran amillər və həmçinin, mərhəmət və məhəbbət yayan davranışlar istər-istəməz ailədə məhəbbəti artırır və ailə münaqişələrinin qarşısını alır.

**2) Təlim**

Burada ikinci məqam ər-arvadın həm nikahdan əvvəl, həm də birgə yaşayışlarında öyrənməli olduğu məsələlərdir. Bu bilik və təlimlər insanlara bir yerdə yaşamaq və bir-biri ilə qarşılıqlı anlaşma məharəti verir. Bütün bunlar ixtilaf və münaqişələrin qarşısını alır.

kitaboxu.com

### b) Ailədə olan problem və ixtilafları aradan qaldırmaq

Birinci hissədə ailədə yaranan münaqişələrin qarşısının alınması haqqında danışdıq. Amma bu hissədə söhbət qabaqlayıcı tədbirdən deyil, ailədəki fikir ayrılıqlarının "həlli" və onları aradan qaldırmaqdan gedəcək. Qurani-Kərimə müraciət etsək, görərik ki, ailədəki ixtilafların həlli üçün dörd mərhələ qeyd olunur:

**Birinci mərhələ: Özünü islah etmək**

İlk addım özünü islah etməkdir. Yəni, hər kəs bir insan olaraq təqva və insafa riayət etməli və qəzəbini cilovlamalı, həyatındakı mənfi əxlaqi xüsusiyyətlərə nəzarət etməlidir. Ümumiyyətlə, özünü islah etmək bir çox ailə problemlərini həll edir. Bəzən insan təkəbbürlü, gözləntiləri çox, təqvasız və yalançı olduğu üçün problemlər həll olmur. Ümumi və xüsusi təqva baxımından özünü islah etmək ailədəki problemləri həll edir və aradan qaldırır. Məhz, buna görədir ki, imam Əlidən (ə) belə nəql edilmişdir:

﴿التَّقْوَى رَئِيسُ الْأَخْلَاقِ﴾ [1]

*"Təqva bütün əxlaqi dəyərlərin tacıdır."*

**İkinci mərhələ: Ər-arvadın öz aralarında sülh etməsi (razılaşması)**

"Nisa" surəsində "ər-arvadın öz aralarında sülh etmələri" barədə bəhs edilir. Bu mübarək surənin 128-ci ayəsində ər-arvadın ailə ixtilaflarını böyütməmələri, öz aralarında barışıq və güzəştə getmələri və bir-birlərini səmimi danışıq nəticəsində qane etmək və təbii ki, qane olmaqla problemi həll etmələri barədə söz açılır. Burada "tayfalar" yaxud "ailələr" arasında razılıqdan deyil, ər-arvadın "öz aralarında" sülh və razılığa gəlməsindən söhbət gedir. Ayədə buyurulur:

﴿وَإِنِ امْرَأَةٌ خَافَتْ مِنْ بَعْلِهَا نُشُوزًا أَوْ إِعْرَاضًا فَلَا جُنَاحَ عَلَيْهِمَا أَنْ يُصْلِحَا بَيْنَهُمَا صُلْحًا وَالصُّلْحُ خَيْرٌ وَأُحْضِرَتِ الْأَنْفُسُ الشُّحَّ وَإِنْ تُحْسِنُوا وَتَتَّقُوا فَإِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾ [2]

***"Əgər bir qadın öz ərinin itaətsizliyindən, ya (ondan) üz döndərməsindən qorxsa, o ikisinə aralarında bir növ sülh və barışıq etmələrində günah yoxdur. (Əslində) sülh daha yaxşıdır. (Əlbəttə,) paxıllıq və gözü götürməzlik təbiətcə (insanların) canların(ın) ayrılmaz bir hissəsinə çevrilmişdir (onların öz haqlarından keçmələri çətindir). Əgər yaxşılıq etsəniz və təqvalı olsanız, şübhəsiz, Allah etdiklərinizdən xəbərdardır."***

Bu mübarək ayədən beş prinsip əldə etmək olar. Əgər bu prinsiplərə diqqət yetirsək, bir çox ixtilaf və münaqişələr həll olar:

---

[1] Leysi, Əli ibn Muhəmməd, "Uyunul-hikəm vəl-məvaiz", səh 42.

[2] "Nisa" surəsi, ayə 128.

**Birinci prinsip:** ***İslah etmək və yaxşılaşdırmaq niyyətində olmaq***

Ailə münaqişələrini həll etmək üçün birinci prinsip budur ki, danışıqlar talaq və boşanma fikri ilə deyil, sülh və vəziyyəti yaxşılaşdırmaq niyyəti ilə olmalıdır. Çünki boşanma ən son çarədir. Ailə münaqişələrini Qurani-Kərimin göstərdiyi kimi həll etmək istəsək, bir qanun olaraq talaq və boşanmağı ən son çarə olaraq görməliyik. Əks halda, hər hansı sadə bir məsələyə görə boşanmanı gündəmə gətirsək, problem həll olunmaz. Ər-arvad boşanmanı son çarə olaraq nəzərdə tutmalı və aralarını islah etməyə çalışmalıdırlar. Özlərini haqlı çıxartmağa çalışmaq əvəzinə, ailəni islah etmək onlar üçün daha önəmli olmalıdır. Bəzən insan ixtilafları həll etmək əvəzinə, özünü haqlı çıxartmağa çalışır. Mübarək ayədə buyurulur: ***"Sülh və barışmaq daha xeyirlidir."***

Beləliklə, məqsəd öz sözümüzü hakim etmək deyil, istənilən halda, güzəşt etmək, haqqımızdan keçmək və sairə kimi vasitələrlə barışıq və sülh yaratmaq olmalıdır.

**İkinci prinsip:** ***Əxlaqi baxış***

Problemləri hüquq və qanun çərçivəsində həll etməzdən öncə, onlara əxlaqi baxımdan yanaşmalıyıq. Təbii ki, hüquq və qanun cəmiyyət üçün lazımdır. Amma ailə münaqişələrinin həllində əxlaqi baxış prioritetdir. Yəni, öz haqqımıza çatmasaq belə, məsələyə güzəştə getmək prizmasından nəzər salmalıyıq. Bu, əxlaqi və fədakarcasına yanaşmadır. Bu, bağışlanma və güzəşti özündə ehtiva edən və çox önəmli bir baxışdır. Əgər insan məsələyə əxlaqi baxımdan yanaşsa, "Mən əyri-əskik olmadan bütün haqqlarıma çatmalıyam!" deməz, əksinə öz haqlarından keçməyi bacarar.

kitaboxu.com

**Üçüncü prinsip:** ***Xəsislikdən çəkinmək***

Qurani-Kərimin sözügedən ayəsində diqqət edilməli olan belə bir məqam var: ***"Paxıllıq təbiətcə (insanların) canların(ın) ayrılmaz bir hissəsinə çevrilmişdir."*** Ayənin ərəb mətnindəki "şuhh" kəlməsi "xəsislik" mənasındadır. Bu ifadənin mənası budur ki, insan bütün haqlarına sahib çıxmaq istəyir. Dindar olmasına baxmayaraq, bütün hüquqi gözləntilərinə sahib olmaq istəyir. "Şuhh" və "paxıllığın" mənası budur. Bu sözə diqqətlə nəzər salsaq, görərik ki, "şuhh" sözünün mənası "başqasının malına əl uzatmaq və başqasının malına sahiblənmək istəyi" mənasında deyil. Daha dəqiq mənası "özündən (öz haqlarından) heç nəyi azaltmaması" deməkdir. Bu sifətə malik olan insan hüquqlarından əl çəkmək, hüquqi gözləntilərini azaltmaq istəmir. Ehtiyatlı olun, çünki "şuhh" və "paxıllıq" sizin daxilinizdə mövcuddur və məbada, bu xüsusiyyət fikir ayrılıqlarını həll etməyə imkan verməyə! Əgər fikir ayrılıqlarının aradan qaldırılmasını istəyiriksə, "mən bütün haqqımı almalıyam" xəsisliyini nəzarətdə saxlamalıdır. Bu yerdə məsələyə əxlaq

prizmasından yanaşmaq lazımdır. Bu zaman ailə problemləri sevgi, məhəbbət və güzəşt ilə öz həllini tapacaq.

**Dördüncü prinsip:** ***Məsələyə yaxşılıq etmək prizmasından yanaşmaq***

Sözügedən mübarək ayədə başqa bir məqam isə islahla yanaşı, ***"Əgər yaxşılıq etsəniz"*** ifadəsi ilə xeyirxahlıqdan söz açılmasıdır. Qurani-Kərim ədalət və yaxşılıq etməyə əmr etmişdir. Ehsan və yaxşılıq etmək ədalətdən daha üstün anlayışdır. Bəzən insan problemi ədalətlə həll etmək istəyir; amma Quranda buyurulur: Ailə daxilində ədalət minimaldır. Problemə xeyirxahlıqla yanaşmaq lazımdır. Ədalət hər kəsin layiq olduğu haqqa çatması deməkdir, xeyirxahlıq isə insanın öz haqqından keçməsidir. Qurani-Kərimdə buyurulur: "Əgər yaxşılıq etsəniz və təqvalı olsanız," ailə qorunar və təməli möhkəmlənər.

**Beşinci prinsip:** ***Hamının eyni olmaması***

Digər bir məqam isə ***"sülh daha xeyirlidir"*** məntiqinin ailədə hakim olmasıdır. Buna əsasən belə nəticəyə gələ bilərik ki, hamı eyni deyil. Əgər insanda qarşı tərəfin də eynilə onun kimi düşünməsi gözləntisi varsa, bu, heç zaman mümkün olmayacaq. Fərqli mədəniyyət və mühitlərdə yaşamaq və digər amillər hamının eyni olmamasına səbəb olur.

Bu sözlərin mənası budur ki, ailə qurmaq bir-birinin eyni olması mənasında deyil. Ailə qurmaq qarşılıqlı anlaşma deməkdir; yəni ər-arvadın hər ikisi bir-birinin kənarında və birlikdə ailəni idarə etməlidir.

Təbii ki, müqəddəs şəriətdə ər-arvadın hər biri üçün hüquqlar nəzərdə tutulmuş və hər ikisinin riayət etməli olduğu vəzifələri vardır. Ancaq belə deyil ki, ailə həmişə hüquq və qanunla idarə olunmalıdır. Əksinə, ailəyə məhəbbət əsasında rəftar etmə də hakim olmalıdır.

**Üçüncü mərhələ: Başqalarından kömək almaq**

Başqalarından kömək istəmək Qurani-Kərimdə "Şiqaq ayəsi" kimi tanınan ayədə qeyd olunan həll yollarından biridir.

﴿وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَابْعَثُوا حَكَمًا مِنْ أَهْلِهِ وَحَكَمًا مِنْ أَهْلِهَا إِنْ يُرِيدَا إِصْلَاحًا يُوَفِّقِ اللَّهُ بَيْنَهُمَا إِنَّ اللَّهَ كَانَ عَلِيمًا خَبِيرًا﴾ [1]

***"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif təyin edib onların yanına göndərin. Əgər onlar barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah biləndir, xəbərdardır!"***

İxtilafların dərinləşməsi, ər-arvad arasında ədavətin yaranması və bir-birindən üz döndərmələri hiss olunsa, bu yerdə ***"aralarında sülh və barışıq yaratsınlar"*** məsələsi keçərli deyil. Çünki iş çətinləşib. Ayə bəyan edir ki, vəziyyət bu yerə çatsa,

---

[1] "Nisa" surəsi, ayə 35.

müşavirlərdən – təbii ki, ailənin xeyrini düşünən və münaqişənin həlli üçün məsləhət vermə qabiliyyəti olan müşavirlərdən – məsləhət almaq lazımdır.

Bəzən insanlara mübahisəni həll etmək üçün deyil, qarşı tərəfi daha da qıcıqlandıran məsləhətlər verilir. Məsələn deyilir: "Sən də ona filan sözü denən və filan formada onu təhdid et." Bu isə təbii ki, münaqişənin daha çox alovlanması ilə nəticələnir. Məsləhətçi problemi daha da mürəkkəbləşdirmək üçün deyil, islah, xeyirxahlıq və problemi həll etmək üçündür. Ayədə buyurulduğu kimi, müşavirlər ailənin xeyirini düşünən və problemini həll etmək istəyən "kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər" olmalıdır.

Hədis və ayələrə əsasən belə qənaətə gəlmək olar ki, hətta xeyirxah ailə ekspertlərindən də kömək almaq olar. Ailə məsləhətçisi olduğunu iddia edən hər kəs müşavir deyil. Bu sahədə mütəxəssis olmaq istəyən şəxs öz üzərində əhatəli işləməli və ekspert olmalıdır ki, məsələləri tam dərk edib onun müxtəlif cəhətləri ilə tanış olsun və birtərəfli, yaxud qərəzli məsləhətlər verməsin. Müşavir özünəməxsus sifət və xüsusiyyətlərə malik olmalıdır. Hər halda, ailə məsləhətçisinə müraciət etmək ailə münaqişələrinin həllində təsirli ola biləcək həll yollarından biridir.

**Dördüncü mərhələ: Qanundan yardım almaq**

Qanun və şəriət ər-arvad üçün vəzifələr müəyyən etmişdir. Kişinin və ya qadının inadkarlıq edərək itaətsizlik etmələri mümkündür. Müqəddəs şəriət və qanun bu özbaşınalığın qarşısını almaq üçün həll yolları göstərir ki, hər biri öz haqqına çatsın. Amma gördüyünüz kimi, bu həll yolu dördüncü yerdədir. Nəzərə almaq lazımdır ki, bu yol boşanmaya və ailənin bri-birinə qarşı tam soyuqqanlı olmasına səbəb ola bilər. Buna görə də ailə problemlərini məhz, deyilən tərtiblə həll etmək lazımdır.

kitaboxu.com

## Ailənin hüquqi məsələləri

Ailə məsələsində aydınlaşdırılmalı olan mövzulardan biri də ailənin hüquqi məsələləridir. Əvvəlki fəsillərdə ailənin möhkəmliyi faktorları və ailə təməlinin zəifləmə amillərindən bəhs edilmişdir. Amma İslam dinində ər-arvad üçün Allah tərəfindən ailə daxilində də bəzi hüquq və vəzifələr təyin edilmişdir.

Bəlkə də, İslamın cütlüklər üçün təsbit etdiyi hüquqlar müasir dünyada bəzi insanlar üçün başadüşülən deyil. Hər halda bu mövzuları açıqlamaq və onların izahında müxtəlif elmlərdən istifadə etmək lazımdır.

**Birinci məqam:** ***Nikah məcburi deyil, tərəflərin razılığı ilə olmalıdır***

Ailə tərəflərin razılığı ilə formalaşan bir quruluşdur. İslama görə, məcburi nikah pislənir və heç kəs ailə qurmağa məcbur edilməməlidir. Ona görə də ailə qurmaq istəyən cütlüklərin hər birinin razılığı önəmlidir. Əgər oğlan və qız ailə qurmağa razı olmasalar, bu əqd və nikah şəriət baxımından doğru deyil. Ona görə də nikahın həyata keçirilməsində məcburiyyət həm şəriət baxımından düzgün deyil, həm də yaratdığı mənfi təsirlərə görə zərərlidir. Ona görə də bəzilərinin İslama qarşı mənfi təbliğat apararaq dedikləri ***"İslam zorla ailə qurmağa dəvət edir"*** sözü yanlışdır. İslam baxımından iki yetkin şəxs öz ixtiyar və istəkləri ilə ailə qurur.[1]

Evlilik qarşılıqlı və könüllü əhd-peymandır. Deməli, hər ikisinin bir-birinə nisbətdə qarşılıqlı hüquq və vəzifələri var. Tərəflərin tələbləri də elə olmalıdır ki, halalı haram etməsin və şəriətə zidd olmasın. Onlar şəriətin təyin etdiyi hədd və meyarları gözləməklə nikah zamanı öz şərtlərini də bildirə bilərlər. Məsələn, xanım təhsil almaq istəyirsə, nikah müqaviləsi zamanı bunu bir şərt olaraq bəyan edə bilər.

[1] Əlbəttə, İslamda vilayət (qəyyumluq) nikahı da var. Bu tip nikahlarda əsas şərt odur ki, valideynlərin deyil, uşaqların məsləhəti nəzərə alınır. Bu cür evlilik nadir hallarda baş verir.

Qarşılıqlı əhd-peyman bağlamaq o demək deyil ki, insanın heç bir ixtiyarı yoxdur. Hər hansı bir halal işi haram edən, yaxud şəriətə zidd olan halları şərt etmək istisna olmaqla, istənilən şərtlər irəli sürmək barədə cütlüklər ixtiyar sahibidirlər.

Deməli, ailə hüquqlarının mənşəyi ər və arvadın bir-birilə bağladıqları qarşılıqlı əhd-peymandır. Bu qarşılıqlı əhd-peymanda nikahın mahiyyətinə zidd olmayan, halalı haram və yaxud haramı halal etməklə nəticələnməyən şərtlər də irəli sürə bilərlər.

**İkinci məqam:** ***Ədalət, yoxsa bərabərlik?!***

Ədalət və bərabərlik mövzusunu bir-birindən ayırmalıyıq. Əgər ailə hüquqlarını anlamaq istəyiriksə, bu iki anlayışı yaxşı dərk etməliyik. Əks halda paradoksal düşüncəyə düçar olacağıq. Bərabərlik hər iki tərəfə eyni şəkildə haqq vermək deməkdir. Ədalət isə hər kəsə öz məsuliyyətinə və ehtiyaclarına uyğun haqq vermək mənasındadır. Haqq və ədalətin mənşəyi fitri ehtiyac və fərdin ailədəki roluna qayıdır. Lakin bərabərlikdə tərəflərin ehtiyac və roluna baxılmır. Məsələn, insanın bədən üzvlərində olan hüceyrələri fərqlidir. Onların bəziləri zəif, bəziləri isə qüvvətlidir. Sümüklər möhkəm, gözlər isə zəifdir. Onların hər biri öz roluna və ehtiyacına uyğun olaraq özünəməxsus münasib şəraitə malikdir. Ailədəki hüquqlar da ər-arvadın ailədəki məsuliyyətinə və ehtiyaclarına əsasən təyin olunmuşdur. Ədalətin mənası budur. Beləliklə, əgər (Feminist məktəblərdə olduğu kimi) bütün bu hüquqları tərəflər üçün bərabər və oxşar kimi məna etsək, o zaman ailə təməli tərəflərin ailədə daşımalı olduğu məsuliyyətə görə deyil, real olmayan arzu və istəklər əsasında tənzimlənəcəkdir.

kitaboxu.com

Deməli, ədalətlə bərabərlik arasında fərq var. Bu səbəbdən bəzi feministlər: “İslam dinində qadınlara zülm edilir.” deyirlər. Ancaq zülmün qarşılığında bərabərlik deyil, ədalətin olmasına diqqət yetirmək lazımdır. Onlar bununla demək istəyirlər ki, İslamda qadına zülm olunduğu üçün bərabərlik yaradılmalı və eyni hüquqlara malik olmalıdırlar. Amma bu sözün özü paradoksdur. Zülm və haqsızlıq olunursa, bərabərlik yox, ədalət bərqərar olmalıdır.

**Üçüncü məqam:** ***Ailə hüquqlarına bir məktəb çərçivəsində baxmağın zəruriliyi***

Ailə hüquqlarını yaxşı anlamaq istəyiriksə, ona dinin ayrılmaz hissəsi kimi baxmalıyıq. Əgər ona dindən ayrı bir hissə kimi baxsaq, təbii olaraq paradoksa düçar olacağıq. Məsələn, bir köynəyin düyməsini çıxarıb insanlara izah etmək istəsək, etdiyimiz şərh və izah naqis olacaq. Bu zaman niyə düymə böyük deyil, balacadır və s. kimi sözlər deyiləcək. Amma əgər köynəyə uyğun olaraq izah edilsə, öz ölçüsündə tikildiyini və yerinə uyğun olduğunu görəcəyik. Ona görə də ailə hüquqlarına din və onun öz çərçivəsində baxmaq lazımdır.

İslam dini ailənin yaşayış xərcini (nəfəqəni) təmin etməyi kişinin öhdəsinə qoyub, həmçinin mehriyyənin vacibliyi və ailə xərclərinin təmin olunma vacibliyini isə qadının haqqı olaraq tanıyıb[1]. Bunun qarşılığında kişinin haqqı olaraq "kişiyə itaətin vacibliyi və onun izni ilə evdən çıxmağın vacibliyi"ni təyin edib. Bu kimi məsələlərə bir yerdə və bütövlükdə baxılmasa, məsələ aydın olmayacaq. İslam dininin heç bir yerində qadının maddi məsuliyyət daşıdığını görmürük, yəni qadının öhdəsində ödənilməsi vacib olan nəfəqə (ailə xərcləri) və maddi məsuliyyəti yoxdur. Yalnız subay yaxud boşanmış qadının ehtiyaclarını özünün təmin etməsi istisnadır. Əgər qadın tənha olsa, ağıl sahibi və yetkinlik dövrünə çatmış olsa, o zaman ehtiyaclarını özü təmin etməlidir.

Diyə (şəriətlə təyin olunmuş cərimə növü) mövzusunda isə qadından diyə almaq məsələsi müzakirə edilmir. İslam dini qadının öhdəsinə maddi məsuliyyət qoymamışdır. Təbii ki, öz yerində bunun səbəbi müzakirə olunmalıdır. Görəsən, niyə maddi məsuliyyət qadının üzərindən götürülüb?! Bəlkə də, bunun səbəbi budur ki, ana olmaq özü müqəddəs işdir və onu kiçik saymaq olmaz. Qadının üzərində maddi məsuliyyət yoxdur və diyənin ödənişi də bu məsələyə qayıdır.

İrs məsələsində də kişinin qadından iki dəfə çox irs payına sahib olması əldə olan malın necə sərf edilməsinə qayıdır. Belə ki, qadına çatan irs onun özünə məxsusdur və onun başqa heç bir maddi məsuliyyəti yoxdur. Ancaq kişinin həm özü, həm də himayəsində olanlar üçün maddi məsuliyyəti nəzərə alınaraq, mirasın çox hissəsi ona verilir. Buna görə də kişi ailənin maliyyə məsələlərinə cavabdehdir və maliyyə işləri onun öhdəsindədir.

Qadının diyəsinin kişinin diyə pulunun yarısı miqdarında olması qadının maddi cəhətdən məsuliyyət daşımadığına görədir. Diyə can və ya bədən müqabilində deyil. Qurana görə bir insanın canı və həyatı, bütün insanların canına bərabərdir[2]. Diyə insan bədəninin müqabilində də deyil. Bu baxımdan diyəyə "qanbahası" demək yanlışdır. Çünki diyə maddi məsuliyyətə görə tənzimlənir və həmin məsuliyyət əsasında təyin edilir.

Qeyd edilənlərdən bu nəticəyə gəlirik ki, məsələlərə dinin ayrılmaz hissəsi kimi və bütövlükdə nəzər salmaq çox önəmlidir.

---

[1] Yəni, kişinin ailə xərclərini təmin etməsi, qadının isə təmin olunması vacibdir. Bu məsələ İslam dininin qadına verdiyi dəyəri göstərir (tərcüməçi).

[2] "Maidə" surəsi, ayə 32. ***"Buna görə də İsrail oğullarına bildirdik ki, qətl törətməmiş və yer üzündə fitnə-fəsada bulaşmamış bir insanı öldürən şəxs sanki bütün insanları öldürmüş kimidir. Bir insanı ölümdən xilas edən şəxs sanki bütün insanları diriltmiş kimidir. Bizim peyğəmbərlərimiz İsrail oğullarına açıq dəlillər gətirdilər. Ancaq bundan sonra da onların bir çoxu yer üzündə həddi aşıb israf etdi."***

kitaboxu.com

**Dördüncü məqam:** ***Vəzifələrin fərqliliyi insani keyfiyyətləri təyin etmir***

İnsani dəyərlərlə "vəzifələrin fərqliliyi" mövzusunu ayırmayana qədər məsələlərdə çaşqınlıq və paradoksa düçar olacağıq. Məktəbdə bir nəfər müavin, digəri isə məktəbin müdiridirsə, vəzifə fərqinə uyğun olaraq hər birinin öz məsuliyyəti var. Bu zaman rəhbər şəxsin daha çox insani keyfiyyətlərə sahib olduğunu demək olarmı?! İnsani dəyərlər iş və ixtisasla ölçülür, yoxsa hər bir insana istedadına, təcrübəsinə və peşəsinə görə müəyyən vəzifələr verilir?! İnsanın istedadına görə ona müəyyən vəzifələrin verilməsi onun daha yaxşı və digərinin pis insan olması anlamına gəlmir. Ümumiyyətlə, vəzifə və rol bölgüsü heç də əxlaqi məsələ deyil.

**Beşinci məqam:** ***Ailənin fərdi və ictimai baxımdan müqəddəs bir qurum olması***

İslam dini ailəni insanın fərdi inkişaf mərhələsi hesab edir. İnsan dünyada tərəqqi etməlidir və ailə qurmaq onun inkişaf mərhələlərindən hesab edilir. Ailə bu baxımdan bütün üzvlər üçün rahatlıq mənbəyidir. Sosial və ictimai cəhətdən isə sağlam cəmiyyət sağlam ailədən asılıdır. Bu prizmadan yanaşdıqda, ailə İslamda həm fərdi, həm ictimai baxımdan müqəddəs bir təməl və qurumdur.

Bu müqəddəs qurum zay edilməməlidir. Bu gün bəzi feminist və humanist məktəblər ailənin dəyərini azaltmağa çalışır və ***"Ər-arvad istəsələr, bir yerdə yaşasınlar, istəməsələr ayrılsınlar."*** şüarını yayırlar. Sanki ailə qız-oğlan dostluğudur və onlar istədikləri zaman bu münasibəti poza bilərlər. Bu düşüncə azadlıq anlayışı barədə ifrata varmaqdan qaynaqlanır.

Bəzən insanın istəkləri həvəs və şəhvətdən, bəzən isə yersiz qəzəbdən qaynaqlanır. Bu zaman xırda bir məsləhət, özünütərbiyə və düzgün tərbiyə ilə problemi həll edə bilərlər. Ona görə də ailəni belə asanlıqla dağıtmaq, azadlıq bəhanəsi ilə ailə və ailə təməlinə zərbə vurmaq İslamın məqsədlərindən uzaqdır. İslam nöqteyi-nəzərindən, ailə təməlinin dağıdılması Allahın rəhmətindən uzaqlaşmağa səbəb olur.

**Altıncı məqam:** ***Terminlərin bəyan edilməsində səthi və ya məqsədyönlü təhlillər***

Bu gün cəmiyyətimizdə bəzi anlayış və terminlər dayaz və səthi izah edilir və araşdırılmadan mühakimə olunur. Təbii ki, səthi təhlillərlə yanaşı, dinə mədəni hücum etmək hədəfi daşıyan məqsədyönlü təhlillər də var. Burada səthi bəyan edilən və onlardan yalnış nəticə alınan bəzi terminləri araşdırmaq istəyirik:

***Atanın övladı üzərində qəyyumluğu:*** Bu məsələ səthi olaraq övladın bütün səlahiyyətlərinin ataya məxsus olduğu kimi bəyan edilib. Halbuki, atanın övladı üzərində qəyyumluğunda məqsəd uşağın bütün səlahiyyətlərinin ataya verilməsi deyil, övladın qorunması və onun məsuliyyətinin atanın üzərində olmasıdır. Heç bir uşağı onun həqiqi ana və atasından ayırmaq və heç bir uşağın anası ilə görüşməsinə

kitaboxu.com

mane olmaq olmaz. Sadəcə qadının maddi məsuliyyət daşımaması üçün yetkinlik yaşına qədər uşağın məsuliyyətinin atanın üzərində olduğu bildirilir. Yetkinlik dövründən sonra isə seçim uşağın öz öhdəsindədir.

Atanın qəyyumluğu və övladın qorunması lazımlı şəkildə məna edilməyib. Sanki İslam dinində uşağın sahib və qəyyumu yalnız ata hesab olunur və ana bu məsələdə qətiyyən nəzərə alınmır. Halbuki, həm ata, həm də ana nəzərə alınıb. Sadəcə uşağın maddi məsuliyyəti atanın öhdəsinə qoyulub və bu, haqq deyil ataya verilən vəzifədir. Ümumiyyətlə, bu məsələdə hüquqdan söhbət getmir.

**Anaya əhəmiyyət verilməsi**: Digər bir məsələ isə bəzi qərəzli və ya cahil insanların təhrif edərək yanlış şəkildə təbliğ etdikləri "ana olmağın önəmi" məsələsidir. Onların fikrincə, analığa önəm verən İslam dini qadınların mətbəxdə qalmasını nəzərdə tutur. İslam bildirir ki, qadın evdar olarsa, onun zəhmət haqqı almaq haqqı var. Doğrudur, İslam ailənin həmişə qanun və hüquqla deyil, həmçinin əxlaq, mərhəmət və məhəbbətlə idarə olunmasını istəyir və sözügedən məsələdə hüquqi baxımdan qadının bu haqqı vardır.

İslam ailəyə və xüsusilə də, ailədə anaya önəm verir və onu qorumağı tövsiyə edir. Çünki övlad tərbiyəsində ananın rolu əvəzsizdir. Ata övlad tərbiyəsində ananın rolunu yerinə yetirə bilməz. Ailəyə məhəbbət və sevgi aşılayan və onu inkişaf etdirən anadır. Ailədə bu rol ananın öhdəsindədir. Onlar bunu təhrif edərək, xanıma köləlik anlamı verərək belə nəticəyə gəliblər ki, İslam ailəyə əhəmiyyət vermir. Halbuki, heç bir din qadına İslam qədər əhəmiyyət verməmişdir.

Bir hədisdə deyilir ki: ***"Cənnət anaların ayaqları altındadır".***[1] İslam təlimlərinə əsasən övladlar anaların zəhmətləri və analıq fəaliyyətləri sayəsində cənnətə gedirlər. Ananın rolunu heç bir işlə müqayisə etmək olmaz. Əlbəttə, bunun mənası o deyil ki, qadın evdən kənarda işləməməlidir və bu hüquqa malik deyil. Burada məsələ ondan ibarətdir ki, ananın ailədəki rolu onun digər xüsusiyyətləri ilə, məsələn, qadının işləməsi ilə müqayisə oluna bilməz və ən önəmli məsələ qadının analıq vəzifəsidir.

[1] Məhəmmədtəqi Nuri, "Müstədrəkul-vəsail", cild 15, səh 180.

## Ailənin ehtiyaclarını təmin etmək

Ailə ər və arvadın qarşılıqlı hüquqlara sahib olduqları kiçik bir cəmiyyətdir. Kişi və qadının hüquqları fərqli olsa da, bu hüquqlar onların hər birinin ailənin möhkəmlənməsi və məqsədləri istiqamətində öz rolunu həyata keçirməsi üçündür. Bu hüquqlar "bərabər" olmasa belə, bir-birini "tamamlayandır." Diqqət etməliyik ki, "bərabər hüquqlar" ailəni məhv edir, amma "tamamlayıcı" hüquqlar həmin "ədalətli" hüquqlardır. "Hüquqların bərabərliyi" isə həmişə onların ədalətli olması demək deyil. Ədalət hər kəsin öz roluna görə mütənasib hüquqlara malik olmasıdır.

kitaboxu.com

Təbii ki, bu hüquqların heç bir "əxlaqi üstünlüyü" yoxdur. "Onun haqqıdır" deyilirsə, bu, o demək deyil ki, o daha yaxşı insandır. Bəzi ziyalıların çaşqınlıq yaratmaları bu qəbildəndir. Onlar deyirlər ki, hüquq məsələsi əxlaqi dəyərlə eyni ölçülür. Hüquq rol və məsuliyyətə görə təyin edilən məsələdir. Məsələn, müəllimin məktəbdə səlahiyyətləri vardır. Eyni zamanda məktəb müdirinin də özünəməxsus səlahiyyətləri var. Daha yüksək səlahiyyətlərə malik olmaq onların daha yaxşı insan olması demək deyil. Buna görə də rol və məsuliyyətlər fərqli olduğundan, məktəbi idarə etmək üçün bu müxtəlif hüquq və səlahiyyətlərə ehtiyac vardır. Ailə hüquqi məsələlər baxımından daha dəyərlidir və bu cəhətdən yalnız vəzifələr və kişi-qadın hüquqları həddində qalmamalıdır. Bununla bərabər, ehtiyaclar və ailənin inkişafı da nəzərə alınmalıdır.

Ailə inkişaf etmək və tərəflərin ehtiyaclarını ödəmək üçün bir vasitədir. Həmin ehtiyacların hüquqi qaydalar çərçivəsinə sığmaması mümkündür, lakin ehtiyacları təmin etmək ailə sistemində inkişafa səbəb olmaqdan əlavə, ailənin bir məktəbə, dünyada olan cənnətə, əmin-amanlıq və aramlıq məkanına çevirilməsinə də gətirib çıxarır.

İnsanların müxtəlif ehtiyacları var. Bunları psixoloji, emosional, hüquqi, cinsi, maddi, dini və s. ehtiyaclara bölmək olar. Bu ehtiyaclar məhz, ailədə ödənilməlidir. Əks halda, ailənin düzəni pozular. Bəzən ailədə meydana çıxan zərərlər bu ehtiyacların ödənilməməsindən qaynaqlanır.

- **Emosional və psixoloji ehtiyacların təmin edilməsi**

Bir-birini sevmək və məhəbbət bəsləmək emosional ehtiyacdır. Xüsusən də, qadınlar sevilməyə, əzizlənməyə daha çox ehtiyaclıdırlar. Bu səbəbdən Peyğəmbər (s) buyurur:

﴿قَالَ رَسُولُ اللَّهِ صلى الله عليه و آله و سلم: قَوْلُ الرَّجُلِ لِلْمَرْأَةِ إِنِّی أُحِبُّکِ لَا یَذْهَبُ مِنْ قَلْبِهَا أَبَداً﴾ [1]

***“Bir kişi həyat yoldaşına "səni sevirəm" - desə, bu söz heç vaxt onun qəlbindən silinməz.”***

Danışmaq, həmsöhbət olmaq, eyni masa arxasında oturmaq və buna bənzər məsələlər insanın psixoloji və emosional ehtiyaclarını təmin edir. Allahın Rəsulu (s) buyurmuşdur:

﴿قَالَ رَسُولُ اَللَّهِ صَلَّى اَللَّهُ عَلَيْهِ وَ آلِهِ : إِنَّ اَللَّهَ تَبَارَکَ وَ تَعَالَى عَلَى اَلْإِنَاثِ أَرْأَفُ مِنْهُ عَلَى اَلذُّکُورِ وَ مَا مِنْ رَجُلٍ يُدْخِلُ فَرْحَةً عَلَى اِمْرَأَةٍ بَيْنَهُ وَ بَيْنَهَا حُرْمَةٌ إِلاَّ فَرَّحَهُ اَللَّهُ تَعَالَى يَوْمَ اَلْقِيَامَةِ﴾ [2]

***“Uca Allah qızlara oğlanlardan daha mehriban və şəfqətlidir. Hər bir kişi öz məhrəmini sevindirsə, Allah da Qiyamət günü həmin kişini sevindirər.”***

Səfərdən qayıdarkən ailə zvlərinə hədiyyə və sovqat gətirmək İslamın ailənin emosional ehtiyaclarına önəm verdiyi məsələlərdəndir. Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə oxuyuruq:

﴿إِذا خَرَجَ أَحَدُكُم إِلى سَفَرٍ ثُمّ قَدِمَ على أَهلِهِ فَلْيُهدِهِم و لْيُطرِفهُم و لو حِجارةً﴾ [3]

***“Getdiyiniz səfərdən qayıdarkən, bir daş parçası olsa belə, ailənizə hədiyyə alın!”***

- **Cinsi ehtiyacların ödənilməsi**

Ailədə təmin edilməli olan digər ehtiyac cinsi ehtiyaclardır. Əlbəttə, ailəyə yalnız cinsi istəkləri təmin etmək yeri kimi baxmaq olmaz. Ailəyə eyni zamanda emosional, mənəvi və instinktiv ehtiyacların birgə təmin edildiyi bir ocaq kimi yanaşılmalıdır. Bu səbəbdən dinimizdə intim münasibətdən əvvəl və sonra yerinə yetirilməli olan bir çox tövsiyələr vardır.

- **Maddi ehtiyacların təmin edilməsi**

İslamın diqqət mərkəzində olan digər ehtiyac maddi ehtiyaclardır. Dinimizdə deyilir ki, ailəsini dolandırmaq üçün zəhmət çəkən şəxs Allah yolunda cihad edən şəxs kimidir. Peyğəmbərdən (s) nəql olunan başqa bir hədisdə oxuyuruq:

---

[1] Şeyx Hürr Amuli, Məhəmməd ibn Həsən, “Vəsailuş-şiə”, c. 5, səh. 569.

[2] Məhəmməd ibn Yəqub Kuleyni, “Üsuli-Kafi”, c. 6, səh. 6.

[3] Əllamə Məhəmmədbaqir Məclisi, “Biharul-ənvar”, c. 76, səh. 283.

﴿الكادُّ علی عِیالِهِ کالمُجاهِدِ فی سبیلِ اللّهِ﴾[1]

***"Ailəsinin dolanışığı üçün zəhmət çəkən kəs Allah yolunda cihad edən şəxs kimidir."***

Ailədə yaranan problemlərin səbəblərindən biri də ərin tənbəlliyidir. Bekarçılıq, işsizlik və ya ailəyə pul xərcləməmək bu gün bəzi ailələrin əsaslı problemlərindəndir.

Maddi ehtiyacların qarşılanması təmin olunmalı olan ehtaycların biridir. Təbii ki, nəfəqənin (ailənin dolanışığını təmin etmənin) hüquqi tərəfi də var. Amma burada nəzərdə tutulan məsələ onun hüquqi yönü deyil, ehtiyacın ödənilməsidir.

- **Din və dini ədəb-ərkanla tanış olmaq ehtiyacının təmin edilməsi**

Ailədə təmin edilməli olan digər ehtiyac din və dini ədəb-ərkanla tanışlıqdır. Qurani-Kərimdə bu məsələyə həsr olunmuş ayələr var. Bu ayələrdə vurğulanıb ki, hər bir şəxs öz ailə və övladlarına din, namaz və dini ədəb-ərkan qaydalarını öyrətməli və onları cəhənnəm odundan qorumalıdır. Qurani-Kərimdə təkid edilir ki, ailənin dini və dini ədəb-ərkanı barədə də fikirləşin:

﴿يا أَيُّهَا الَّذينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَ أَهْليكُمْ ناراً وَقُودُهَا النَّاسُ وَ الْحِجارَةُ عَلَيْها مَلائِكَةٌ غِلاظٌ شِدادٌ لا يَعْصُونَ اللَّهَ ما أَمَرَهُمْ وَ يَفْعَلُونَ ما يُؤْمَرُونَ﴾[2]

***"Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun; onun (o odun) başında Allahın onlara verdiyi əmrdən boyun qaçırmayan, əmr olunanı yerinə yetirən sərt və qüvvətli mələklər durmuşlar."***

**Vacib qeyd**

Ehtiyacların təmin edilməsi mötədil formada olmalı və ifrat-təfritə məruz qalmamalıdır. İnsan sağlam və inkişaf edən ailəyə sahib olmaq və Allah yolunda addımlamaq istəyirsə, bu ehtiyacların təmin edilməsinə diqqət yetirməlidir. Quran xəbərdarlıq edir ki, ailə bizi Allahın dinindən uzaq salmamalıdır. Bu haqda "Təhrim" surəsinin 6-cı ayəsində oxuduq. Bir tərəfdən mötədillik, digər tərəfdən də ilahi eşq, paklıq və mənəvi saflıq yolunda olmaq iki əsas məqamdır ki, onlara qarşı diqqətli olmalıyıq. İslam dininin məhəbbəti ifadə etmək, söz seçimi və ehtiyacların ödənilməsi barədə qeyd etdiyi tövsiyələr insanın ruhuna aramlıq və rahatlıq bəxş edən nüsxələrin üstün bir məcmuəsidir.

**Ailəni inkişaf etdirmək məsələsi**

Ötən müzakirələrdə ailə hüquqları və ehtiyacların ödənilməsi məsələsinə toxunuldu. İndi isə ailənin inkişaf və tərəqqi məsələsi müzakirə ediləcək. Dünya insan üçün bir istirahət mərkəzi kimi deyil, bir məktəb olmalıdır. İnsan bu dünya

[1] Məhəmmədtəqi Nuri, "Müstədrəkul-vəsail", c. 13, səh. 55.
[2] "Təhrim" surəsi, ayə 6.

görüşü ilə ailəsini ucaltmalıdır. Ona görə də ailənin hüquqları və ehtiyaclarının təmin edilməsi ilə yanaşı, ailə üzvlərinin tərəqi məsələsi də diqqət mərkəzində saxlanılmalıdır. Qadın yoldaşının, eləcə də kişi qadının tərəqi etməsi üçün şərait yaratmalıdır. İnsan mənəvi tərəqi etmək üçün yaradılmışdır və bunun üçün ailə ən yaxşı vasitədir.

Bu mövzuda alimlərin həyatından çoxlu xatirələr nəql olunmuşdur. Əllamə Məhəmmədhüseyn Təbatəbai həyat yoldaşının köməyi və ona olan dəstəyi ilə dəyərli "Əl-Mizan" təfsirini yazmışdır.

Ər-arvad bir-birinin inkişafı üçün zəmin yarada bildikləri kimi, bunun qarşısını ala da bilərlər. İnkişaf etmək və başqalarının tərəqqisi üçün zəmin yaratmaq sağlam uşaqların tərbiyə edilməsinə və insanın ailədən ləzzət almasına səbəb olur. Özünüz və ailənizin inkişafı üçün mənəvi və intellektual imkanlardan kömək alın. İnsanın missiyasını, yaradılış hədəfini və bunların ailədə həyata keçirilməsini nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, ailə o yaradılışın məqsədlərindən biridir. Buna görə də ailə insanın inkişaf və tərəqqisi üçün ən gözəl vasitədir.

kitaboxu.com

# İKİNCİ HİSSƏ:

- *ÖVLAD SAHİBİ OLMAĞIN ƏHƏMİYYƏTİ*
- *UŞAQLIQDAN ÖVLAD TƏRBİYƏSİ*
- *ABORT*

kitaboxu.com

## Övlad sahibi olmağın əhəmiyyəti

Ailə ilə bağlı əsas mövzulardan biri də övlad sahibi olmaqdır. Buna görə də Allah Quran ayələrində övlad sahibi olmağın nə qədər əhəmiyyətli olmasını bildirir. Qurani-Kərimdə müxtəlif aspektlərdən ailədə övladın dəyəri açıqlanmışdır. Övlad böyük ilahi nemət və Allahın böyük hədiyyəsidir. İnsanların bu bəxşiş və ilahi nemətə görə Allaha həmd-səna etməsi lazımdır.

**Quranda övlad**

**Birinci ayə:** ***Övladlar nemətdirlər***

"Nəhl" surəsinin 72-ci ayəsində oxuyuruq:

﴿وَ اللّهُ جَعَلَ لَكُمْ مِنْ أَنْفُسِكُمْ أَزْوَاجاً وَ جَعَلَ لَكُمْ مِنْ أَزْوَاجِكُمْ بَنِينَ وَ حَفَدَةً وَ رَزَقَكُمْ مِنَ الطَّيِّبَاتِ أَ فَبِالْبَاطِلِ يُؤْمِنُونَ وَ بِنِعْمَتِ اللّهِ هُمْ يَكْفُرُونَ﴾[1]

***"Allah sizin üçün özünüzdən (öz cinsinizdən) zövcələr yaratdı, zövcələrinizdən sizin üçün oğullar və nəvələr meydana gətirdi və sizə pak şeylərdən ruzi verdi. İndi onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?"***

Bu mübarək ayəyə əsasən övladlar nemətdirlər. Quranın ifadəsinə nəzər salın:

***"Allahın nemətini inkarmı edirlər?"***

Əlbəttə, diqqət etmək lazımdır ki, "nemət" "xeyir"dən fərqlidir. Neməti "davamlı bir şey" hesab etsək, nemət xeyir olacaq. Əgər nemət insanın azğınlığına və "məstlik", "naşükürlük" və "küfr"ə düşməsinə səbəb olarsa, həmin nemət "əzaba" çevrilər.

Qurani-Kərim övladın nemət olduğunu vurğulamaqla yanaşı, demək istəyir ki, diqqətli olun və nemətə naşükürlük etməyin! Övladlarınız əhval-ruhiyyənizin

[1] "Nəhl" surəsi, ayə 72.

yaxşılaşması və ictimai əlaqələrinizin möhkəmlənməsi üçün vasitələrdir; kiçik mühit olan ailə, insanın səbir və fədakarlığını sınağa çəkməsi üçün bir fürsətdir. Elə isə bu neməti naşakürlüyə çevirməyin!

Bəzən insan nemətdən düzgün istifadə etmədikdə küfrə düşür. Məsələn, övlada xatir halal-haramdan və doğru yoldan üz döndərir. İmam Əli (ə) Zübeyr barədə buyurur ki, əgər övladı olmasaydı, Zübeyr doğru yolda addımlayardı.

﴿مَا زَالَ الزُّبَيْرُ مِنَّا أَهْلَ الْبَيْتِ حَتَّى نَشَأَ ابْنُهُ عَبْدُ اللَّهِ﴾[1]

***"Zübeyrin nalayiq oğlu Abdullah böyüyüb atasını yoldan çıxarana qədər həmişə biz Əhli-beytdən (ə) və xüsusi səhabələrimizdən biri idi."***

**İkinci ayə:** ***Övlad imtahan vasitəsi və inkişaf amilidir***

Övladın nemət olmasının nəticə və zəruriliyi onların imtahan və sınaq vasitəsi olmalarına diqqət yetirməkdir. Nemət olduğu üçün insan o nemətlə imtahana çəkilir. Allah-taala "Ənfal" surəsində buyurur:

﴿وَ اعْلَمُوا أَنَّما أَمْوالُكُمْ وَ أَوْلادُكُمْ فِتْنَةٌ وَ أَنَّ اللَّهَ عِنْدَهُ أَجْرٌ عَظِيم﴾[2]

***"Bilin ki, mallarınız və övladlarınız imtahan vasitəsidir və həqiqətən, böyük mükafat, məhz Allahın yanındadır."***

Bu mübarək ayəyə əsasən, mal və övlad insanı sınağa çəkmək üçün bir vasitədir. Ayədə qeyd edilən "fitnə" sözü onun vasitəsilə imtahan olunan "nemətə" deyilir. "İlahi imtahan" isə insanın o nemətlə ucalması və yaxud tənəzzül etməsi üçün vasitədir. Çünki ilahi imtahan Allahın nəyisə bilməsi üçün deyil, əksinə onun Rəbb olması və sizi tərbiyələndirmək istəməsinə görədir. Başqa sözlə desək, ilahi imtahan Allahın rübubiyyət sifəti ilə bağlıdır. Allah Rəbb olduğu üçün insanı sınayır. Yəni, insan bu hadisələrdə böyüyüb inkişaf edir. Qeyd etdiyimiz ikinci ayədə buyurulur ki, insan övladla imtahana çəkilir və inkişaf edir.

**Üçüncü ayə:** ***Valideynləri övladla müjdələmək***

Bəzi ayələrdə övlad,"müjdə" olaraq gəlmişdir. Yəni, övladlar həyata sevinc bəxş edir və buna görə valideynlər müjdə verilməyə layiqdirlər. Bu səbəbdən bəzi ayələrdə, məsələn, "Hud" surəsinin 71-ci ayəsində Allah-taala tərəfindən valideynlərə müjdə verilmişdir. Əlbəttə, Quranda bu cür ayələr çoxdur.

"Hud" surəsində oxuyuruq:

﴿وَ امْرَأَتُهُ قائِمَةٌ فَضَحِكَتْ فَبَشَّرْناها بِإِسْحاقَ وَ مِنْ وَراءِ إِسْحاقَ يَعْقُوبَ﴾[3]

***"Onun zövcəsi ayaq üstə durmuşdu. Beləliklə o, sevincindən güldü. Beləliklə, ona İshaq (adlı oğulla) və İshaqın ardınca Yəqub (adlı nəvə) ilə müjdə verdik."***

[1] "Nəhcül-bəlağə", 453-cü hikmət.
[2] "Ənfal" surəsi, ayə 28.
[3] "Hud" surəsi, ayə 71.

İbrahim Xəlilullah (ə) və Zəkəriyyə peyğəmbər (ə) kimi qocalıqda övladla müjdələnən bəzi peyğəmbərlərə övlada sahib olma xəbəri "müjdə" kəlməsi ilə verilmişdir:

﴿قَالُوا لاَ تَوْجَلْ إِنَّا نُبَشِّرُكَ بِغُلاَمٍ عَلِيمٍ﴾[1]

***"Dedilər: "Qorxma, biz səni (İshaq adlı) bilikli bir oğulla müjdələyirik.""***

﴿فَبَشَّرْنَاهُ بِغُلاَمٍ حَلِيمٍ﴾[2]

***"Beləliklə, Biz onu səbirli və dözümlü bir yeniyetmə (İsmail) ilə müjdələdik."***

﴿فَأَوْجَسَ مِنْهُمْ خِيفَةً قَالُوا لاَ تَخَفْ وَ بَشَّرُوهُ بِغُلاَمٍ عَلِيمٍ﴾[3]

***"Beləliklə, onlardan (qonaqlardan) qorxuya düşdü. Onlar dedilər: "Qorxma!" Və ona çox bilikli bir oğlan uşağı ilə müjdə verdilər."***

﴿يَا زَكَرِيَّا إِنَّا نُبَشِّرُكَ بِغُلاَمٍ اسْمُهُ يَحْيَى لَمْ نَجْعَلْ لَهُ مِنْ قَبْلُ سَمِيًّا﴾[4]

***-(Ona xitab etdik ki:) "Ey Zəkəriyya! Səni "Yəhya" adlı bir oğulla müjdələyirik. Biz bu adı (ondan) öncə kimsəyə qoymamışıq!""***

İlk növbədə, saleh övlad insanın azuqəsidir, ikincisi də ümumi mənada övlad müjdədir. Çünki böyük nemətdir və insan bu nemətdən faydalanıb inkişaf edə bilər.

**Dördüncü ayə:** ***Övlad gözaydınlığıdır***

Allah-taala bəzi ayələrdə övladları "gözaydınlığı" olaraq adlandırmışdır. Həzrət İbrahim (ə) Allah dərgahına belə dua edir: "İlahi övladlarımızı bizim üçün aramlıq və sevinc mənbəyi et!"

﴿وَ الَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَ ذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَ اجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَاماً﴾[5]

***"Və o kəslər ki, "Ey Rəbbimiz, zövcə və övladlarımızdan bizə gözaydınlığı (saleh, pak və təqvalı nəsillər) bəxş et və bizi təqvalılara başçı et! " – deyirlər".***

Bu ayədə psixoloji bir məqam da var. Həmin məqam bundan ibarətdir ki, övlad ailəyə mənəvi aramlıq, sabitlik və sevinc bəxş edəcək potensiala malikdir. Ayədə sözü keçən "Qurrətun" kəlməsi "aramlıq" mənasında olan "Qərar", ya da "şövq", yaxud "göz yaşı" mənasında olan "Qərrah" kökündəndir. Demək ki, övlad ya həyatın sərinliyi, sevinci, şadlığı, xoşbəxtliyidir və bu potensiala malikdir, ya da həyata hüzur və aramlıq bəxş edir.

---

[1] "Hicr" surəsi, ayə 53.
[2] "Saffat" surəsi, ayə 101.
[3] "Zariyat " surəsi, ayə 28.
[4] "Məryəm" surəsi, ayə 7.
[5] "Furqan" surəsi, ayə 74.

**Beşinci ayə:** ***Övlad istəyi peyğəmbərlərin həyat tərzi və Allaha həmd-səna etmək səbəbidir***

Digər ayələrdə görürük ki, peyğəmbərlərin dualarından biri də övlad istəməkdir. Yəni, Allahdan övlad istəmək peyğəmbərlərin həyat tərzindən qaynaqlanan və onun ardınca olduqları uca bir istəkdir. Belə ki, Allah-taala həmin peyğəmbərlərə övlad verəndə onlar "Allaha həmd-səna" edirlər. Bir ayədə oxuyuruq:

﴿الْحَمْدُ لِلَّهِ الَّذِى وَهَبَ لِى عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَ إِسْحَاقَ إِنَّ رَبِّى لَسَمِيعُ الدُّعَا﴾[1]

***"Qoca vaxtımda mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, mənim Rəbbim duanı eşidən və qəbul edəndir."***

**Altıncı ayə:** ***Saleh övlad həyatın zinəti, tərəqqi səbəbi və əbədi olaraq qalan saleh əməllərdəndir***

Quranın bu və buna bənzər ayələri bizə həyatımızda övlad sahibi olmağı təşviq edir. Çünki o, ailənin sevinc və aramlıq mənbəyi, insanın inkişaf səbəbi və dünyanın zinətidir. Eynilə aşağıdakı ayədə buyurulduğu kimi:

﴿الْمَالُ وَ الْبَنُونَ زِينَةُ الْحَيَاةِ الدُّنْيَا وَ الْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِنْدَ رَبِّكَ ثَوَاباً وَ خَيْرٌ أَمَلًا﴾[2]

***"Mal və övladlar dünya həyatının zinət və bəzəyidir. Əbədi qalan saleh əməllər isə sənin Rəbbinin yanında mükafat baxımından daha yaxşı və ümid bəsləmək baxımından daha gözəldir."***

Ayədə qeyd edilən "Övladlar" sözünü "Əbədi qalan saleh əməllər"ə aid etmək olar. Dini mətnlərdə bu məsələyə işarə edilib. Bəzi hədislərdə 5, bəzi hədislərdə isə 7 predmet "Əbədi qalan saleh əməllər"in nümunələri kimi qeyd edilmişdir. Bu nümunələrdən biri də "saleh övlad"dır. Övladlar öz-özlüyündə "insan ruhunun zinəti" və "yaşayışın bəzəyi"dir. Əgər övlad "saleh" olarsa, "Əbədi qalan saleh əməllər"ə çevirilər.

**Yeddinci ayə:** ***Övladın insana köməkçi olması***

Bəzi ayələrdə övladın insanlara köməkçi olması məsələsinə toxunulmuşdur. İnsanın övladı onun dayağı və köməkçisidir və onu tənhalıqdan xilas edir.

﴿ثُمَّ رَدَدْنَا لَكُمُ الْكَرَّةَ عَلَيْهِمْ وَ أَمْدَدْنَاكُمْ بِأَمْوَالٍ وَ بَنِينَ وَ جَعَلْنَاكُمْ أَكْثَرَ نَفِيراً﴾[3]

***"Sonra onlar üzərində qələbə və hakimiyyəti yenidən sizə qaytarar, sizə mallar və oğullarla kömək edər və sizi say baxımından (onlardan) çox edərik."***

﴿أَمَدَّكُمْ بِأَنْعَامٍ وَ بَنِينَ﴾[4]

***"Sizə heyvanlar və oğullar bəxş etməklə kömək etdi."***

---

[1] "İbrahim" surəsi, ayə 39.
[2] "Kəhf" surəsi, ayə 46.
[3] "İsra" surəsi, ayə 6.
[4] "Şuəra" surəsi, ayə 133.

﴿وَ يُمْدِدْكُمْ بِأَمْوالٍ وَ بَنِينَ وَ يَجْعَلْ لَكُمْ جَنَّاتٍ وَ يَجْعَلْ لَكُمْ أَنْهاراً﴾[1]

***"Var-dövlət və oğul-uşaqla sizə yardım edər, ixtiyarınıza yamyaşıl bağlar və axar çaylar verər."***

Bunlar Qurani-Kərimdə övladlara nisbətdəki düşüncə tərzidir və bizə övlad barədə bir neçə dərs öyrədir:

Birincisi: Övlad gözün nurudur;

İkincisi: Övlad ilahi nemətdir;

Üçüncüsü: Övlad ilahi bir hədiyyədir;

Dördüncüsü: Övlad insanın mənəviyyatını qüvvətləndirən amildir;

Beşinci: Övlad insana xatircəmlik və aramlıq bəxş edir;

**Hədislərdə övlad**

Hədislərdə ailədə övladın əhəmiyyətinə və saleh övladın önəminə təkid edilmişdir.

a) **Saleh övlad cənnət güllərindən biridir**

﴿الْوَلَدُ الصَّالِحُ رَيْحَانٌ مِنْ رَيَاحِينِ الْجَنَّةِ﴾[2]

Allahın Rəsulu (s) buyurur: ***"Saleh övlad cənnət çiçəklərindən olan bir güldür."***

b) **Saleh övlad dünyada ən yaxşı nemətdir:**

﴿الْبَنَاتُ حَسَنَاتٌ وَ الْبَنُونَ نِعْمَةٌ وَ الْحَسَنَاتُ يُثَابُ عَلَيْهَا وَ النِّعْمَةُ يُسْأَلُ عَنْهَا﴾[3]

İmam Sadiq (ə) buyurur: ***"Qız uşaqları yaxşılıq, oğlan uşaqları isə nemətdirlər. Yaxşılığa görə savab verilər və nemətə görə sorğu-sual edilər."***

c) **Övlad xeyir-bərəkət mənbəyidir:**

d) **İnsanın davamlı olan sədəqəsidir:**

**Önəmli mətləblər**

**Birinci mətləb: *Övlad insanın kamillik vasitəsidir***

İnsanın kamilləşməsi onun fərdi yaşayışı və tək olması ilə deyil, əksinə qarşılaşdığı hadisələr vasitəsilədir. Yaşayışda insan inkişafını kamilləşdirən mühüm hadisələrdən biri də "evlilik"dir. İnsan evliliklə bir pillə yuxarı qalxır, inkişafı üçün zəmin yaranır və məsuliyyəti artır. Qarşılıqlı münasibət, fədakarlıq, anlayış və digər üstün keyfiyyətləri yalnız ailədə inkişaf etdirmək mümkündür. Nəticədə belə deyə bilərik ki, insan tənha yaşayaraq mənəvi baxımdan inkişaf etmir.

Növbəti mərhələ "övlad sahibi olma" mərhələsidir. Övlad sahibi olmağın insanda bəzi əxlaqi xüsusiyyətlərin formalaşmasına səbəb olan məqamları var. Səbir, comərdrlik, məsuliyyətli olmaq, duyğusal xüsusiyyətlərə sahib və mərhəmətli olmaq

[1] "Nuh" surəsi, ayə 12.

[2] Ravəndi Kaşani, Fəzlullah ibni Əli, "Nəvadir", səh. 5.

[3] Şeyx Hürr Amuli, Məhəmməd ibn Həsən, "Vəsailüş-şiə", c. 15, səh. 103.

kitaboxu.com

kimi bəzi xüsusiyyətlər övlad sahibi olmaqla inkişaf edir. Çünki insan hadisələr və situasiyaların gedişində mənəvi baxımdan böyüyür. Beləliklə, uşaq sahibi olmaq insanın inkişafının bir yönü və insanın inkişaf pillələrindən bir mərhələ yuxarı yüksəlməsidir.

**İkinci mətləb:** ***Övlad sahibi olmaq ailə üçün bir imtiyaz hesab olunur***

Evlilik mərhələsindən sonra uşaq sahibi olmağın ailə üçün də bəzi üstünlükləri var. Birinci mətləbdə övladın istər ata, istərsə də ana olmasından asılı olmayaraq, fərd üçün kamilləşmə olduğu bəyan edildi. İkinci mətləbdə isə uşaq sahibi olmağın ailə üçün bir imtiyaz olmasını bildirmək istəyirik.

- Uşaq psixoloji və mənəvi sağlamlıq baxımından ailəni möhkəmləndirir. Uşağın varlığı ilə ailəyə dini mətnlərdə ifadə olunduğu kimi "bərəkət" hesab olunan xüsusiyyətlər ərməğan olunur. Bu baxımdan uşaq ailə üçün xüsusi bir bərəkətdir.
- Uşaq valideynlərin xoşbəxtlik və psixoloji sağlamlıq amilidir;
- Uşaq ailədə ümidi artırır;
- Uşaq insana sevmək və sevilmək hissini aşılayır;
- Övlad insan şəxsiyyətinin tərəqqisinə səbəb olur;
- Övlad insanın gözəllikləri daha yaxşı dərk etməsinə bais olur;
- İnsanın övladına olan məhəbbəti nəticəsində hətta, diqqəti də çoxalır.

kitaboxu.com

Bu səbəbdən uşaq ailənin özü üçün xüsusi bərəkətdir. Psixologiya və sosiologiya elmlərində bu məsələlər təfsilatı ilə araşdırılmışdır. Məhz, bu baxımdan dinimiz övladın ailə üçün bərəkət olmasını vurğulayır. İmam Sadiq (ə) buyurur:

﴿إِنَّ اللَّهَ تَبَارَکَ وَ تَعَالَى إِذَا أَرَادَ بِعَبْدٍ خَيْراً لَمْ يُمِتْهُ حَتَّى يُرِيَهُ الْخَلَفَ﴾[1]

***"Həqiqətən, Allah-taala bir bəndə üçün xeyir istəsə, ona övlad verməyənə qədər onu öldürməz".***

Əgər diqqət yetirsəniz, "bərəkət" adı altında bəyan edilən "xeyir" həm dünya və həm də axirətdə həmin şəxsə şamil olar.

**Üçüncü mətləb:** ***Təkuşaqlı olmağın bəzi nəticələri***

Bəzi insanlar uşaq sahibi olmaq barədə təbliğat vasitələrinə, Qərbyönlü həyat tərzinə və şəxsi hedonist[2] həyat tərzindən qaynaqlanan əsassız şüarlara meyillidirlər. Bu barədə yer alan təbliğatlardan biri də təkuşaqlılıq barədə olan təbliğatdır. Bu baxımdan, deyə bilərik ki, təkuşaqlı həyat tərzi Qərbin ərməğanıdır. Amma tək uşaq olmaq övlad üçün çox pis mənəvi və psixoloji təsirlər yaradır və onun ruhiyyəsini məhv edir.

---

[1] Şeyx Hürr Amuli, Məhəmməd ibn Həsən, "Vəsailüş-şiə", c. 21, səh. 357 .

[2] Tərcüməçi: Hedonizm - ləzzət və zövqü həyatın məqsədi qəbul edən bütün əxlaq anlayışlarına verilən addır.

- Təkuşaqlı yaşam tərzi mənəvi və psixoloji baxımdan ifrat məhəbbətlərin yaranmasına gətirib çıxarır;

- Təkuşaqlılıq övlada qarşı həddindən artıq tələbkarlığa səbəb olur;

- Tək olduğu üçün bəzən uşaqda təcridolunma meyili yaradır;

- Bəzən kompüter oyunlarına və özünə məxsus olmayan digər oyunlara meyil yaradır.

**Dördüncü mətləb:** ***Uşağın dəyəri, iqtisadi problemlərin mövcudluğu, bəzi məsələlərdə ziddiyyət deyil, toqquşmanın olması***

Bəzi insanlar təkuşaqlı və ya çoxuşaqlı olmaq barədə üzr və bəhanələr gətirirlər; o cümlədən, iqtisadi problemlərin olması, uşaqlara baxa bilməmək, valideynlərin iş sahibi olması və s. İlk öncə uşağın dəyəri araşdırılmalı və daha sonra cəmiyyətimizin problemlərini bu dəyərlə müqayisə etməliyik. Əslində burada toqquşma mövcuddur. Bəzən insanların bəzisi toqquşma barədə müzakirə etmək əvəzinə, ziddiyyət barədə danışırlar.

Bu məsələni misal formasında belə izah etmək olar: Söhbətimiz sobanın otağa istilik verib-verməməsi haqqındadır. Sən istilik verir deyirsən, ancaq pəncərələr açıq olduğu üçün istilik itir. Bundan əlavə, evin qapısı yaxşı hazırlanmayıb və istiliyi yaxşı saxlamır. Bu məsələləri bir-birilə qarışdırmaq olmaz. Biz ailədə övladın əhəmiyyət və dəyərini və övladın ailə üçün bərəkətlərini araşdırıb bəyan etməliyik. Əlbəttə, sosial problemlər də araşdırılmalıdır, amma sosial problemləri bəhanə edərək, övladın bərəkət olmasından qəflət edilməməli və sanki bu məsələnin ümumiyyətlə, müzakirəyə ehtiyacı yoxmuş kimi göstərilməməlidir.

**Beşinci mətləb:** ***Ana olmaq və işləmək arasında prioritet və öncəlik***

Valideyn olmağın və cəmiyyətə saleh övlad bəxş etməyin dəyəri diplom almaq, titul və ya iş sahibi olmaqdan daha çoxdur. Əlbəttə, bu, o demək deyil ki, qadınlar işləməsin, belə düşüncə düzgün düşüncə deyil. Qadınlara məxsus işlər ola bilər və mümkündür onlardan başqa, heç kim həmin işin öhdəsindən gələ bilməsin. İnsanların əksəriyyəti qadınlardır. İslam dini qadınların işləməsini qadağan etmir. Məsələ prioritetdədir. Ana olmaq daha önəmlidir, yoxsa işləmək? Qadının ana olması onun əsas məsuliyyətidir və ailənin xoşbəxtliyi və saleh övlad tərbiyəsi buna bağlıdır. Ana olmağı və analıq etməyi ikinci və üçüncü dərəcəli məsələ hesab etmək İslami həyat tərzi ilə uyğun deyil.

**Altıncı mətləb:** ***Uşaq həyatın mənəvi ləzzətidir***

Bəzən həyatda insanların gözü yalnız nəfsi istəklər və maddi ləzzətlərdə olur. İslam dini ləzzətlərin həddi-hüdudu və əhatə dairəsini bizim üçün bəyan etmişdir. İslam dini bizə maddi ləzzətlərdən məhrum olmağı demir, əksinə mənəvi ləzzətlərdən də bəhrələnməyi vurğulayır. Övlad da həyatın mənəvi ləzzətlərindən



kitaboxu.com

və aramlıq bəxş edən mənəvi bərəkətlərindən biridir. Təəssüflər olsun ki, bəzi insanlar maddi həyat və hedonist həyat tərzində ifrata varmaqla, övlad tərbiyəsi və ailədə övladın varlığı kimi mənəvi ləzzətlərdən məhrum olmuşlar.

kitaboxu.com

## Uşaqlıqdan övlad tərbiyəsi

Uşaqlıqda övlad tərbiyəsi məsələsi ən önəmli tərbiyəvi mövzulardan biridir və bununla bağlı Quranda da mühüm məqamlara işarə edilib. Quran nöqteyi-nəzərdən övlad tərbiyəsini ilahi peyğəmbərlərin övladları ilə bağlı yaşadıqları həyat tərzindən də əldə etmək olar. Nümunə olaraq aşağıdakıları qeyd edə bilərik:

- Nuh peyğəmbərin (ə) oğlu ilə olan əhvalatı;
- İbrahim peyğəmbərin (ə) övladları İsmayıl və İshaqla əhvalatı;
- Yaqub peyğəmbərin (ə) övladları ilə, xüsusən də Yusif peyğəmbər (ə) ilə əhvalatı;
- Loğmanın oğlu ilə əhvalatı və vəsiyyətləri;
- Məryəmin anasının və övladının əhvalatı;
- Həzrət Zəkəriyyə (ə) və oğlu Yəhyanın (ə) əhvalatı;

Ümumiyyətlə, deyə bilərik ki, "valideyn-övlad münasibəti" ilə bağlı müraciət edə biləcəyimiz önəmli Quran ayələri var və bu mövzuda həmin ayələrdən mühüm mətləbləri çıxarış etmək olar. Həm peyğəmbərlərin əhvalatları və onların övladları ilə münasibətlərindən bəhrələnə bilərik, həm də bəzi ayələrdə möminlərə övladlarının tərbiyəsinə diqqət yetirmələri əmr edilir. Quranda birbaşa, yaxud peyğəmbərlərin sərgüzəştləri formasında tərbiyə məsələsinə toxunan ayələrimiz var. Məsələsinin pik nöqtəsi Loğman surəsindədir. Bu ayələrdə Loğmanın oğluna vəsiyyəti və atanın övladına qarşı diqqət etməli olduğu tərbiyəvi məsələlər bəyan edilmişdir.

Həzrət Loğmanın oğluna verdiyi tövsiyələrlə bağlı ayələrə nəzər salsaq, görərik ki, "məhəbbət", "moizə" və "bəyan etmə" üslubunun hər üçü bir-biri ilə gözəl bir tərkib əmələ gətirib. Həm xitabı məhəbbətlə yanaşıdır, həm sözündə məsələnin izahı

kitaboxu.com

var, həm də onda moizə üslubuna riayət edilmişdir. Mübarək "Loğman" surəsinin bu ayələrində övlada öyrədilməsi lazım olan ən mühüm mövzular açıqlanmışdır. Bu ayələrdə etiqadi, əxlaqi və əməli hökmlərlə bağlı məsələlər bəyan edilmişdir. "Tövhid, məad, namaz, yaxşılığa dəvət etmək, pisliklərdən çəkindirmək, səbir və dözümlülük, təvazökarlıq, özünü bəyənməkdən uzaq olmaq, yol gedərkən təkəbbürlə yeriməmək, səs və danışıqda orta yolu seçmək" Loğmanın oğluna vurğuladığı və Qurani-Kərimin də ayələrində qeyd edilən məsələlərdir. Bunlar nəzəri və praktiki, etiqadi, ibadi (ibadətlə bağlı), ictimai, siyasi və əxlaqi hikmətlərin düşündürücü məcmuəsindən ibarətdir.

**a) Meyarlar və tərbiyəvi məsələlər**

**1. Ailədə həyalı olmağın öyrədilməsi**

Valideynlərin övladlarına qarşı vəzifələrindən biri onlara həyalı olmağı öyrətməkdir. Bu, erkən yetkinliyin və övlada toxunulması ehtimal edilən zərərin qarşısını almaq üçün önəmli təsirə malik bir əmrdir. Qurani-Kərimin "Nur" surəsində buyurulur:

﴿يا أَيُّهَا الَّذينَ آمَنُوا لِيَسْتَأْذِنْكُمُ الَّذينَ مَلَكَتْ أَيْمانُكُمْ وَ الَّذينَ لَمْ يَبْلُغُوا الْحُلُمَ مِنْكُمْ ثَلاثَ مَرَّاتٍ مِنْ قَبْلِ صَلاةِ الْفَجْرِ وَ حينَ تَضَعُونَ ثِيابَكُمْ مِنَ الظَّهيرَةِ وَ مِنْ بَعْدِ صَلاةِ الْعِشاءِ ثَلاثُ عَوْراتٍ لَكُمْ لَيْسَ عَلَيْكُمْ وَ لا عَلَيْهِمْ جُناحٌ بَعْدَهُنَّ طَوَّافُونَ عَلَيْكُمْ بَعْضُكُمْ عَلى بَعْضٍ كَذلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآياتِ وَ اللَّهُ عَليمٌ حَكيمٌ﴾[1]

***"Ey iman gətirənlər, sizin qullarınız və həddi-buluğa çatmayanlarınız üç dəfə icazə almalıdırlar: Sübh namazından qabaq, günorta paltarlarınızı çıxardığınız zaman və işa namazından sonra ki, (həmin) üç vaxt sizin xəlvət vaxtlarınızdır. Bundan (həmin üç vaxtdan) sonra sizə və onlara (icazəsiz daxil olmaq) günah deyildir, (çünki) onlar həmişə sizin ətrafınıza dolanırlar. Allah ayələri (hökmlərini) sizə bu cür bəyan edir. Allah bilən və hikmət sahibidir".***

**2. İnsanları cəhənnəmə və əzaba sürükləyən səbəblərlə tanış etmək**

Nəzərə almalıyıq ki, cəmiyyətdə sizə və övladınıza zərəri toxuna biləcək bir od mövcuddur. Əgər övlada mənəvi qida verilməsə, uşağı ətrafdakı odlardan və zərərlərdən qorumaq qayğısına qalmasanız, həmin od onları yandıracaq və bunun nəticəsində siz də yanacaqsınız. Uca Allah "Təhrim" surəsində buyurur:

﴿يا أَيُّهَا الَّذينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَ أَهْليكُمْ ناراً وَقُودُهَا النَّاسُ وَ الْحِجارَةُ عَلَيْها مَلائِكَةٌ غِلاظٌ شِدادٌ لا يَعْصُونَ اللَّهَ ما أَمَرَهُمْ وَ يَفْعَلُونَ ما يُؤْمَرُونَ﴾[2]

---

[1] "Nur" surəsi, ayə 58.

[2] "Təhrim" surəsi, ayə 6.

***"Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun; onun (o odun) başında Allahın onlara verdiyi əmrdən boyun qaçırmayan, əmr olunanı yerinə yetirən, sərt və qüvvətli mələklər durmuşlar."***

**3. Namazı öyrətmək**

Qurani-Kərim valideynlərə övladlarına namaz və ibadəti öyrətməyi təkid edir. "Taha" surəsində buyurulur:

﴿وَ أْمُرْ أَهْلَکَ بِالصَّلاةِ وَ اصْطَبِرْ عَلَيْها لا نَسْئَلُکَ رِزْقاً نَحْنُ نَرْزُقُکَ وَ الْعاقِبَةُ لِلتَّقْوى﴾[1]

***"Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir. Biz səndən ruzi istəmirik, sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır."***

**4. Uşaqlara səbirli və hövsələli olmağı öyrətmək;**

**5. Uşağa Allah-taala ilə rabitəsini gücləndirməyi öyrətmək;**

**6. Uşağın oyun və əyləncəsinə diqqət yetirmək;**

"Yusif" surəsində oxuyuruq:

﴿أَرْسِلْهُ مَعَنا غَداً يَرْتَعْ وَ يَلْعَبْ وَ إِنَّا لَهُ لَحافِظُونَ﴾[2]

***"Onu sabah bizimlə göndər ki, çəmənlikdə gəzib dolansın və oynasın və biz onu mütləq qoruyacağıq."***

Bu ayədə Yusifin (ə) qardaşlarının atalarını oyun bəhanəsi ilə razı saldıqlarını və atanın da razılaşdığını görürük. Allahın peyğəmbəri də bu təklifə qane olur və uşaq üçün oyun təklifini məqsədəuyğun hesab edir.

**Uşaqların oyun oynaması barədə bir neçə önəmli mətləb**

**a**) Oyun uşaqlar üçün bir qidadır;

**b**) Oyunda cismi sağlamlıq və ruhi şadlıq mövcuddur;

**c**) Oyun vasitəsilə digər tərbiyəvi məsələləri də öyrətmək mümkündür; oyun və ədalət, oyun və başqalarının haqqını riayət etmək kimi;

**d**) Oyuna dəyərli məzmunlar da əlavə etmək olar;

**e**) Oyunun özü uşağın haqqıdır. Uşağın fiziki və ruhi qidasıdır. Ona laqeyd yanaşmaq olmaz. Xüsusən, indiki dövrdə uşaqla oynamağa diqqət olunmasa, virtual oyunlar uşağı tənhalaşdıracaq və uşaq yüksək səviyyədə tərbiyə olunmayacaq.

**7. Valideynin uşaqla ünsiyyəti**

**8. Uşaqların səhvlərinə göz yummaq**

Həzrət Yaqub (ə) neçə illər Yusifin (ə) hicran və fəraqında ağladı və hətta kor oldu. O həzrət övladlarının etdikləri əməldən peşman olduqlarını gördükdə, onları bağışladı və onlar üçün Allahdan bağışlanma diləyəcəyini vəd etdi. "Yusif" surəsində oxuyuruq:

---

[1] "Taha" surəsi, ayə 132.

[2] "Yusif" surəsi, ayə 12.

﴿قالُوا يا أَبانَا اسْتَغْفِرْ لَنا ذُنُوبَنا إِنَّا كُنَّا خاطِئِينَ; قالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّى إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ﴾[1]

***"(Yəqubun oğlanları) dedilər: "Ey ata, (Allahdan) bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən biz səhv etmişik" Dedi: "Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm. Şübhəsiz, O, çox bağışlayan və mehribandır!""***

Valideynlə övlad arasında olması zəruri olan münasibətlərdən biri də bağışlamaqdır; təbii ki, övladın etdiyi yanlış əməllərdən peşman olması şərti ilə.

**b) Quran metodları əsasında uşaqların təlim-tərbiyəsi**

Sual olunur ki, uşağa İslam maarifi və tərbiyəvi məsələləri necə və hansı metodlarla öyrədib onları tərbiyələndirmək olar? Quranda bu məsələyə işarə edən ayələr var.

**1. Nümunəvi tərbiyə**

Qurana nəzər salsaq, görərik ki, uşaqlara uyğun nümunələr göstərmək yolu ilə öz dəyərlərimizi onlara ötürə bilərik. İnstinktiv hisslər olan ideal olmaq və kamil olmaq kimi istəkləri, nümunə yetişdirmək və nümunə göstərməklə doğru şəkildə yönləndirmək olar.

Təəssüflər olsun ki, müasir dünyada hansısa bir cəhətdən uğur qazanmış, lakin çoxlu mənfi yönləri olan və bu mənfi xüsusiyyətləri nəticəsində mənfi şəxsiyyətlər hesab edilən bəzi çox naqis və nalayiq ulduz və populyar insanlar övladlarımıza meyar və nümunə olaraq təqdim edilirlər.

kitaboxu.com

Tərbiyəvi məsələlərə etinasızlıq hansısa bir cəhətdən uğur qazanan, lakin çoxsaylı mənfi cəhətləri olan insanların övladlarımız üçün nümunəyə çevrilməsinə səbəb olub. Həmin nümunə və meyara çevirilən insanlar müəyyən prizmadan uğur qazanmış olsalar belə, lakin həmin prizma ədəb, həya və dərin düşüncə sisteminə sahib olmaq cəhəti deyil. Əksinə, yalnız cəlbediciliyi, gözəlliyi və cəmiyyətdə tərəfdarı olan xüsusi bir cəhətdən uğur qazanmış şəxslərdir. Belə insanlar uşağın əvvəldən azğın nümunə əsasında tərbiyə olunması ilə nəticələnib. Aşağıda qeyd edəcəyimiz ayələrə diqqət yetirin:

﴿... وَ اذْكُرْ رَبَّكَ كَثِيراً ...﴾[2]

***"Və öz Rəbbini çox zikr et...."***

﴿وَ اذْكُرْ رَبَّكَ فِى نَفْسِكَ ...﴾[3]

***"Və öz nəfsində (qəlbində) Rəbbini yada sal... "***

﴿وَ اذْكُرْ فِى الْكِتابِ مَرْيَمَ ...﴾[4]

---

[1] "Yusif" surəsi, ayə 97-98.
[2] "Ali-İmran" surəsi, ayə 41.
[3] "Əraf" surəsi, ayə 205.
[4] "Məryəm" surəsi, ayə 16

***“Və bu kitabda Məryəmi yada sal...”***

﴿وَ اذْكُرْ فِى الْكِتابِ إِبْراهيمَ ...﴾[1]

***“Və bu kitabda İbrahimi yada sal... ”***

﴿وَ اذْكُرْ فِى الْكِتابِ مُوسى ...﴾[2]

***“Və bu kitabda Musanı yada sal...”***

﴿وَ اذْكُرْ فِى الْكِتابِ إِسْماعيلَ ...﴾[3]

***“Və bu kitabda İsmayılı yada sal... ”***

﴿وَ اذْكُرْ فِى الْكِتابِ إِدْريسَ ...﴾[4]

***“Və bu kitabda İdrisi yada sal... ”***

﴿... وَ اذْكُرْ عَبْدَنا داوُدَ ...﴾[5]

***“Və bəndəmiz Davudu yada sal... ”***

﴿وَ اذْكُرْ عَبْدَنا أَيُّوبَ ...﴾[6]

***“Və bəndəmiz Əyyubu yada sal...”***

﴿وَ اذْكُرْ عِبادَنا إِبْراهيمَ وَ إِسْحاقَ وَ يَعْقُوبَ ...﴾[7]

***“Və bəndələrimiz İbrahim, İshaq və Yəqubu yada sal... ”***

﴿وَ اذْكُرْ إِسْماعيلَ وَ الْيَسَعَ وَ ذَا الْكِفْلِ ...﴾[8]

***“Və İsmayıl, Əl-Yəsə və Zülkifli yada sal... ”***

﴿وَ اذْكُرْ أَخا عادٍ ...﴾[9]

***“Və Ad qövmünün qəbilə qardaşını (Hudu və onun hekayətini) yada sal...”***

﴿وَ اذْكُرِ اسْمَ رَبِّكَ ...﴾[10]

***“Rəbbinin adını zikr et...”***

﴿وَ اذْكُرِ اسْمَ رَبِّكَ ...﴾[11]

***“Rəbbinin adını zikr et... ”***

Quran ayələrində Uca Allahın dəfələrlə yada salmaq və xatırlamağa işarə etdiyini görürük. Allahın bəyanında məqsəd budur ki, bu nümunə və meyarlar cəmiyyətdə

kitaboxu.com

---

[1] “Məryəm” surəsi, ayə 41
[2] “Məryəm” surəsi, ayə 51.
[3] “Məryəm” surəsi, ayə 54
[4] “Məryəm” surəsi, ayə 56
[5] “Sad” surəsi, ayə 17
[6] “Sad” surəsi, ayə 41
[7] “Sad” surəsi, ayə 45
[8] “Sad” surəsi, ayə 48.
[9] “Əhqaf” surəsi, ayə 21.
[10] “Muzzəmmil” surəsi, ayə 8.
[11] “İnsan” surəsi, ayə 25.

tanıtdırılmalıdır. Bu şəxsiyyətlər daima yaşadılmalı və cəmiyyət üçün örnək kimi təqdim edilməlidir. Sadalanan ayələrdən hər hansı birinə müraciət edildikdə, həmin şəxslərdən hər birinin örnək olmasının səbəbinin də bəyan edildiyinin şahidi olarıq. Məsələn, Qurani-Kərim nöqteyi-nəzərindən İsmayıl (ə) cəmiyyət üçün bir nümunədir. Çünki verdiyi vədində sədaqətli və doğruçu biri idi.[1] Bu ayələr nümunəvi tərbiyə metoduna işarə edir.

**Ata və ana uşaqlar üçün bir nümunədir!**

Qurani-Kərimdə valideynlərin özləri də örnək ünvanında təqdim edilir. Şühbəsiz, ata-ana həqiqətən öz ailəsinin rəhbər və yol göstərəni olduqda, müsbət nümunəyə çevrilirlər. "Furqan" surəsində oxuyuruq ki, ilahi, bizi təqvalıların imam və rəhbəri et:

﴿وَ الَّذينَ يَقُولُونَ رَبَّنا هَبْ لَنا مِنْ أَزْواجِنا وَ ذُرِّيّاتِنا قُرَّةَ أَعْيُنٍ وَ اجْعَلْنا لِلْمُتَّقينَ إِماما﴾[2]

***"Və o kəslər ki, "Ey Rəbbimiz, zövcə və övladlarımızdan bizə gözaydınlığı (saleh, pak və təqvalı nəsillər) bəxş et və bizi təqvalılara başçı et!" - deyirlər."***

Əlbəttə, duanın mənası o deyil ki, dini mətnlərdə qeyd olunan mənada ilahi imamət məqamına sahib olaq. Əksinə, mənası budur ki, başqalarını inkişaf etdirmək üçün bizi kamilliyə çatdır. Ata-ana ailədə imam və başçı olmalı və başqalarını məqsədə çatdırmağı bacarmalıdır. Ailənin imam və başçısı olmaq o zaman gerçəkləşir ki, valideynlər özləri həya, paklıq, dəyər, ədəb və s. kimi dəyərlərin nümunəsi olsunlar. Əgər belə olsa, istər-istəməz uşağın ruhiyyəsinə təsir edəcək.

Buna görə də Quran örnəklərindən bəhs edərkən diqqət yetirmək lazımdır ki, bir qrup nümunələr tarixin fövqündə və dünyamiqyaslı nümunələrdir. Digər tərəfdən, ata və analar da nümunə ola bilər, bu şərtlə ki, rəhbər olacaq müəyyən səviyyəyə çatsınlar. Bu baxımdan, Qurani-Kərimdə vurğulanır ki, əgər örnək olmaq istəyirsinizsə, əvvəlcə öz imamınıza, sonra ailənizin örnəyi və sonra da məhəllə və şəhərin nümunəsinə çevirilməlisiniz.

﴿أَ تَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَ تَنْسَوْنَ أَنْفُسَكُمْ وَ أَنْتُمْ تَتْلُونَ الْكِتابَ أَ فَلا تَعْقِلُونَ﴾[3]

***"(Səmavi) kitabı oxumağınıza baxmayaraq, camaata yaxşılığı əmr edir, özünüzü isə unudursunuz?! Heç fikirləşmirsiniz?!"***

﴿يا أَيُّهَا الَّذينَ آمَنُوا لِمَ تَقُولُونَ ما لا تَفْعَلُونَ كَبُرَ مَقْتًا عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا ما لا تَفْعَلُونَ﴾[4]

***"Ey iman gətirənlər, etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi deməyiniz Allahın yanında çox mənfurdur."***

---

[1] ***"Və bu kitabda İsmayılı xatırla. O, vədlərində doğruçu və (Allahın) elçi(si və xalqa) xəbər gətirən idi."*** ("Məryəm" surəsi, ayə 54)

[2] "Furqan" surəsi, ayə 74.

[3] "Bəqərə" surəsi, ayə 44.

[4] "Səff" surəsi, ayə 2-3.

### 2. Nəsihət metodu

İslam maarifini uşağa ötürməyin və onu tərbiyə etməyin başqa bir yolu da moizə və nəsihət üsuludur. Necə ki, Qurani-Kərimdə oxuyuruq:

﴿ادْعُ إِلی سَبیلِ رَبِّکَ بِالْحِکْمَةِ وَ الْمَوْعِظَةِ الْحَسَنَةِ وَ جادِلْهُمْ بِالَّتی هِیَ أَحْسَنُ إِنَّ رَبَّکَ هُوَ أَعْلَمُ بِمَنْ ضَلَّ عَنْ سَبیلِهِ وَ هُوَ أَعْلَمُ بِالْمُهْتَدینَ﴾[1]

***"(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və müxaliflərlə ən gözəl tərzdə mübahisə et. Əlbəttə, sənin Rəbbin Özü Onun yolundan azanları daha yaxşı bilir və doğru yolda olanları daha yaxşı tanıyır."***

Quranda bu metodun həm bütün insanlarda, həm də Loğmanın (ə), İbrahimin (ə) və Yəqubun (ə) övladlarına nisbətdə istifadə etdiyini görürük. Onlar mehribanlıqla və "Ey oğlum" ifadəsindən istifadə etməklə onların qəlbini həqiqət və dəyərləri qəbul etmələri üçün yumşaldırdılar:

﴿وَ وَصَّی بِها إِبْراهیمُ بَنیهِ وَ یَعْقُوبُ یا بَنِیَّ إِنَّ اللَّهَ اصْطَفی لَکُمُ الدِّینَ فَلا تَمُوتُنَّ إِلاَّ وَ أَنْتُمْ مُسْلِمُونَ﴾[2]

***"İbrahim və Yəqub oğlanlarına öz dinlərini tövsiyə etdilər (və hər biri öz vəsiyyətində dedi) ki: "Ey mənim oğlanlarım, şübhəsiz, Allah bu dini sizin üçün seçib. Buna görə də (çalışın) dünyadan mütləq yalnız müsəlman olaraq gedin!"***

﴿وَ هِیَ تَجْری بِهِمْ فی مَوْجٍ کَالْجِبالِ وَ نادی نُوحٌ ابْنَهُ وَ کانَ فی مَعْزِلٍ یا بُنَیَّ ارْکَبْ مَعَنا وَ لا تَکُنْ مَعَ الْکافِرینَ﴾[3]

kitaboxu.com

***"Və həmin gəmi onları dağlara bənzər dalğalar arasında aparırdı. Nuh (onun etiqadından və ya məkanından) bir kənarda olan oğlunu səslədi: "Ey mənim oğlum, bizimlə birgə (gəmiyə) min və kafirlərlə olma!""***

﴿قالَ یا بُنَیَّ لا تَقْصُصْ رُؤْیاکَ عَلی إِخْوَتِکَ فَیَکیدُوا لَکَ کَیْداً إِنَّ الشَّیْطانَ لِلْإِنْسانِ عَدُوٌّ مُبینٌ﴾[4]

***"Dedi: "Oğulcan, öz yuxunu qardaşlarına danışma ki, sənə (qarşı) hiylə işlədərlər. Həqiqətən, Şeytan insanın açıq-aydın düşmənidir.""***

﴿وَ قالَ یا بَنِیَّ لا تَدْخُلُوا مِنْ بابٍ واحِدٍ وَ ادْخُلُوا مِنْ أَبْوابٍ مُتَفَرِّقَةٍ وَ ما أُغْنی عَنْکُمْ مِنَ اللَّهِ مِنْ شَیْءٍ إِنِ الْحُکْمُ إِلاَّ لِلَّهِ عَلَیْهِ تَوَکَّلْتُ وَ عَلَیْهِ فَلْیَتَوَکَّلِ الْمُتَوَکِّلُونَ﴾[5]

***"Və (onları yola salarkən) dedi: "Ey mənim oğullarım, hamınız bir qapıdan daxil olmayın. Müxtəlif qapılardan daxil olun. Mən heç vaxt Allah tərəfindən olan bir şeyi sizdən uzaqlaşdıra bilmərəm. Mütləq hökm və (varlıq aləmi üzərində)***

---

[1] "Nəhl" surəsi, ayə 125.
[2] "Bəqərə" surəsi, ayə 132.
[3] "Hud" surəsi, ayə 42.
[4] "Yusif" surəsi, ayə 5.
[5] "Yusif" surəsi, ayə 67.

***hakimiyyət yalnız Allaha məxsusdur. Mən Ona təvəkkül etdim və təvəkkül edənlər yalnız Ona təvəkkül etsinlər.""***

﴿يا بَنِيَّ اذْهَبُوا فَتَحَسَّسُوا مِنْ يُوسُفَ وَ أَخيهِ وَ لا تَيْأَسُوا مِنْ رَوْحِ اللَّهِ إِنَّهُ لا يَيْأَسُ مِنْ رَوْحِ اللَّهِ إِلاَّ الْقَوْمُ الْكافِرُونَ﴾[1]

***"Ey mənim oğlanlarım, gedin Yusifi və qardaşını axtarın və Allahın qurtuluş və mərhəmətindən naümid olmayın ki, Allahın mərhəmətindən kafirlərdən başqa, heç kim naümid olmaz."***

﴿وَ إِذْ قالَ لُقْمانُ لابْنِهِ وَ هُوَ يَعِظُهُ يا بُنَيَّ لا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظيمٌ﴾[2]

***"Və (yadına sal,) o zamanı ki, Loğman oğluna nəsihət edərkən ona dedi: "Ey mənim əziz oğlum, Allaha şərik qoşma, çünki şirk olduqca böyük bir zülmdür.""***

﴿يا بُنَيَّ إِنَّها إِنْ تَكُ مِثْقالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ فَتَكُنْ في صَخْرَةٍ أَوْ فِي السَّماواتِ أَوْ فِي الْأَرْضِ يَأْتِ بِهَا اللَّهُ إِنَّ اللَّهَ لَطيفٌ خَبيرٌ﴾[3]

***"(Loğman dedi:) "Ey mənim əziz oğlum, (insanın əməli) bir xardal dənəsi ağırlığında olub möhkəm bir daşın içində, yaxud göylərdə və ya yerin dibində olmuş olsa, Allah onu (Qiyamət günü Məhşərə) gətirəcəkdir (ki, onun əsasında haqq-hesab çəksin), çünki Allah dəqiqdir, ən incə şeyləri görəndir və (hər şeydən) xəbərdardır.""***

﴿يا بُنَيَّ أَقِمِ الصَّلاةَ وَ أْمُرْ بِالْمَعْرُوفِ وَ انْهَ عَنِ الْمُنْكَرِ وَ اصْبِرْ عَلى ما أَصابَكَ إِنَّ ذلِكَ مِنْ عَزْمِ الْأُمُورِ﴾[4]

***"Ey mənim əziz oğlum, namaz qıl və yaxşı işləri əmr et və pis işləri qadağan et. Sənə yetişən müsibətlərə döz ki, bunlar vacib əmrlərdən və mühüm işlərdəndir.""***

﴿فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قالَ يا بُنَيَّ إِنِّي أَرى فِي الْمَنامِ أَنِّي أَذْبَحُكَ فَانْظُرْ ما ذا تَرى قالَ يا أَبَتِ افْعَلْ ما تُؤْمَرُ سَتَجِدُني إِنْ شاءَ اللَّهُ مِنَ الصَّابِرينَ﴾[5]

***"Oğlu onunla birlikdə işləmək və çalışmaq həddinə çatanda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm, sənin fikrin nədir!" Dedi: "Atacan! Sənə buyurulanı yerinə yetir. Allahın istəyi ilə mənim səbirlilərdən olduğumu görəcəksən.""***

**3. Təlim metodu**

İslami məlumatların ötürülməsi və övlad tərbiyəsi üçün Qurani-Kərimin başqa bir üsulu təlim metodudur. Təlim metodu məsələləri aydınlatmaqdır. Bəzən bir şeyi qapalı və qeyri-müəyyən şəkildə irəli sürmək qənaətbəxş deyil. Bundan əlavə, ziddiyyətli və ya adi mühitlərdə hər hansı bir mövzuda azdırıcı yollarla uşağın azğın fikirə yiyələnməsi mümkündür. Ona görə də məsələləri aydınlaşdırmaq lazımdır, yəni maarifləndirici materialları və uşaqda yaranan sual və şübhələri

[1] "Yusif" surəsi, ayə 87.
[2] "Loğman" surəsi, ayə 13.
[3] "Loğman" surəsi, ayə 16.
[4] "Loğman" surəsi, ayə 17.
[5] "Saffat" surəsi, ayə 102.

cavablandırıb izah etmək lazımdır. Təbii ki, bu aydınlaşdırma uşağın anlayış və dərki həddində olmalıdır. İzah və aydınlaşdırma olmasa, uşaq batilə qarışmış mənbələrdən azdırıcı cavablar ala bilər. Qurani-Kərim bu metodu həm bütün insanlara, həm də övladlara tövsiyə etmişdir.

﴿وَ يُعَلِّمُهُ الْكِتابَ وَ الْحِكْمَةَ وَ التَّوْراةَ وَ الْإِنْجيل﴾ [1]

*"Ey Məryəm Allah taala İsaya kitab, hikmət, həmçinin, Tövrat və İncili öyrədəcək."*

**c) Quranda övlad tərbiyəsinin əsasları**

Əvvəlki hissədə Quranda bəyan edilən bəzi tərbiyə metodlarına işarə edildi. Bu hissədə isə "Quranda uşaq tərbiyəsinin mühiti və əsasları" mövzusuna toxunacağıq.

**1) İnsan sərmayəsi**

İnsanlara xüsusi dünya görüşü və bəsirət bəxş edən prinsiplərdən biri də insan sərmayələridir. Tərbiyənin fəlsəfi əsaslarından biri insanların digər canlılardan fərqli olmasıdır. İnsanın tərbiyələndirilmə qabiliyyəti sonsuzdur. Bitki və heyvanlarda da bu mümkündür, lakin məhduddur. Halbuki, insan tərbiyəsi onu Allahın xəlifəsi olmaq səviyyəsinə çatdıracaq qədər geniş imkanlara malikdir. İnsanın təqvalıların imam və başçısı olmaq və bütün ilahi sifətlərin təcəllisinə çevirilmək potensialı vardır.

Belə geniş tərbiyə potensialına malik olan insan övlada qayğı göstərmək üçün arxa-dayaqdır. İnsan maddi və təbiət aləmindən daha uca aləmlər səviyyəsinə yüksələcək qədər tərbiyə oluna bilən bir varlıqdır. Ona görə də bilməliyik ki, söhbət belə bir tərbiyə imkanı olan bir insandan gedir.

**2) Fitrət**

Hər bir insanın fitrəti var və onu inkişaf etdirmək lazımdır. Bunun üçün fitrətin tərəqqisi yolunda olan maneələri aradan qaldırıb inkişaf amillərini gücləndirməliyik.

**d) Tərbiyə mühiti**

İndiyədək Quran əsasında tərbiyənin 3 mövzusuna işarə edildi: "Tərbiyəvi məsələlər", "üslub və metodlar" və həmçinin "əsaslar". Tərbiyə sahəsindəki bəzi tədqiqatçılarının qeyd etdiyi, həmçinin dünyamız və müasir dövrümüz üçün çox vacib bir məqam sayılan Quran əsasında övlad tərbiyəsi ilə bağlı məsələlərin dördüncü yönü "tərbiyə mühitlərinə diqqət yetirmək"dir. Bu mühitlər "qapalı", "açıq" və ya "təzadlı" ola bilər.

---

[1] "Ali-İmran" surəsi, ayə 48.

**Qapalı mühit**

Qapalı mühitdə tərbiyə asandır. Hamı eyni cür danışır. Uşaqda heç bir şübhə yaranmır. Uşağın aramlığı var. Ata eynilə ana, müəllim və dostun dediyi sözü deyir. Belə mühit asan hesab edilir.

**Təzadlı mühit**

Belə bir mühitdə uşaq tərbiyəsi çətin və qapalı mühitdən fərqlidir. Bu fəza fikirlərin bir-birilə təzad təşkil etdiyi bir mühitdir. Belə ki, burada hətta valideynlər eyni şeyi deməyə bilər, o ki qaldı, müəllim, mühit, media, dostlar və s.

Təzadlı mühit qapalı mühitdən fərqlidir. Təzadlı mühitdə uşağın inkişafı üçün ona nə verilməlidir?! Əgər ona dəyərləri versək, sabah başqası eyni dəyərləri müəyyən vasitələrlə korlayacaq. Əgər ona namazı tövsiyə etsək, başqası həzzçilik nəsihətini verəcək.

Təzadlı mühitdə ilk cəhd uşağı əvvəlcə daxildən böyütməyə çalışmaqdır. Ona şəxsiyyət bəxş etməliyik ki, zərər-ziyan qarşısında təsirlənməsin. Başqa ifadə ilə desək, hər sözü asanlıqla qəbul etməməsi üçün sanki uşaq peyvənd olunmalıdır. Uşaq ruhən peyvənd olunduqda və sözləri müqayisə və təhlil edən bir şəxsiyyətə çevirildikdə, ona dəyərləri aşılaya bilərik. Ancaq uşağa alicənablıqla yanaşmaq və şəxsiyyət vermək, onun bir şəxsiyyət olaraq formalaşmasına və daxilən qorunmasına kömək etmək daha vacibdir. Bu daxili qorunma və daxili fundamentləşdirmə gələcəkdə bu binanın üzərində əxlaqi xüsusiyyətlər və dini hökmlər kimi məsələləri ona izah edə bilmək və onun azğın mühitdən qoruna bilməsinə səbəb olmalıdır.

Bu ziddiyyətli mühitdə ona hökmlər və əxlaqi xüsusiyyətləri təqdim etməzdən əvvəl özünü qorumağı öyrətməliyik. Ona şəxsiyyət kimi formalaşmağı öyrətməli, müstəqillik bəxş etməli, düşüncə və təhlil qabiliyyətini gücləndirməliyik. Bu qeyd olunanlar uşağı təzadlı mühitdə qoruyur və azğın şəxslərin sözlərini asanlıqla qəbul etməməsinə səbəb olur. O, şəxsiyyət kimi formalaşdığı üçün artıq onda bu sözləri təhlil etmə qabiliyyəti yaranır.

Önəmli olan məsələ övladı bir şəxsiyyət olaraq formalaşdırmaq və ona dəyərli olduğunu başa salmaqdır. Uşağa kəramət bəxş etmək, uşağa şəxsiyyət vermək prinsipi ümumi olaraq dindən çıxarış edilən prinsiplərdəndir. İslam Peyğəmbəri (s) uşaqlarla oynayar, onlara salam verər və onların suallarına diqqət yetirərdi. Həmçinin, məsum imamların (ə) yaşam tərzində də oxşar halları müşahidə etmək mümkündür.

Tərbiyə məsələsində usaqları mühitin fəsadlarından amanda saxlamağın yollarından biri uşaqlara şəxsiyyət, müstəqillik və düşünmə azadlığı verməkdir. Tərbiyə barədə yazılan bəzi kitablarda bu mühüm məqam qeyd edilmişdir. Daha yaxşı olar ki, övlad tərbiyəsi mövzusu yeni ailə quran cütlüklər üçün müəyyən bir

kitaboxu.com

səviyyədə bəyan edilsin. Sürücülük vəsiqəsi almaq istəyənlər üçün nəzəri və praktiki dərslər təşkil edildiyi kimi, ən azı gənc cütlüklər üçün də yığcam, elmi, aydın arqumentlərə söykənən və məntiqli şəkildə tərbiyəvi mövzular açıqlanmalıdır. Məsələn, əqd xütbəsi oxunduqdan sonra, qeyd olunan mövzudakı kitabçaları maarifləndirmək məqsədilə yeni cütlüklərə hədiyyə ünvanında təqdim etmək olar.

kitaboxu.com

## Abort

Bütün dünya cəmiyyətlərindəki əsas problemlərdən biri "abort" məsələsidir. Abortla bağlı statistika yol qəzasında ölənlərin sayından, hətta qəsdən törədilmiş qətllərin statistikasından belə çoxdur. Amma bu faciənin ailələrdə baş avermәsinə baxmayaraq, insanlar onun yanından heç nə olmamış kimi ötüb keçirlər. Bu problem ailələrin düşüncə tərzi və onların bu məsələlərə nisbətdəki münasibətlərinə qayıdır.

**Abortla bağlı bəzi məsələlər və onun ailədəki mənfi təsirləri**

"Abort etdirən şəxsin məsələyə baxışı əslində belədir: "Mən qüdrətli, uşaq isə müdafiəsizdir və müdafiəsiz olduğuna görə hər bir qüdrətli müdafiəsiz üzərində hakimdir." Bu baxışın çox mənfi təsirləri vardır.

Bu aktın digər mənası isə budur: "İnsanlığı, hətta azadlığın özünü belə ayaq altına atacaq həddə azadlıq tələb etmək."

Abort dünyada "insan hüquqlarındakı ayrı-seçkiliyi (ikili standartı)" göstərir. Yəni, bir tərəfdən, insanın öldürülməsini əllərində bayraq edib deyirlər ki, niyə öldürüldü? Digər tərəfdən, minlərlə insan öldürülür, ancaq buna göz yumurlar, bəzən qanuniləşdirib ona icazə də verirlər.

Bəziləri cinsi azadlıq üçün insan hüquqlarına istinad edib deyirlər: "Bütün insanlar bəşərdir və hər bir işi görməkdə azaddır". Cinsi azadlığın nəticələrindən biri kimi, qeyri-qanuni və arzuolunmaz hamiləliyin yaranmasının şahidi oluruq. Bundan əlavə, görürük ki, bu cinsi azadlıq və arzuolunmaz hamiləliklə insan hüququ iddiaçıları öz iddialarını da ayaq altına alır.

Maraqlıdır! İnsan hüququ ilə azadlığı istəyirdilər və bu azadlığın əhatə dairəsi bilinmədiyi, qeyd-şərtsiz azadlıq olduğu üçün özləri də istəmədən onun elə mənfi

kitaboxu.com

nəticələri yarandı ki, bu, azadlığın ayaq altına atılması və məzlum uşaqların öldürülməsinə gətirib çıxardı.

“Abort” hadisəsi ilə müəyyən oldu ki, onların azadlıqdan məqsədi heç bir ipə-sapa yatmayan azadlıqdır. Əgər belə olmasaydı, abortla insan hüquqlarına dair fundamental prinsiplər ayaq altına alınmazdı.

**Birinci məsələ:** ***Abort bir insanın öldürülməsidir***

Bilmək lazımdır ki, sperma ruhun üfürülməsindən sonra “insan”dır. Bu baxımdan, “insanın öldürülməsi” ilə bağlı bütün arqumentlər aborta da aiddir. Bu dəlillərə insanın öldürülməsi ilə bağlı ayələri misal olaraq göstərmək olar:

﴿مِنْ أَجْلِ ذٰلِکَ کَتَبْنا عَلی بَنِی إِسْرائِیلَ أَنَّهُ مَنْ قَتَلَ نَفْساً بِغَیْرِ نَفْسٍ أَوْ فَسادٍ فِی الْأَرْضِ فَکَأَنَّما قَتَلَ النَّاسَ جَمِیعاً وَ مَنْ أَحْیاها فَکَأَنَّما أَحْیَا النَّاسَ جَمِیعاً وَ لَقَدْ جاءَتْهُمْ رُسُلُنا بِالْبَیِّناتِ ثُمَّ إِنَّ کَثِیراً مِنْهُمْ بَعْدَ ذٰلِکَ فِی الْأَرْضِ لَمُسْرِفُونَ﴾[1]

***“Buna görə də İsrail oğullarına yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə, o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara açıq möcüzələr gətirmişdilər. Bundan sonra da onların bir çoxu yer üzündə həddi aşdı”.***

**İkinci məsələ:** ***İslam cəmiyyətində abort müsəlman bir insanı öldürməkdir***

kitaboxu.com

Əgər abort hadisəsi İslam cəmiyyətində baş verərsə, “bir müsəlmanın qətli”nə dair arqumentlərini ona aid etmək olar. Çünki bu uşaq hələ ki, müsəlmanlığı dili ilə iqrar etməsə belə, amma İslam hökmünə görə (İslam ölkəsində yaşadığına görə) müsəlmandır. Şeyx Səduq “Səvabul-əmal və iqabul-əmal” kitabında belə bir hədis nəql edir:

﴿مَنْ أَعَانَ عَلَى قَتْلِ مُؤْمِنٍ بِشَطْرِ كَلِمَةٍ جَاءَ يَوْمَ الْقِيَامَةِ بَيْنَ عَيْنَيْهِ مَكْتُوبٌ آيِسٌ مِنْ رَحْمَةِ اللَّهِ﴾[2]

İmam Sadiq (ə) buyurur: ***“Möminin öldürülməsinə hətta yarım sözlə olsa belə, kömək edən şəxs Qiyamət günü alnında "Allahın rəhmətindən ümidsiz" yazısı ilə məhşərə gələr.”***

**Üçüncü məsələ:** ***Abort ilahi əmanətə xəyanətdir***

Liberal dünyada bu barədə belə bir yanlış arqument irəli sürülür: “Bu cism və bu uşaqlıq mənimkidir.” Ana deyir: “Mən bu uşağı daşımaq istəmirəm, mən öz cismim və ruhuma hakim olduğum üçün abort edə bilərəm!”

Bu dəlillər bəzi insanların mərkəzində Allahın deyil, insanın durduğu düşüncəyə üstünlük verdiklərini göstərir. Bu dəlillər ondan xəbər verir ki, insalar özləri üçün yaşamaq hüququna dair müəyyən qanunlar qəbul ediblər. Halbuki, dindar və inanclıların yaşadıqları bir cəmiyyətdə insanlar qanunları Allahdan almalıdırlar.

---

[1] “Maidə” surəsi, ayə 32.

[2] İbn Babəvəyh, “Səvabul-əmal və iqabul-əmal”, səh 276.

Allaha inanan ana bilir ki, hətta öz bədən üzvlərinə belə mütləq şəkildə hakim deyil, o ki qaldı, onun bətnində olan əmanətə. Amma liberalların gətirdiyi dəlil belədir: "Mən öz bədən üzvlərimlə bağlı azadam." Aborta aid etdikləri bu kimi dəlillər hicab və iffət məsələlərində də vardır.

İnsan öz bədən üzvlərinə mütləq şəkildə hakim deyil, öz malı və mülkünə nisbətdə isə yalnız şəriətin icazə verdiyi həddə hakimdir. İnsan öz bədən üzvlərinə hakim deyil, bu mənada ki, öz gözünü kor etmək, öz əlini kəsmək icazəsi yoxdur. Çünki bu haqq ona ancaq onu yaradan və onun mütləq sahibi olan Allah tərəfindən verilə bilər və Allah heç vaxt belə bir haqqı insana verməmişdir. Bu baxımdan insanın cismi və ruhu mütləq şəkildə onun tabeliyində deyil. Buna görə də intihar və özünü öldürmək, həmçinin, insanın bədən üzvləri üçün təhlükə yaradan işlərə əl atmaq da haramdır.

Başqa ifadə ilə desək, bu qəbildən olan fikirlər "humanizm" ideologiyasının prinsiplərinə əsaslanır. Belə olduğu halda, "mərkəzində Allahın durduğu" ideologiyanın yerini "mərkəzində insanın durduğu" ideologiya və düşüncə almış olur.

Xülasə, abort insan qətlinin nümunələrindəndir və insanın ilahi əmanət olan öz bədən üzvlərinə xəyanət etməyə haqqı yoxdur. Abortla bağlı xüsusi hədislər də vardır, lakin burada onları qeyd etməyi zəruri hesab etmirik.

**Abort və ikinci dərəcəli dəlillər**

İslam realist bir dindir və əslində insanı tərbiyələndirmək istəyir. Bəzi işlərdə "**iztirar**" (məcburiyyət), "**hərəc**" (çətinlik və məşəqqət), və "**təzahum**" (toqquşma) kimi hallardan doğan məsələlər qaşıya çıxa bilər. Əgər qarşıya bu hallardan hansısa birinin nümunəsi çıxarsa, onda din ona icazə verir və onu icazəli sayır.

Əgər mütəxəssis bir şəxs ana və övladın hər ikisinin ölməsinə və yaxud yalnız uşağın ölməsinə diaqnoz qoyarsa, bu zaman ağıl abort etməyə hökm verir. Çünki hər bir halda onsuz uşaq öləcək. Bəzi hallarda isə abort vacib olur və belə toqquşmaların problemi yoxdur.

Amma əgər ya ana, ya uşaq öləcəksə, burada hüquqi cəhətdən toqquşma yoxdur. Bu yerdə bir canı digərindən üstün tuta bilmərik. Burada ana ilə uşağın fərqi yoxdur, hər ikisinin ruhu vardır və insandırlar.

Deməli, bəzən toqquşma birinin və ya ikisinin ölümündədir, bəzən isə ana, yaxud övladdan birinin ölməsində. Üçüncü halda uşağı abort etmək üçün səbəb yoxdur.

**Abort etdirməyin səbəbləri**

**Birinci amil:** ***Əqidəvi və dini xürafat amili***

Cahiliyyət dövründə qız və oğlanları bütlərə qurban edirdilər. "Ənam" surəsində oxuyuruq:

﴿وَ كَذلِکَ زَيَّنَ لِكَثِيرٍ مِنَ الْمُشْرِكِينَ قَتْلَ أَوْلادِهِمْ شُرَكاؤُهُمْ لِيُرْدُوهُمْ وَ لِيَلْبِسُوا عَلَيْهِمْ دِينَهُمْ وَ لَوْ شاءَ اللَّهُ ما فَعَلُوهُ فَذَرْهُمْ وَ ما يَفْتَرُونَ﴾[1]

***"Beləcə, şərikləri müşriklərin çoxuna övladlarını (bütlərə qurban etmək məqsədilə) öldürməyi onlara yaxşı bir iş kimi göstərdilər ki, onları həlakətə sürükləsinlər və onların dinlərini onlara anlaşılmaz və (xürafata) qarışıq göstərsinlər. Əgər Allah istəsəydi, onlar bunu etməzdilər. (Qarşılarını ala bilərdi. Amma məcburiyyətin heç bir faydası yoxdur.) Onları da, uydurduqları yalanları da başlı-başına burax!"***

**İkinci amil:** ***Cahillik qeyrəti***

Cahiliyyət dövründə qızlarını öldürmək cahillik qeyrəti sayılırdı. Allah-taala "Nəhl" surəsində buyurur:

﴿وَ إِذا بُشِّرَ أَحَدُهُمْ بِالْأُنْثى ظَلَّ وَجْهُهُ مُسْوَدًّا وَ هُوَ كَظِيمٌ﴾ يَتَوارى مِنَ الْقَوْمِ مِنْ سُوءِ ما بُشِّرَ بِهِ أَيُمْسِكُهُ عَلى هُونٍ أَمْ يَدُسُّهُ فِي التُّرابِ أَلا ساءَ ما يَحْكُمُونَ﴾[2]

***"Onlardan birinə qızı olması ilə müjdə verdikdə, qəzəbindən üzü qapqara qaralar. Verilən müjdənin pisliyi üzündən tayfasından qaçıb gizlənər. Görəsən, onu (o körpəni) zillət içində saxlayacaq, yoxsa torpağa göməcək? Bir görün onlar necə pis mühakimə yürüdürlər!"***

**Üçüncü amil:** ***İqtisadi və məişət məsələləri***

İslamdan öncə cahiliyyət dövründə iqtisadi və məişət məsələlərinə görə qızlar və oğlanlarını öldürürdülər. Bu üçüncü amil haqqında Allah-taala buyurur:

﴿... وَ لا تَقْتُلُوا أَوْلادَكُمْ مِنْ إِمْلاقٍ نَحْنُ نَرْزُقُكُمْ وَ إِيَّاهُمْ... ﴾[3]

***"...Övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Sizə və onlara ruzini Biz veririk.."***

﴿وَلَا تَقْتُلُوا أَوْلَادَكُمْ خَشْيَةَ إِمْلَاقٍ نَحْنُ نَرْزُقُهُمْ وَإِيَّاكُمْ إِنَّ قَتْلَهُمْ كَانَ خِطْئًا كَبِيرًا﴾[4]

***"Öz övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Onlara və sizə ruzi verən Bizik. Həqiqətən, onları öldürmək böyük günahdır."***

**Fiziki qüsurlu övlada və ya anaya mərhəmət səbəbindən abort**

Bəzən mütəxəssis həkim uşağın dünyaya əlil gələcəyini proqnozlaşdırır və həmin "əlil övlada mərhəmət" səbəbindən abort edilir. Əlbəttə, bu kimi hallarda abort "anaya mərhəmət" səbəbindən də ola bilər. Həmçinin, əlil və fiziki cəhətdən qüsurlu

---

[1] "Ənam" surəsi, ayə 137.
[2] "Nəhl" surəsi, ayə 58-59.
[3] "Ənam" surəsi, ayə 151.
[4] "İsra" surəsi, ayə 31.

doğulan övladın saxlanması üçün tələb olunan çoxlu xərclər də abort etməyə səbəb ola bilər.

Əgər sözügedən məsələ həqiqətən məşəqqət və çətinliklə nəticələnəcəksə, onda bu, başqa mövzudur. Amma hər bir övlad ilahi imtahandır. Bu dünyada hər kəs ilahi imtahan aşırımlarından keçməlidir.[1] İnsan başa düşməlidir ki, o, təkcə xoş günlərdə inkişaf etmir. Əksinə, insan çətinliklərlə üzləşən zaman onun tərəqqi etməsi üçün zəmin yaranır. Allah hər bir insanı çətin hadisələrlə üzləşdirir ki, insanın savab və fəzilətləri artsın. Abort bu ilahi imtahandan üzüağ yox, əksinə başıaşağı çıxmaq deməkdir. İqtisadi vəziyyətin pis olması belə bir işə icazə verirmi?!

Abort məsələsində əsas məqam insanın bəzən rahatlığını abortda görəcək qədər başını itirməsindən ibarətdir. Bu, bütün mənəvi dəyərləri mənasız hesab etmək deməkdir. Belə ki, insan özünün və yaşayışının rahatlığı üçün bu faciəvi işə əl atır.

Rahatlıq cismi xəstəlikləri olsa belə, sağlam ruha malik olan cəmiyyətə xas olan dəyərdir. Lakin mənəvi cəhətdən xəstə olan cəmiyyət xoşbəxt ola bilməz, çünki orada böhranlar hökm sürər. Biz abort və ana bətnində olan varlığın insan olmasına diqqətsizlik etməklə "əxlaq və insanlıq əleyhinə müharibə" böhranı yaratmışıq.

kitaboxu.com

[1] Bax: "Bələd" surəsi, ayə 13-14.

# ÜÇÜNCÜ HİSSƏ

- ***FEMİNİZM***
- ***QƏRB VƏ İSLAMİ DƏYƏRLƏRƏ ƏSASƏN HAQQIN MƏNŞƏYİ***
- ***İSLAM VƏ QƏRB PRİZMASINDAN AZADLIĞIN TƏRİFİ VƏ ƏHATƏ DAİRƏSİ***
- ***QURAN AYƏLƏRİNDƏ HİCAB***

kitaboxu.com

## Feminizm

Qadın hüquqları bütün dünyada müxtəlif hərəkatlara səbəb olmuşdur. Feminizm cərəyanı da onlardan biridir. Burada məqsəd bərabər hüquqlar deyil, mütənasib hüquqlardır. İslamın dəstəklədiyi bu nəzəriyyədə hüquqlar vəzifə və rollar əsasında tənzimlənir. İslam mütləq şəkildə hökmranlığın kişidə olmasının tərəfdarı deyil. Vəzifə və hüquqların bir hissəsində icraedicilik kişinin öhdəsində ola bilər, amma "ümumilikdə qadının idarə edilməsinin kişinin öhdəsində olma"sı fikri, sadəcə cahillik və qərəz üzündən İslama qarşı irəli sürülən ittihamdır. İslam dini qadın və kişinin xeyrinə olan, həmçinin onların hər ikisinə qarşı bərabər olan hüquqlarla yanaşı, "qarşılıqlı bir-birini tamamlayan hüquqlar"a önəm verir. Diqqət etməliyik ki, İslamın irəli sürdüyü hüquq prinsipləri, ailənin və ailədə kişi və qadının özünəməxsus roluna əsaslanır.

İslam dinində ailə müqəddəsdir və həm qurulması, həm də onun qorunması baxımından ailə qurumuna tövsiyə olunmuşdur. İslama görə cəmiyyətin sağlamlığı ailənin sağlamlığından asılıdır. Ona görə də ailə təməlinin möhkəmliyi din tərəfindən müsbət qarşılanır.

İslam dini ailə ilə bağlı bəzi məsələlərə əhatəli yanaşır və ümumilikdə ailənin mənafeyinə olan qərarlar verir. İslam nöqteyi-nəzərindən ailə təməlinin formalaşması və onun davamlı olması mühümdür. Eyni zamanda boşanmanı təhrifə məruz qalmış xristian dini kimi mütləq və həmişəlik olaraq çirkin və xoşagəlməz bir iş kimi təqdim etmir. Məşhur bir hədisdə deyilir: "Talaq qəzəb olunmuş halal bir əməldir."[1] Əslində İslamda bəyan edilən məsələlər ailə təməlinin möhkəmlənməsi üçün görülən rasional tədbirlərdir. Ancaq buna rəğmən, İslam dini çıxılmaz vəziyyətlər üçün də həll yolları göstərmişdir.

---

[1] Bax: Məhəmmədtəqi Nuri, "Müstədrəkul-vəsail", c. 5, səh. 280.

Qadın hüquqları məsələsində “Feminizm” adlı bir cərəyan ortaya çıxmışdır. Əlbəttə, bu hərəkat əslində ilk olaraq Qərbdə yaradılmış, sonralar İslam cəmiyyətlərinə də sızmışdır. İlk öncə bu cərəyanın həqiqəti aydınlaşdırılmalıdır ki, bu azğın düşüncənin ailənin dağılmasında vurduğu zərərlər aydın olsun və insanlar “Feminizm”in zahiri gözəl, əslində isə dağıdıcı olan sözləri ilə ailələrini məhv etməsinlər.

Feminizmin müxtəlif dalğaları yəni, Feminizmin çoxsaylı nəzər və baxışları var. Lakin bu çoxsaylı baxışların müştərək və ortaq nöqtəsi “kişi və qadın bərabərliyi”dir. Feminizmin dalğaları bəzən çox ifrati, bəzən isə yarı ifrati olur. Feministlərin özlərinin ifadə etdiklərinə əsasən, məqsədləri qadın hüquqlarının müdafiəsidir. İslam dini də qadın hüquqlarını dəstəkləyir. Amma ailələri dağıdan və həmçinin, qadın hüquqlarını da qorunmayan, əksinə praktiki olaraq daha çox qadın hüququnu məhv edən bərabərlik nəzəriyyəsi ilə deyil. Qadın hüquqlarını müdafiə etmək əvəzinə, qadın haqları barədə belə yanlış düşüncəyə malik olmaq ailələrin dağılmasına, uşaqların dəyərsizləşməsinə və ailəyə (Feminizmin ifrati formasında isə kişilərə) nisbətdə bədbin və mənfi baxışa gətirib çıxarır.

Humanizm isə ailədə zülmün kökünü analıq və həyat yoldaşı olmaqda görür. Bu iki məktəbin ortaq fikirlərindən biri də budur ki, qadın ana olduqdan sonra vəzifə və məhdudiyyətlər onun çiyninə düşür, sərbəst fəaliyyəti ondan alınır və beləcə haqqı zay olur. Deyirlər ki, qadın özünü ana və həyat yoldaşı kimi təqdim etməməlidir. Beləcə, bu məktəblər ya ailəyə bədbin yanaşırlar ya da hesab edirlər ki, ailədə islahatlar aparılmalı və ailə bu formada qalmamalıdır. Onlar hesab edirlər ki, ailə quruluşu kişinin qadın üzərində hökmranlıq etməsinə səbəb olur və buna görə ənənəvi formada qalmamalıdır. Bu səbəbdən feministlər evliliyə o qədər də maraq göstərmirlər. Onlar ana və həyat yoldaşı kimi sabit rollara qarşıdırlar. Onların fikrincə, analığın heç bir mənası və müqəddəsliyi yoxdur, əksinə “ana” sözü qadının zülmə məruz qalması üçün bir vasitədir.

Əlbəttə, onların bəziləri bu ifrat fikirdən dönərək bioloji və sosialoji anadan söz açmışlar. Lakin eyni zamanda deyirlər ki, uşaq tərbiyəsi məsuliyyətini “hökumət”in öhdəsinə buraxın ki, qadınlar da kişilər kimi cəmiyyətdə rahat fəaliyyət göstərsinlər. Yaxud, deyirlər ki, hər iki valideyn ana rolunu oynamaqda şərik olmalıdırlar. Bəzən bu fikirdə olan feministlərin düşüncələrində də ifrat nəzəriyyələr görünür. Məsələn, deyirlər: “Qadınların hamilə qalma qabiliyyətinin qarşısını almaq lazımdır.” Bu nəzəriyyələr ailə sisteminin dağılmasını göstərir.

Növbəti məsələ talaq və boşanma ilə bağlıdır. Onlar boşanmanı müsbət hesab edir və bunu qadını hər cür əsarət və köləlikdən azad etmək üçün bir yol sayırlar. Onlar

deyirlər ki, əgər qadınlar öz qadın haqlarına nail olmaq istəyirlərsə, kişilərlə münasibəti azaltsınlar, yaxud da ümumiyyətlə, münasibət yaratmasınlar. Onların nəzərinə görə evlilik, ən uzağı iki insan arasında şəxsi və xüsusi münasibətdir və onlar istədikləri zaman bu münasibəti asanlıqla bitirə bilərlər. Bu məsələnin davamında qadınların cinsiyyətini ictimai işlərə maneə hesab etməsinlər deyə: "evlilikdə vacib olan razılıqdır" deyirlər. Onların nəzərində bu baxımdan cinsiyyət önəmli deyil.[1]

Feministlərin bu baxışı cəmiyyətdə iki bağışlanmaz fəsada yol açır:

**1) Ailədən kənar mühitdə cinsi əlaqə azadlığı;** Çünki feministlər "İnsanın bədəni özünə məxsusdur" deyirlər.

**2) Homoseksuallığın yayılması;** Çünki ailədə qadının zülmə məruz qaldığını düşünürlər.

Bu təhlükəli baxış ailələrin dağılmasına və həmçinin, abortun adiləşməsinə səbəb olur. Bu düşüncənin digər mənfi nəticəsi **"hamiləliyi pis hesab etmək"**dir. Buna görə də "arzuolunmaz uşaq" ünvanı ilə günahsız uşaqların abort edilməsini icazəli sayırlar.

Bu tip baxışın digər acı nəticələri **tək valideynli ailələr** və **uşaq hüquqlarının unudulmasıdır**. Deyirlər ki, ailə müqəddəs anlayış deyil. Övlad sahibi olmaq ailəyə bərəkət gətirmir və övlad üçün məsuliyyət daşımaq müqəddəs sayılmır. Analıq möhtərəm bir titul deyil. Onlar bu düşüncələrlə ailələrin dağılmasına və üç model ailənin formalaşmasına zəmin yaradıblar; kişi ilə kişi, qadınla qadın və kişi qadınla. Üçüncü model də ənənəvi ailə kimi deyil, məhdudiyyətsiz və yad kişi və qadınla eyni dam altında qala biləcək formada olan ailəni nəzərdə tutur. Bu düşüncənin nəticəsi ailələrin dağılmasıdır.

**Feminizmin əsasları**

Feminizm düşüncəsi haqqında qısa məlumat verildi, amma bu cərəyanın hansı düşüncələrdən qaynaqlandığını bilmək lazımdır. Feminizmin ilk mənşəyi "Humanizm" düşüncəsidir. Humanizm mərkəzə din yerinə insanı qoyan düşüncə cərəyanıdır. Bu düşüncəyə görə insanın öz ağılı var və Allahın qanun qoymasına ehtiyac yoxdur. Humanizm ictimai həyatda tanrını bir kənara qoyaraq onu insanın düşüncəsi ilə əvəz edir. Bir sözlə, humanizm insanmərkəzliliyə (mərkəzində insanın durduğu düşüncəyə) inamdır.

---

[1] Bax: Cəfər Həqşünas, "Qərb yazıçıları nöqteyi-nəzərindən feminizmin tənqidi", səh 30; İsmail Çirağİ, "Ailə, İslam və Feminizm", səh 30; Məhəmməd MənsurNejad, "Qadın, İslam və Feminizm," səh 257.

Feminizm cərəyanında ikinci təsirli fikir sekulyarizm və dünyəvilikdir. Onlar deyirlər ki, dini ictimai arenadan çıxartmaq və sadəcə şəxsi müstəvidə saxlamaq lazımdır. Din ictimai və hüquqi qanunlara cavabdeh olmamalıdır. Bu səbəbdən onlar ailə məsələlərində və ailə hüquqlarında səmavi qanunlara məhəl qoymurlar.

Feminizmin üçüncü mənşəyi empirizmdir. Bu cərəyan tərəfdarları deyirlər ki, biz vəhyə inanmırıq. Təbii ki, islami cəmiyyətlərdə belə açıq-aydın formada bu cür düşüncələrin tərəfdarı yoxdur. Aşağıda İslam cəmiyyətlərində "Humanizm" cərəyanının İslam humanizmi şəklini aldığını görəcəyik. Onların fikirlərindən sitat gətirilməli və tənqid edilməlidir. İndi isə Qərb cəmiyyətlərində insanların sosial və ailə həyatında dini kənarlaşdırmaq istəyən və qəbul etməyən "Humanizm" düşüncəsini bəyan edəcəyik. Deyirlər ki, biz təcrübə və empirizmlə yaşamaq istəyirik və bizim vəhyə ehtiyacımız yoxdur.

Feminizm hər şeyin nisbi olduğunu söyləyən postmodernist fəlsəfəyə əsaslanır. Onlar heç nəyin sabit olmadığına inanırlar. Sabit qanunlar və sabit əxlaq insanlar üçün təsəvvür edilə bilməz. Dəyərlər müvəqqəti və nisbidir. Bir gün bəzi dəyərlər başqa dəyərlərlə əvəzlənə bilər. Buna görə də homoseksuallığa və aborta normal baxırlar. Eyni məntiqlə ənənəvi ailəni anormal adlandırırlar.

İndividualizm feminizmin başqa bir köküdür. Bu düşüncə sahibləri deyirlər ki, hər bir fərd cəmiyyətdən üstündür və həqiqətin meyarı ailə, cəmiyyət və haqq deyil. Həqiqətin yeganə meyarı fərddir. Həqiqət insanın seçimidir və seçdiyi onun üçün dəyərlidir. Humanizim insan mərkəzli cərəyan idi, "Fərdçilik" cərəyanında isə fərd öz xüsusiyyətləri ilə diqqət mərkəzindədir. Bu yolla bütün halallar haram, bütün haramlar halal ola bilər. Həmçinin, bütün anti-dəyərlər dəyərə çevrilə bilər. Çünki dəyəri yaradan fərdin seçimidir. Bundan başqa vəhy və ya cəmiyyətin nə dediyinin heç bir dəyəri yoxdur. Dəyəri yaradan yalnız fərdlərdir.

Ailəyə gəlincə, ər-arvad birlikdə yaşadıqları zaman, öncədən bu haqda öhdəçilik götürmüş olsa belə, məsələ belədir. Çünki önəmli olan fərddir, ailənin və hətta uşağın hüquqları deyil.

Feminizm düşüncəsinin əsasları "Renessans" dövründən sonra Qərbdə yaradılmış bu fəlsəfi prinsiplərə qayıdır. Qərb barədə: "Sənaye və texnologiyada inkişaf etdikləri üçün deməli, insani dəyərlərdə də inkişaf etmişlər." söyləmək yanlış düşüncə və gümandır. Qərbdə insani dəyərlərin pozulması, cinsi əlaqədə sərhədsiz azadlıq və insani dəyərlərin dəyərsiz hesablanması ifrat şəkildə yayılsa da, sənaye və texnologiya inkişaf etmişdir. Bu iki sahəni bir-birindən fərqləndirməmək bir çox insanların Qərb ölkələrinin texnologiyasına heyran qalaraq, onların əxlaqsızlıqla zəngin olan mədəniyyətinə tərəf üz tutmasına səbəb olmuş və bütün insani dəyərlərini itirdikdən sonra ayılmışlar.

kitaboxu.com

**Humanistlərin səfsətələri**

Humanistlər öz işlərində səfsətə və insanları yanılda biləcək yollardan istifadə edirlər. Onlar gözəl səslənən "qadın haqları" ifadəsi ilə insanları aldatmaq istəyirlər. Halbuki, qadın hüquqlarının müdafiəsi "kişi və qadın bərabərliyi" nəzəriyyəsindən asılı deyil. Kişi və qadın bərabərliyi absurd və mənasız bir nəzəriyyədir. Ədalət və kişi ilə qadının yaradılışına uyğun mütənasibliyi əsasında irəli sürülən nəzəriyyə doğrudur və qadın haqlarını doğru şəkildə müdafiyə edə bilər.

Onların ikinci səfsətəsi "ədalət" yerinə "bərabərlik" ifadəsindən istifadə etmələridir. Qeyd etmək lazımdır ki, insani dəyər bərabərlik yox, ədalətdir.

Humanistlərin söylədiyi üçüncü səfsətə haqqın mənşəyi ilə bağlıdır. Haqqın mənşəyi onların söylədiyi kimi fərdin seçimi deyil. Əgər insan yaradana inanırsa, haqqın mənbəyi onun hökmləridir. İnsan yaradana inanmasa belə, haqqın mənbəyi fərdin seçimi və istəkləri deyil, ədalətdir. Fərdin istəklərini meyar təyin etmək nəfsi istəklərdən doğur. Haqqın mənşəyi ədalət və ya ədalətin yaradıcısı olmalıdır. İstənilən halda haqqın mənbəyi insanın istəkləri və seçimi ola bilməz. Hər bir insan istədiyi şeyi seçən zaman, onun seçimi başqa bir insan üçün bataqlıq ola bilər.

**Feminizmin İslam dünyasına sızması**

Qərbdə yaranan və humanizm, individualizm, sekulyarizm və digər prinsiplərinə söykənən Feminizm hərəkatı digər Qərb ölkələrinə, o cümlədən, İslam ölkələrinə də daxil oldu. Adətən, Qərbdən bizə gələn cərəyan və anlayışlar gözəl görünsə də onların məzmunu çirkindir. Çünki İslamın mənşəyi fərqli bir məktəb və dünya görüşü, Qərb baxışları və təməlləri olan Qərb ölkələrinin mənşəyi isə başqa bir məktəb və dünya görüşüdür. Təəssüf ki, bu cərəyan eyni sözlərlə İslam ölkələrinə də daxil oldu. Lakin onlar anladılar ki, İslam dünyasında Feminizm praktiki olaraq həyata keçirilə bilməz. Çünki İslam dünyasında "din" və "İslam hüququ" məsələləri mövcuddur. Ona görə də bəzi insanlar Feminizm görüşlərini gündəmə gətirmək üçün məsələləri dəyişməyə çalışdılar. Bu məsələlər iki sahəni ehtiva edirdi:

Birinci sahə dinşünaslıq sahəsi idi. Onların nöqteyi-nəzərindən, sanki İslam hüquq sistemində hökmlərin çıxarışı köhnədir və struktur dəyişdirilməlidir. Bu struktur kişi hökmranlığına üstünlük verir və bu struktur kişi-qadın bərabərliyini əsas tutan struktur ilə əvəz edilməlidir. Qadınlar dinşünaslıq sahələrinə daxil olaraq qadın hökmləri baxımından məsələlərə yanaşmalıdırlar... Beləliklə, qadının quruluşuna uyğun olan İslam hüquq sistemi yarana bilər... Bunlar bu cür dinşünaslıq xəyalları ilə müzakirəyə giriblər.

İkinci sahədə isə ümumi şəkildə demək istəyirdilər ki, dinin ictimai məsələləri tarixidir. Dində daimi olan və hamı üçün nəzərdə tutulan yeganə şey dinin nəzəri

sahəsidir. Yəni, Allaha, Qiyamətə, axirətə və bu kimi məsələlərə inam və s. Lakin dinin praktiki tərəfi, yəni hüquqi hökmlər tarixidir və zamanla dəyişir.

Onlar bu görüşləri müxtəlif nəzəriyyələrlə təhlil etməyə çalışmışlar. Bir dəfə dedilər ki, din sekulyardır. Yəni, din ayrı, dindarlıq başqa məsələdir və dinin hökmranlığı isə tamamilə başqa məsələ. Ardınca olmağımız lazım olan şey "dinin hökmranlığı" deyil, "dindarlıqdır". Buna görə də dinin hüquqi və ictimai hökmlərini bir kənara qoymalıyıq. Əgər söhbət dindar olmaq, namaz qılmaq və oruc tutmaqdan gedirsə, bu dindarlıqdır. İslamın dediyi qaydaların 1400 il əvvəl səhrada yaşayanlar üçün olduğunu və bu gün həmin qaydaların həyata keçirilmə qabiliyyətinin olmadığını bəyan edirdilər. "Şəriət və ictimai hökmlər tarixidir." Bu kimi sözlər Feminizm cərəyanı üçün əlverişli olmuşdur.

Bəzi feministlər İslam dünyasında Feminizm məsələsini müzakirə etmək üçün "hermenevtika" nəzəriyyəsindən istifadə etmişlər. Onların sözləri görə: "Dinin yeni oxunuşu olmalıdır və ümumilikdə, hər zaman yeni bir oxunuş ola bilər. Bu oxunuşu adamların sayına görə artırmaq olar. Ona görə də klassik oxunuşlar irtica xarakteri daşıyır." Bu yolla onlar islami feminizmə yer vermək istəyirdilər.

Bir sözlə, İslam dünyasında Feminizm düşüncəsini yaymaq üçün əvvəlcə dinşünaslıq sahəsindən istifadə etmiş, sonra isə dini minimuma endirən nəzəriyyələr təqdim edərək islami feminizm üçün bir nəzəriyyə yaratmağa çalışmışlar. Qeyd etmək lazımdır ki, bu nəzəriyyələr sofistika və insanı çaşğınlığa salan sözlərlə yanaşıdır; yəni qadının məzlumluğunu İslam hökmləri ilə əlaqələndirməyə çalışmışlar. Qadınlar tarix boyu cəmiyyət və ətraf mühitin pis rəftarına görə təzyiqlərə məruz qala bilər və bunun İslam hökmləri ilə heç bir əlaqəsi yoxdur. Qadınlara qarşı edilən bu zülmün İslam qanunları ilə heç bir əlaqəsi olmasa da, onlar qərəzli şəkildə bunu İslamla əlaqələndirib İslam dünyasında feminizmin bəyan edilməsinə səbəb olmuşdular. Təbii ki, bu məsələdə hər üç sahə təhlil edilməlidir:

a) Dinşünaslıq sahəsi;

b) Dinin əhatə dairəsi haqdakı nəzəriyyələr;

c) Tarix boyu müsəlman cəmiyyətlərində zülmün mənşəyi və yaranma səbəbləri.

**Dinşünaslıq sahəsi**

Dini tanımaq metodu kişi və ya qadın hökmranlığı əsasında deyil. Dinşünaslığın öz üsul və metodları vardır. İstər qadın, istərsə də kişi dini tanımaq üçün bu üsul və metoda uyğun hərəkət etməlidir. Bəli, dinşünaslıq üçün müəyyən olunmuş üsul və metodların hər zaman islahat və təkmilləşməsinə ehtiyac var, ancaq bu nöqsanın kişi və ya qadın cinsi ilə heç bir əlaqəsi yoxdur. Naqislik dini hökmlərin çıxarışında kamil vasitələrin olmamasıdır. Əslində bu, metodun nöqsanıdır və bu yalnız qadınlara aid sahədə deyil, istənilən sahədə ola bilər. Düşüncəni inkişaf etdirib

kitaboxu.com

dəyişməliyik. Dini üsulların islahatı və təkmilləşməsində məqsəd dini mətnlərin deyil, çıxarışların inkişafıdır. Hər halda, bu deyilənlər cinsiyyət məsələsinə aid edilə bilməz. Bunu cinsiyyət məsələsinə aid etmək sadəcə səfsətədir. Onların sözlərinə görə, sanki bu qeyd edilən nəzəriyyə də gender bərabərsizliyinə dayanır. Qeyd edirlər ki, əgər məsələləri incələyən kişidirsə, dini məsələləri bir cür, qadındırsa, başqa cür dərk edəcəkdir. Maraqlıdır, qadınla kişi bərabərdir deyən feministlər, qadınların bir cür, kişilərin başqa cür başa düşməsini necə qəbul edirlər?

**Dinin əhatə dairəsi barədə olan nəzəriyyələr**

"Ziyalılar" arasında dinin əhatə dairəsi ilə bağlı söylədikləri fikirlərdə əsaslı sofistika və aldadıcı nüanslar var və buna çox diqqət yetirilmir. Bu sofistika "izahı arqumentlə əvəz etməkdən ibarətdir". Onlar hesab edir ki, əgər hər hansı nəzəriyyə yaxşı izah olunubsa, onun sübuta və əsaslandırmağa ehtiyacı yoxdur. Halbuki, sübut və arqumenti olmayan bir nəzəriyyə elmi cəhətdən dəyərsizdir. Dinin sosial və hüquqi sahələrinin keçmişə aid olduğunu deyənlər hardan və nəyə əsasən bunu deyirlər? Din özünü əbədi olaraq tanıdır və onun əhatə dairəsi zaman və məkan baxımından məhdud deyil. "Furqan" surəsinin 1-ci ayəsinə oxuyuruq:

﴿تَبَارَكَ الَّذِي نَزَّلَ الْفُرْقَانَ عَلَى عَبْدِهِ لِيَكُونَ لِلْعَالَمِينَ نَذِيراً﴾[1]

***"Aləmləri xəbərdar etsin deyə Quranı Öz bəndəsinə (Muhəmmədə) nazil edən Allah çox ucadır!"***

kitaboxu.com

Dinin əsas mənbəyi olan Quranda **"Ey İnsanlar"** xitabı 20 dəfə xatırlanır:

***1) "Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə, Allahdan qorxasınız."***[2]

***2) "Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir."***[3]

***3) "Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir."***[4]

***4) "Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən gələn haqqı çatdırdı. Ona iman gətirin! Bu sizin üçün xeyirli olar. Əgər onu inkar etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah Biləndir, Müdrikdir."***[5]

---

[1] "Furqan" surəsi, ayə 1.
[2] "Bəqərə" surəsi, ayə 21.
[3] "Bəqərə" surəsi, ayə 168.
[4] "Nisa" surəsi, ayə 1.
[5] "Nisa" surəsi, ayə 170.

*5) "Ey insanlar! Sizə Rəbbinizdən bir dəlil gəldi və Biz sizə parlaq bir nur (Quran) nazil etdik."*[1]

*6) "De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa ibadətə layiq olan məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz".*[2]

*7) "Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik."*[3]

*8) "Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yolu göstəricisi və mərhəmət gəlmişdir."*[4]

*9) "De: Ey insanlar! Dinimə şəkk edirsinizsə, bilin ki, mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir."*[5]

*10) "De: Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Mən sizi qoruyan deyiləm."*[6]

*11) "Ey insanlar! Rəbbinizdən qorxun! Həqiqətən, o Saatın sarsıntısı müdhiş bir şey olacaqdır."*[7]

*12) "Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi oradan uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, vaxtilə bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir."*[8]

*13) "De: "Ey insanlar! Mən sizə yalnız açıq xəbərdarlıq edənəm."*[9]

---

[1] "Nisa" surəsi, ayə 174.
[2] "Əraf" surəsi, ayə 158.
[3] "Yunis" surəsi, ayə 23.
[4] "Yunis" surəsi, ayə 57.
[5] "Yunis" surəsi, ayə 104.
[6] "Yunis" surəsi, ayə 108.
[7] "Həcc" surəsi, ayə 1.
[8] "Həcc" surəsi, ayə 5.
[9] "Həcc"surəsi, ayə 49.

*14) "Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. Bunu etmək istəyən də aciz qalar, istənilən də!"*[1]

*15) "Süleyman Davuda peyğəmbərlikdə varis oldu və dedi: Ey insanlar! Bizə quş dili öyrədildi və bizə hər şeydən verildi. Həqiqətən, bu, bizə göstərilən açıq-aşkar üstünlükdür."*[2]

*16) "Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övlada, övladın da valideynə heç bir fayda verə bilməyəcəyi gündən çəkinin. Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allahın əzabından arxayınlaşdırıb tovlamasın."*[3]

*17) "Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Necə də haqdan döndərilirsiniz!"*[4]

*18) "Ey insanlar! Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu dünya sizi aldatmasın, tovlayan şeytan da sizi yoldan çıxartmasın."*[5]

*19) "Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə zəngindir, tərifəlayiqdir."*[6]

*20) "Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır."*[7]

kitaboxu.com

Eyni zamanda, 13 yerdə Quran və İslam dininin hökmlərinin "aləmlərə" göndərildiyi deyilir:

*1- "Həqiqətən, aləmlərdən ötrü bərəkət və doğru yol göstəricisi kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir"*[8]

*2- "Bunlar Allahın ayələridir. Onları sənə bir həqiqət olaraq oxuyuruq. Allah aləmlərə haqsızlıq etmək istəmir."*[9]

*3- "Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl. De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu Kitab aləmlər üçün yalnız bir xatırlatmadır.""*[1]

---

[1] "Həcc" surəsi, ayə 76.
[2] "Nəml" surəsi, ayə 16.
[3] "Loğman" surəsi, ayə 33.
[4] "Fatir" surəsi, ayə 3.
[5] "Fatir" surəsi, ayə 5.
[6] "Fatir" surəsi, ayə 15.
[7] "Hucurat" surəsi, ayə 13.
[8] "Ali-İmran" surəsi, ayə 96.
[9] "Ali-İmran" surəsi, ayə 108.

*4- “Sən ki bunun əvəzinə onlardan bir mükafat istəmirsən. Bu Quran aləmlər üçün ancaq bir öyüd-nəsihətdir.”*[2]

*5- “Biz onu da, Lutu da zalımlardan xilas edib aləmlər üçün bərəkət verdiyimiz yerə gətirdik.”*[3]

*6- “İsmətini qoruyan Məryəmi də yada sal! Biz onun paltarının döşündəki kəsiyinə Öz ruhumuzdan Cəbrail vasitəsilə üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik.”*[4]

*7- “Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.”*[5]

*8- “Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də ucadır!”*[6]

*9- “Biz onu və gəmidə olanları xilas edib bu möcüzə ilə aləmlərə ibrət dərsi verdik.”*[7]

*10- “Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır.”*[8]

*11- “Bu Quran aləmlərə ancaq xatırlatmadır.”*[9]

*12- “Halbuki, bu Quran aləmlər üçün öyüd-nəsihətdən başqa, bir şey deyildir.”*[10]

*13- “Bu Quran aləmlərə ancaq xatırlatmadır.”*[11]

İki yerdə isə **“bəşər”** üçün nazil olduğu vurğulanır.

*“Bu, bəşəriyyət üçün ancaq bir xatırlatmadır”.*[12]

*“(Bu Quran) bəşəriyyət üçün xəbərdarlıqdır.”*[13]

kitaboxu.com

Qeyd edildi ki, əsaslandrıma olduğu zaman mübahisə sahəsi aydın olur. Təəssüf ki, bəzi “ziyalılar” bu tələyə düşərək “Qərb nəzəriyyələrini kopyalamaq” və sadəcə olaraq “fikirləri əsaslandırmadan izah etmək”lə məşğul olurlar. Odur ki, dəlil və arqument tələbi, rasional arqumentlərlə əsaslandırma və məsələlərə rasional baxış bu mübahisələrin çoxunu asanlıqla həll edir.

---

1 “Ənam” surəsi, ayə 90.
2 “Yusif” surəsi, ayə 104.
3 “Ənbiya” surəsi, ayə 71.
4 “Ənbiya” surəsi, ayə 91.
5 “Ənbiya” surəsi, ayə 107.
6 “Furqan” surəsi, ayə 1.
7 “Ənkəbut” surəsi, ayə 15.
8 “Rum” surəsi, ayə 22.
9 “Sad” surəsi, ayə 87.
10 “Qələm” surəsi, ayə 52.
11 “Təkvir” surəsi, ayə 27.
12 “Muddəssir” surəsi, ayə 31 .
13 “Muddəssir” surəsi, ayə 36.

Kim deyir ki, bəşər həyatında “bərabərlik” insani dəyər sayılır? İnsani dəyər olan “bərabərlik” deyil, “ədalət”dir. İnsan ədalət yönümlüdür və bərabərlik yox, ədalət bəşəri dəyərdir,.

Ona görə də mövzunu araşdıran zaman görürük ki, din barədə bu minimum nəzəriyyələr dini mətnlərlə və dinin özünün əhatə dairəsi ilə uzlaşmır. Hansı dəlil dinin 1400 il əvvələ aid olduğunu deyir?! Bundan əlavə, insan (fitri olaraq) dəyişkən varlıqdırmı?! İnsanın fitrəti sabitdir. Bu sabit fitrət dinin bəzi qanunlarının sabit olmasını tələb edir.

Dinin bəzi dəyişkən qanunlarının olması inkaredilməzdir. Lakin bu dəyişkən qanunlar insan fitrətinə uyğun olan sabit qanunlara qaytarılmalıdır. İnsan fitrəti sabit olduğu üçün bütün dini hökmlərin dəyişkən olduğunu deyə bilmərik. Çünki dinin qayda-qanunlarında fitrətlə uyğun sabit məsələlər var.

Quran və sünnəni araşdırsaq, dinin həm əbədiliyini, həm də dünyamiqyaslı olmasını anlayarıq. Təbii ki, dinimizin əbədi və ümumbəşəri olmasından asılı olmayaraq, dinin külliyyat və əsasları bütün zamanlar çərçivəsində dinamik fiqhlə uyğunlaşdırılmalıdır. Buna görə də zaman və məkanı nəzərə almaqla dəyişkən hökmlər də çıxarış edilə bilər. Amma hər bir halda qanunların meyarı başqa bir şeylə deyil, arqument mərkəzli olmalıdır.

İslam feministləri tərəfindən gözəl şüarlar verildiyi, lakin heç bir elmi məzmuna malik olmadığı müşahidə edilir. Onlar: “İnsan zehniyyətini dəyişdirməli və məsələlərə fərqli düşüncə ilə baxmalıdır.” deyirlər. Bu ifadəni sübut və dəlilsiz qəbul etmək olmaz. Sadəcə iddia olaraq “Zehin dəyişirilməlidir!” deməklə məsələ isbat olmur. Odur ki, zehin və fikirlər ağıl və dəlillə dəyişdirilməlidir. Nəzərə almalıyıq ki, istinbat və təfəkkür tarixində dəyişən şeylər nəzəriyyə və düşüncələrdir. Lakin bu, sırf emosional sözlərlə deyil, dəlil və arqument əsasında həyata keçirilir.

**İslami feminizm barədə bəzi məqamlar**

İslami feminizmlə bağlı bir neçə məqamı qeyd etmək lazımdır:

**Birinci məqam:** ***Ailənin önəmi***

İslamda önəm verilən əsas məsələlərdən biri də ailədir və onu qorumaq olduqca əhəmiyyətlidir. Feminizmdə isə ailə islam dinində olduğu kimi müqəddəs bir dəyər hesab olunmur. Ailə sadəcə iki əks cinsin bir arada olması və istədikləri zaman bu əlaqəni poza bilməsidir. Ailəni əsas və önəmli sanmamaq həqiqətdə onun asanlıqla dağılmasına səbəb olur.

**İkinci məqam:** ***İslam dinində azadlığın mənası və məsələlərin mərkəzində Allahın durması (Allah mərkəzlilik)***

İslam dinində insan azadlığının bir deyil, iki şərti var:

**1)** Başqalarının haqqına riayət etmək və onların narahatlığına səbəb olmamaq;

kitaboxu.com

**2)** Allahın əmrinə qarşı çıxmamaq.

İslamda Allah mərkəzlilik məsələsi də var. Təəssüflər olsun ki, indiki dövrdə müsəlman feministlər sosial və hüquqi məsələlərdə Allahı kənara qoymuşlar və bu məsələlərdə Allahı nəzərə almırlar. Halbuki, insan Allah qarşısında müəyyən öhdəliklər daşıyır. Əksinə, insan Allahın bəndəsi, Allah isə onun Rəbb və sahibidir.

**Üçüncü məqam:** ***Ər-arvad bir-birlərini tamamlayan tərəflərdir***

İslami nöqteyi-nəzərdən qadın və kişi bir-birinin tamamlayıcısıdır. Burada söhbət bərabərlikdən yox, tamamlayıcılıqdan və biri-digərini kamilləşdirməkdən gedir. Ər-arvad məsələsi də bu yöndəndir. Ər-arvad bir-birlərini tamamlayan tərəflərdir. İslam tamamlayıcılıq nəzəriyyəsini qəbul edir. Ona görə də hər birinin hüquqları və həmçinin məsuliyyətləri fərqlidir.

**Dördüncü məqam:** ***İslam dinində ananın rolunun müqəddəsliyi***

Təəssüflər olsun ki, feministlər "ana" sözünə və ana roluna nifrət edirlər. Bu nifrəti açıq şəkildə ifadə etməsələr də, işlətdikləri sözlər onu ifadə edir. Məsələn, ana rolu deyəndə elə bilirlər ki, qadın sadəcə mətbəxdə işləməlidir. Ana saleh insanların müəllimi və tərbiyəçisi deməkdir. Ananın əsas rolu da elə bundan ibarətdir. İslami nöqteyi-nəzərdən ev işləri kimi məsələlər ana və qadının vəzifəsi sayılmır, şəriət baxımından qadın bunları etmək məcburiyyətində deyil. Əlbəttə, əxlaqi və birgə yaşayış baxımından qadın bunları yerinə yetirir və beləliklə də, ailədə isti münasibətin yaranmasına səbəb olur.

Hədisdə deyilir: "Cənnət anaların ayaqları altındadır." Bu hədisin mənası budur ki, Allahın nəzərində cənnət anaların qədəmləri ilə təmin edilir. Yəni, ananın tərbiyədə o qədər böyük rolu var ki, övladını cənnətlik edə bilir və övlad cənnətə ananın addımlarının altından gedir. Bu hədis ananın rolu ilə yanaşı, ananın mühüm məsuliyyətini də çatdırmaq istəyir.

Feministlər analıq məsuliyyətini təhrif etməklə uşaq və bəşəriyyətdən bir çox tərbiyə imkanlarını alırlar. İslam qadınların işləməsinə qarşı deyil. İslam ana rolunun zəiflədilməsinə qarşıdır. İslam qadınların çölə çıxmasına qarşı deyil. Ərdən icazə istəmək də qarşılıqlı etimadı təmin etmək üçündür. Qadın əvvəldən şərt kəsib ümumi olaraq icazə ala bilər və hər dəfə çölə çıxarkən icazə almasına ehtiyac olmaz. Əgər ailədə məhəbbət və mehribanlıq hakim olsa, həmin ailə bu icazələr olmadan fəaliyyət göstərə bilər.

**Beşinci məqam:** ***İnsan haqlarında ictimai sahələrin fərqliliyi***

Qadın hüquqlarının aydın olması üçün ictimai sahələri bir-birindən ayırmaq lazımdır. Bununla qadın hüquqları ilə bağlı olan bir çox yanlış fikirlər aydınlaşacaq. Qadının mənəvi və elmi inkişaf sahəsində kişidən heç bir fərqi yoxdur. Çünki bu kamilliyi kəsb edən ruhdur və insan ruhu kişi və qadın bölgüsünə məruz qalmır.

kitaboxu.com

Başqa ifadə ilə desək, ruhun cinsi yoxdur. Kamillik və mənəvi inkişaf sahəsində qadının kişilərlə heç bir fərqi və ya ondan hansısa bir əskikliyi yoxdur. Ümumiyyətlə, "bu barədə qadınla kişi bərabərdir, ya yox?" – deyə müzakirə aparmaq da yanlışdır. Çünki söhbət insan, ruh və kamillik sahəsindən gedir.

Məsuliyyət sahəsində isə məsuliyyətlərin fərqli olduğunu söyləmək lazımdır. Məsuliyyətlər hətta kişilər arasında da fərqlidir. Heç kim öhdəsindən gələ bilməyəcəyi məsuliyyəti boynuna götürməməlidir. Burada fərqli olan məsuliyyətlərdir. Bəzi fətvalarda qadının mərcəyi-təqlid, hakim və ya şahid ola bilməməsinin səbəbi qadın haqlarına deyil, məsuliyyətə qayıdır.

Bəzi feministlər hələ də məsuliyyətlə hüquq arasındakı fərqi ayıra bilməmişlər. Burada söhbət hüquqdan yox, məsuliyyətdən gedir. İslam qadını məsuliyyətdən azad etmək üçün bu yükü qadının üzərindən götürmüşdür. Bu məsələ hüquqi məsələdən fərqlənir. Hüquq sahəsində də birgə hüquqlar müzakirə olunmalıdır. Əgər insana müxtəlif prizmalardan baxmasaq, paradoksa düçar olacağıq. Ailəyə birtərəfli deyil, müxtəlif prizmadan baxmaq nəticədə ailə təməlini gücləndirir. Beləliklə, bəzi hissələrin kamillik sahəsinə, bəzilərinin məsuliyyət sahəsinə və bəzilərinin isə hüquq sahəsinə aid olduğu aydın oldu.

kitaboxu.com

## Qərb və İslami dəyərlərə əsasən haqqın mənşəyi

Qadın haqları müzakirəsinin davamında “hüququn əsasları nədən ibarətdir?” və ya başqa sözlə “haqqın mənşəyi nədir?” mövzu haqqında əsaslı müzakirə etmək lazımdır. Hüquq sistemlərini qiymətləndirmək üçün bu hüquqların onların üzərində qurulduğu təməl prinsipləri tanımaq barədə danışmalıyıq. Bəzən hüquq məsələsində islami və qeyri-islami hökmləri bir-birilə müqayisə edirik. Bəzən isə hüquqi mənbələr müqayisə və müzakirə edilir. Bəzən isə hüququn onun üzərində qurulduğu prinsiplər müzakirə və müqayisə olunur. Sonuncu cəhət hüquqi müzakirələrdə ciddi şəkildə nəzərdən keçirilməli olan bir məsələdir. Bu müzakirə olmadan hüquq sistemləri natamam mühakimələrə məruz qalacaqdır.

İslam öz hökmləri və hüquq mənbələri üçün müəyyən prinsiplər təyin etmişdir. Bunun müqabilində isə həm hazırda üzləşdiyimiz və həm də keçmişdə mövcud olan Qərb mədəniyyəti dayanır. Bu baxımdan bu iki mədəniyyətin əsaslarını araşdırıb bir nəticəyə gəlməliyik. Bu kök və əsaslar araşdırıldıqdan sonra onlardan qaynaqlanan hökm və şaxələr araşdırılacaq.

**Birinci mərhələ:** ***İnsanın təbii haqqı***

Qərbin hüquq üçün irəli sürdüyü əsas və mənşə insan təbiətidir. İnsan təbiəti bir sıra hüquqlar tələb edir ki, terminoloji olaraq onlara “təbii hüquqlar” və “insan hüquqları” deyilir. Bu hüququ müxtəlif terminlərlə izah edirlər. Bu haqqın izahı ondan ibarətdir ki, mən insan olduğum üçün mənim bir insan kimi istəklərim var. Məsələn, “yaşamaq hüququ”, “azadlıq hüququ”, “fikir azadlığı hüququ” və s. Bunlar, insanın sahib olmalı olduğu ən təməl haqlardır.

Bu terminlər bir o qədərdə önəmli deyil. Əhəmiyyətli olan budur ki, onu təbii hüquqlar kimi qəbul edirlər. Onun mənşəyini isə insanın azadlığında görürlər. İnsan özünün sahibi olduğu üçün belə deyir:

- Mənim həyatım var və heç kimin həyatıma müdaxilə etməyə haqqı yoxdur;
- Mənim öz fikirlərim var və heç kimin fikrimə qarşı çıxmağa haqqı yoxdur;
- Mən öz düşüncəmlə hər hansı bir nəticəyə çatmışam və heç kimin ona mane olmağa haqqı yoxdur;
- Subyektiv fikirlərimi söz və əməldə ifadə etmək istəyirəm və heç kimin buna mane olmağa haqqı yoxdur.

Bu, Qərbdə hüququn əsaslarının ilk mərhələsidir. Deməli, insanın özünə, mövcud vəziyyətinə, orqanlarına və səlahiyyətlərinə sahib olmasını insanın "təbii haqları" adlandırırlar. Bu təbii hüquqdan belə nəticəyə gəlirlər ki, insanın yaşamaq, azadlıq, düşüncə, əqidə və öz əqidəsini bəyan etmək haqqı vardır.

**İkinci mərhələ:** ***Cəmiyyətdə hüquqların toqquşması***

İkinci mərhələdə bu hüquqların cəmiyyətdə toqquşması müşahidə olunur. Çünki onlar birinci mərhələdə insan üçün hüququ qeyd-şərtsiz və mütləq formada ifadə etmişlər. Bunun mənası o deməkdir ki, insanın mütləq azadlığı, mütləq düşüncəsi və s. hüququ vardır. Digər tərəfdən isə insan ictimai varlıq olduğu üçün bu hüquqlar bəzən toqquşur. Bu səbəbdən ikinci mərhələdə sosial hüquqlara məhdudiyyətlər yaradırlar. Bəli, bu mərhələdə də digər insanların haqları ilə toqquşmadığı müddətcə qeyd olunan hüquqlara malikdirlər. Əgər toqquşma olmasa, insan tamamilə azaddır.

Bu hüquqlarda əxlaqın da xüsusi yeri yoxdur. Onlar yalnız iki yerdə əxlaqı ifadə edirlər. Biri başqalarını narahat etməmək, ikincisi isə başqalarının haqqını öz haqqından önə keçirən zaman. Burda ən uzağı başqalarının xeyrini öz haqqından üstün tutmaq məsələsi önə çəkilir. Başqa sözlə desək, Allah, Allaha yaxınlıq və Allahın razılığı əxlaqın müzakirə dairəsinə aid deyil. Bir sözlə, Qərbdə olan əxlaq mövzusu hüquqlara hörmət, altruizm[1] və başqalarının hüquqlarına qarşı fədakarlıqdan ibarətdir.

**Üçüncü mərhələ:** ***Toqquşmaların miqyasını müəyyən edən qurum***

Üçüncü mərhələ də toqquşmaların həddini müəyyən edən qurum barədədir. Hüquqların tətbiqində yaranan toqquşmaları məhdudlaşdırmaq üçün yenidən insanların istəklərini nəzərə alıb deyirlər ki, biz insanların əksəriyyətini nəzərdə tutur və bu əksəriyyətin rəyi əsasında sabit haqların çərçivəsini müəyyən etmək

---

[1] Altruizm (lat. Alter - başqa) — başqa adamlara təmənnasız xidmət göstərilməsindən, onların xoşbəxtliyi naminə öz şəxsi mənafeyini qurban verməkdən ibarət əxlaqi prinsip. Eqoizmin əksidir. Altruizm terminini fəlsəfəyə Ogüst Kont gətirmişdir. Onun mərkəzi motivini və əxlaqi meyarını başqa adamın və ya sosial birliyin maraqları təşkil edir. Altruizm- başqasının rifahı naminə təmənnasız əziyyətə qatlaşmaq anlamına gəlir. (red.)

məqsədilə qanunlar təyin etməliyik. Təbii ki, bu qanunlar müxtəlif vaxt və məkanlarda dəyişə və sabit qalmaya bilər. İnsanlar bir dəfə iffətli olmağı, başqa vaxt isə iffətsizliyi istəyə bilər. İnsanların istəyi meyardır və bu məsələ insanın özünə və bədən üzvlərinə olan sahibliyinə qayıdır. Bu qanunlar ona görə tənzim edilir ki, insanlar bir-birlərindən mənfəət əldə etsinlər və nəticədə narahatlıq və toqquşmalar kontrol edilsin. Qərb düşüncəsinin maksimum hüquq sistemi və hüquqi əsasları bunlardır.

Əgər təbii hüquqların əsası sahiblikdirsə, insanın özünün həqiqi sahibi olub-olmadığını müzakirə etmək lazımdır. Dinlərə görə insan Allaha məxsusdur. Əgər bədənin sahibi insandırsa, onun özü də Allaha məxsusdur. Əgər hüququn mənşəyi mülkiyyətdirsə, insan özü də Allahın mülkiyyətindədir. Qərbin eyni mədəniyyət və arqumenti ilə qərblilərə eyni məqamı çatdırmaq lazımdır ki, insanlara sahib olan Allah varmı?! Əgər insanların malik və sahibi olan Allah varsa, hüququn mənbəyi hesab etdiyiniz insanın malikiyyəti və ona istinad edərək əsasını qoyduğunuz haqlar necə olacaq? Əgər Allahın varlığı sübut edilsə və dəlillərə əsasən bildirilsə ki, insanların yaradanı və sahibi Allahdır, o zaman haqq sahibi Allah olacaq və insana sahibinin təsbit etdiyi haqları bərqərar etməsi lazım gələcək.

Başqa sözlə, burada iki sahiblikdən söhbət gedir. İnsanın sahib və malik olması və insanın özünə və hər bir şeyinə sahib olan Allah. İnsanın nəyəsə malik və sahib olması Allahın malikiyyətinin nəzdində və Allahın izni ilə Onun malikiyyətinin şaquli ardılıcığındadır. Bundan nəticə alırıq ki, hüququn mənşəyi insan deyil, Allahdır.

İnsan bədən üzvlərinin sahibi deyil. Bunlar insana sadəcə bir əmanət olaraq verilib və insan onların sahibi deyil, əmanətdarıdır. Bu səbəbdən Allahın həqiqi malik olmasını nəzərə alaraq, insan heç bir halda malik deyil. İstər yuxarıda qeyd edilən şaquli mənada, istərsə də üfuqi mənada olsun, insan Allah qarşısında sahib olduqlarına əmanətdardır. Din və ilahi qanunlar məsələsini gündəmə gətirən də əmanətdarlıqdır.

Allah bizim yaradıcımız və sahibimizdir. Hikmət sahibi olan Allaha qarşı laqeyd olmamalıyıq. Əgər Allah varsa, bizim sərhədsiz hüququmuz yoxdur. Birinci mərhələdə Qərbin irəli sürdüyü "Bizim hüquqlarımız mütləqdir, yaşamaq, söz, fikir azadlığı və s. varımızdır." – düşüncənin cavabında deməliyik ki, bu haqlar Allaha nisbətdə mütləq ola bilməz. Allaha nisbətdə bu haqlar qeyd və şərtlərə malik olur. Çünki Allahın insanların sahibi olduğu mülkiyyət sistemində mütləq hüquqlar məhdudlaşa bilər.

Deməli, ilk növbədə İslam və ilahi dinlərin hüquqi əsası bundan ibarətdir ki, hikmət sahibi olan Allah insanların malikidir. Bu malikiyyət haqqın mənşəyinin

kitaboxu.com

Allah olduğunu sübut edir və insanın Allah qarşısında öhdəlikləri olur. Qərb heç vaxt bu öhdəliklərdən danışmır. Həmişə insan haqlarından danışır. Halbuki, qəti fəlsəfi, dini və rasional arqumentlərlə isbat olunan Allah qarşısında olan öhdəlikləri də bəyan etməliyik. İnsanın Allah qarşısında öhdəlikləri var.

İkinci məqam ondan ibarətdir ki, əbədi dünyanı unutmamalıyıq. İnsan sadəcə maddi dünyanın xoşbəxtliyini yox, eyni zamanda əbədi xoşbəxtliyi də nəzərə almalıdır. İnsan yaranış və ölümlə məhdudlaşmır. İnsan təkcə fiziki bədəndən ibarət deyil. Onun mənəvi sərmayələrlə dolu olan ruhu var. Buna görə də qanunun tərtibində həm bədən və ruh, həm də dünya və axirət nəzərə alınmalıdır. Hüquq və qanunun əsasını insan həyatının yalnız bir cəhəti deyil, bütün cəhətləri təşkil etməlidir. Bu səbəbdən, bütün dünyəvi istəklərimizə çatmalıyıq deyən Qərb mədəniyyətindən soruşmaq lazımdır ki, istəklərimiz ölənə qədər sahib olduğumuz istəklərdirmi? O biri dünyamızın xoşbəxtliyini təmin etməli olan tələbləri hansı qanunlarla həll etməliyik?

Bəziləri deyə bilər ki, biz o məsələlər barədə ümumiyyətlə düşünmürük. Onların bizim həyatımızda bir rolu olmamalıdır. Beləlləri rasional düşüncədən kənardır. İnsan ağılı ona diktə edir ki, insan əsas məsələlər haqqında düşünməlidir. Əgər Allah varsa, sahib və yaradandırsa, bu haqda düşünməliyik. Kimsə "Mən bu barədə düşünmək istəmirəm." – deyə bilər, ancaq ağıllı insan bunlar barədə düşünməlidir. Əgər həqiqətən də başqa bir dünya varsa, o da xoşbəxtlik üçün hazırlıq tələb edirsə, bu barədə düşünmək lazımdır. Heç bir ağıllı insan bu mövzunun kənarından sükut edərək keçməməlidir. Sadəcə düşünmürəm, ya da düşünmək istəmirəm demək ağılın deyil,nəfsi istəklərin cavabıdır.

Üçüncü məqam bu idi ki, hüquq və öhdəliklər üçün çoxluğun rəyini bəyan edirlər. Əgər bizim başqa əmin olduğumuz yol varsa, niyə onu seçməməliyik?! Niyə vəhyi kənara qoymalıyıq?! Əgər insanı tanıyan, onun xeyir və məsləhətini bilən Allah qanun təyin edibsə, çoxluğun fikrini nəzərə almağa nə ehtiyac var?!

Deməli, ilahi dinlərdə və İslamda hüququn əsası və mənşəyi Allahın insanların maliki olmasıdır. İnsanın xoşbəxtliyinin nədə olması bütün həyatı boyu müəyyən edilməli və ona gedən yol qəti bilik üzərində olmalıdır. Qərbin hüquqla bağlı nəzərdə tutduğu prinsip və mənşə bundan ibarətdir ki, insanın istəkləri var və bu istəklər dünyəvi olmaq şərtilə yerinə yetirilməlidir. Digər istəkləri isə yerinə yetirilməsə də olar. Beləcə, bu istəklər haqqın meyarı olur və cəmiyyətdə bu haqq bütün fərdlərin, yaxud əksəriyyətin istəklərini nəzərə alaraq qanuna çevrilir.

Bu, humanizm, yəni mərkəzində insanın durduğu düşüncədir, ilahi dinlərdə olan düşüncə tərzi isə mərkəzində Allahın dayandığı düşüncədən ibarətdir. Buna görə də, Feminizm, Liberalizm və başqa insanyönümlü (insanın idealogiyası əsasında

formalaşan) məktəblər Allahı, insanın dünya və axirətlə bağlı müxtəlif yönlərini və vəhyi unutmağı təkid edirlər. Belə olduğu halda, nə üçün biz bu məsələlərə etinasızlıq etməliyik?! “Bu haqda onların heç bir biliyi yoxdur.”[1] Onların öz fikir və sözlərinə heç bir dəlilləri yoxdur. Sizin istəkləriniz niyə haqqın meyarına çevrilməlidir?

Bu böyük fəlsəfi sual araşdırılmalıdır: “İstəyirəm deməklə haqlı olmaq arasında nə əlaqə var?” Bu, necə sübut olunur? Mənə haqq verən Allahdır. Çünki O, mənim sahibimdir. Bu, bir sübut və dəlildir. Amma istəyirəmsə, bu, mənim haqqım olur, bunu hansı dəlildən nəticə çıxartmaq olar?

Beləliklə, Qərbdə hüquqların əsasını şəxsin haqqı təşkil edir. İlahi dinlərin hüquq məsələsində isə məsələnin əsası və mənşəyini insanın Allah qarşısında öhdəlik daşıması təşkil edir. Bu fərq hüquq, əxlaq və digər mövzularda özünü göstərir.

Ona görə də bəziləri deyir ki, Allahın da insanı cəzalandırmağa haqqı yoxdur. Bu, o deməkdir ki, insan hətta Allah qarşısında da azaddır! Halbuki, insan başqaları qarşısında azad və Allaha qarşısında isə mükəlləf və bəndədir.

kitaboxu.com

---

[1] “Casiyə” surəsi, ayə 24.

## İslam və Qərb prizmasından azadlığın tərifi və əhatə dairəsi

Cəmiyyətin sağlamlığı bəzi amillərdən asılıdır. Onlardan ən əsası ailənin sağlamlığıdır. Ailə öz tərbiyəsi və həyat tərzi ilə cəmiyyət üzvlərini tərbiyə edir. Ona görə də ailənin möhkəmliyi, inkişafı və xoşbəxtliyi İslamın əsas məqsədlərindəndir.

Ailə insanı kamala çatdırır. Çünki insan təkbaşına və inzivaya çəkilərək bütün istedadlarını inkişaf etdirə bilməz. Əksinə, başqaları ilə münasibətdə və xüsusən də, ailə bağlarında bütün istedadlarını inkişaf etdirə və kamil insan ola bilər. Digər tərəfdən, sağlam ailə cəmiyyətə sağlam insan təhvil verir. Ona görə də ailə iki cəhətdən önəmlidir. Birincisi, insanın ailədə qazandığı istedadlar, ikincisi isə, sağlam insanın cəmiyyətə ailə tərəfindən təhvil verilməsi. Buna görə də İslamda ailəyə bu qədər önəm verilmişdir.

Modern dünyada ailəyə mənfi nüfuz edən və bəzi yerlərdə ailənin mahiyyəti barədə şübhə yaradan məsələlərdən biri də "azadlıq" barədə olan müzakirədir. "Azadlıq" məfhumunu elə formada tərif etmişlər ki, ailə, onun möhkəmliyi və hüquqi baxımdan ailədə tərəflərin yerinə yetirməsi lazım olan vəzifələr bir-biri ilə qarşı-qarşıya qoyulmuşdur. Bu baxımdan öncə qeyd edilən iki önəmli faydanın (yəni, şəxsi və ictimai baxımdan ailənin faydası) gerçəkləşməsi üçün azadlıq və ailə arasında olan əlaqə rasional və məntiqli formada müzakirə edilməlidir.

Bəziləri "azadlığın" mənasını Qərb mədəniyyətindən götürərək "insanın istəkləri" olaraq məna etmişlər. İnsanın bu istəklərinin isə heç bir həddi-hüdudu yoxdur. Burada yalnız başqa insanların haqqı zay olmasın və narahatlıqlarına səbəb olmasın deyə müəyyən məsələlər nəzərə alınmışdır. Bu səbəbdən insanın istəklərinə hörmət edilir. İstəkləri ailənin dağılmasına gətirib çıxartsa belə, onun haqqına çevrilir. Ona

kitaboxu.com

görə də Qərb qanunlarında ailədə hər iki tərəfin başqa insanlarla qeyri-şəri və qeyri-qanuni intim münasibətləri ola bilər. Bu iş tərəflərin razılığı ilə olduğu üçün qanuna və insanlığa zidd hesab edilmir. Əksinə, bu məsələ azadlığın mənası və özü kimi dəyərləndirilir.

Ancaq İslam dininə görə "azadlıq" anlayışı məna edilməldir. Azadlıq istəklər deməkdir, yoxsa başqa mənası var? "Hüquq elmi" kimi qanunlardan bəhs edən elmlərdə, həmçinin, siyasi və ictimai elmlərə aid olan kitablarda azadlıq məfhumu üçün 200-ə yaxın tərif qeyd olunmuşdur. Ona görə də məsələni həll etmək üçün "azadlığın" özü tərif edilməlidir. "Azadlıq" sözü "tərəqqi və kamillik yolundakı maneələri və sədləri aradan qaldırmaq" deməkdir. Azadlıq inkişaf və kamala çatmaq üçün vasitə və nərdivandır. Ancaq azadlıq inkişaf ilə paralel və üfuqi deyil, inkişafın nəzdində və şaquli ardıcılığındadır.

Təəssüf ki, Qərbdə azadlıq inkişaf və kamillikdən ayrı məna edilərək insanın hər cür istəkləri kimi yozulur. Ona görə də bu istəkdə qeyd-şərtsiz və nəfsi istəklərə uyaraq yaşamaq da azadlıq və eyni zamanda möhtərəmdir. Amma din məntiqində azadlıq kamilliyə gedən maneələri aradan qaldırmaqdır. İnsanın tərəqqi yolunda maneə və sədlər olmamalıdır. İstər o maneə başqalarına qarşı zülm və təcavüz kimi insani bir səd olsun, istərsə də həvəs və nəfsi istəklər kimi daxili maneə. Bu baxımdan azadlığın iki mənası var: "daxili azadlıq" və "ictimai azadlıq".

Daxili azadlıqda insan kamilliyə çatmaq üçün həvəs və nəfsi istəklərindən keçməlidir. İnsan bu düyündən azad olunmayana qədər yüksələ bilməz. Din deyir ki, tərəqqi üçün azad ol və özünü nəfsi istəklər bağlılığından azad et. Buna "mənəvi azadlıq" da deyilir. İctimai azadlığın olmaması isə başqalarına zülm və təcavüz etmək, onların haqqına riayət etməmək və onlara maneə yaratmaqdır. Bu, ayrı-seçkilik və təbəqələşmənin tənzimlənməsi ilə həyata keçirilir. İslam başqalarının köləlik və istismarından azad olmağı vacib hesab edir. İnsanların tağutun əsarətindən azad olmasını istəyir. İslamda azadlıq hədəf deyil, insanın tərəqqisi üçün bir vasitədir. Qərb məntiqində isə azadlıq vasitə yox, hədəfdir. Bu səbəbdən Qərb düşüncəsində insan istədiyi hər şeyi etməkdə azaddır. Yeganə məhdudiyyət başqalarına zərər verməməkdir.

**İkinci fərq azadlığın həddi ilə bağlı olan nəzəriyyədədir**

İslam azadlığı insanın kamilliyə çatması üçün nəzərdə tutduğuna görə, onu sadəcə başqalarına zərər verməməklə məhdudlaşdırmır. Eyni zamanda insanı nəfsi istəklərin əsiri etmək istəyən azadlığı da ondan alır. Ona görə də insan günah etməkdə və nəfsinin hər istəyini yerinə yetirməkdə azad deyil. Çünki İslam dini azadlığa nərdivan məntiqi və tərəqqi etmək üçün lazım olan bir vasitə kimi baxır.

Amma Qərb məntiqində belə deyil. Azadlıq tam mənada sərbəstlikdir və başqalarına zərər verməməkdən başqa, heç bir şərtlə məhdudlaşdırılmır.

"Qərbdə azadlığın mənşəyi insana xas olan zati ləyaqətdir. Başqa sözlə desək, insan özünün sahibidir. İnsan öz sahibi olduğu üçün özü ilə əlaqədar hər şeyi edə bilər. Digər tərəfdən, Qərb insana azadlıq üçün təbii və zati haqq verir. Çünki insanın zati ləyaqəti ona azadlıq gətirir."

Bu ifadələr qeyri-müəyyəndir və buradan Qərbin ifadə etdiyi azadlığın əsassız olduğu aydın olur. Əgər insan özünün sahibdirsə, eyni məntiqlə onun Allaha qarşı azadlığı da məhdudlaşdırıla bilər. Çünki insanın da sahibi və maliki Allahdır. Əgər insan öz sahibi olduğu üçün azaddırsa, deməli insanın həqiqi sahibi olan Allah da, insana qarşı istənilən əmri verməkdə azaddır. Allaha itaət də Onun malikiyyət, yaratma və rububiyyətindən irəli gəlir.

Agahlığa səbəb olan bu prinsiplər insanı ailə müzakirəsində belə bir nöqtəyə çatdırır ki: "Əgər mən azadlığı tərəqqi üçün istəyirəmsə, nələrin mənim tərəqqim üçün olduğunu və nələrin bu yolda mənə mane olduğunu görməliyəm. Daha sonra yolumdakı maneələri aradan qaldırmalıyam." Bu əsaslar doğru təhlil və gözəl müzakirə edilməlidir. Əgər doğru-düzgün təhlil edilməsə, müqəddəs olan "azadlıq" anlayışını özləri istədikləri mənada təbliğ edə və dinin azadlıq barəsində söylədiyi fikirlərə məhəl qoymamaqla ailələri dağıtmağa nail ola bilərlər.

kitaboxu.com

## Quran ayələrində hicab

"Əhzab" surəsinin 59-cu ayəsi qadınlar üçün örtünməyin qaydalarını bəyan edən ayələrdən biridir. Ayədə belə oxuyuruq:

﴿يا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْواجِكَ وَ بَناتِكَ وَ نِساءِ الْمُؤْمِنينَ يُدْنينَ عَلَيْهِنَّ مِنْ جَلاَبِيبِهِنَّ ذلِكَ أَدْنى أَنْ يُعْرَفْنَ فَلا يُؤْذَيْنَ وَ كانَ اللَّهُ غَفُوراً رَحيماً﴾[1]

***"Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, çarşablarını özlərinə bürüsünlər. Bu onların tanınmaması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhimlidir."***

Bu ayənin ilk cümlələrində bəyan olunur ki, əgər cəmiyyətdə hansısa bir mədəniyyətin qalmasını istəyirsinizsə, bu əməli öz ailənizdə icra edin. Ayənin davamında buyurulur:

﴿يُدْنينَ عَلَيْهِنَّ مِنْ جَلاَبِيبِهِنَّ﴾

***"Çarşablarını özlərinə bürüsünlər."***

Belə ki, bu, onların tanınmaması və onlara əziyyət verilməməsi üçün daha münasibdir.

Bu ayədə təfsir baxımından çoxlu önəmli mətləblər vardır. Birinci mətləb budur ki, «يدنين» "yudninə" sözü ilə bağlı iki məna qeyd edilmişdir.

Birincisi, yaxınlaşdırmaqdır. Bu zaman ayənin mənası belə olacaq: "Örtüklərinizi özünüzə yaxınlaşdırın, yəni onu üzünüzə yaxınlaşdırın ki, üzünüzü örtsün".

İkincisi, «يدنين» "yudninə" sözü "bir şeyi asmaq" mənasındadır. Lüğət kitablarında qeyd edilib ki, «أدنى» ədna sözü «على» əla sözönü ilə birlikdə işlənsə, "bir şeyi üzərinə

[1] "Əhzab" surəsi, ayə 59.

atmaq" mənasını verir. Bu ayədə həmin söz "əla" ədatı ilə işlənmişdir və ayənin mənası belə olacaq: "Mömin qadınlara de ki, öz örtüklərini üzərlərinə atsınlar (yəni, örtsünlər)".

"Ədna" sözü ilə bağlı digər mətləb belədir ki, örtük sadəcə saçlarla bağlı deyil, əksinə bədənin tamamilə örtülməsini də əhatə edir. Bir mətləb də örtüklə bağlıdır. Leksik baxımdan örtüklə əlaqədar bir neçə məna qeyd edilmişdir. Birinci məna ləhaf kimi bi məna ləhaf ir neçə məna qeyd edilmişdir. dəcə saçlarla bağ

İkinci məna məqnəədən (yaylıqdan) daha böyük olan örtük mənasındadır. Bəzi şəhər və ölkələrdə örtülən yaylıqlar dizə qədərdir və həmin hissəni də örtür.

Üçüncü məna yaylıqdır və o, sinəni örtür.

Dördüncü məna isə kişilərin geyindikləri qəmis (boyundan ayağa qədər olan köynək) kimi uzun geyim mənasındadır.

Beşinci məna paltarın üzərindən geyilən örtük mənasındadır. Əgər "cəlbab" sözünü hədislərdə araşdırsaq, ondakı məqsədin "bütün bədəni örtmək" olduğunu görərik. Bəzi hədislərdə qeyd edilib ki, "kim həya libasını əynindən çıxarsa, onun qeybəti icazəlidir".

﴿مَنْ أَلْقَى جِلْبَابَ الْحَيَاءِ فَلَا غَيْبَةَ لَهُ﴾[1]

*"Həya libasını atan şəxsin qeybəti olmaz".*

Bu hədisdə keçən "cəlbab" sözünün leksik mənası bütün bədəni örtən paltar mənasında olsa da burada məcazi mənada işlənib.

Bu ayədən əldə edilən digər mətləb cəmiyyətdə iffətli olaraq tanınmağın zəruriliyindən ibarətdir. Siz cəmiyyətdə iffətli olaraq tanınmalısınız ki, tamahkar və təcavüzkar insanlar sizin iffətli olduğunuzu bilsinlər. Cəlbab (örtünmək) sizin cəmiyyətdə iffətli olaraq tanınmağınız üçündür və bu manada deyil ki, kim örtünürsə o, mütləq iffətlidir, əksinə cəmiyyət arasına örtünərək çıxmaq iffətli olmağın nişanəsidir. Beləliklə, qadın örtünərək cəmiyyətə geyiminin həddi olduğunu bildirir.

Əlbəttə, bu ayə həmçinin, qadınların cəmiyyətdəki fəaliyyətini isbat edən ayələrdən biridir. Ayədə buyurulur ki, cəmiyyətə çıxarkən "cəlbab" ilə (yəni örtünmüş olaraq) çıxın və iffətli olduğunuzu təlqin edin. Məsələn, cəmiyyətə hakim olduğunu bildirmək istəyən hansısa bir şəxs işlədiyi yerə hakim olduğunu bildirən bir tablo yazıb vurur. Cəmiyyətdə iffətli olmaq istəyən kəs də örtünmüş olaraq camaat arasına çıxmalıdır ki, iffətli olduğunu aşılasın və başqa cür (iffətsiz olaraq) tanınmasın.

---

[1] Əllamə Məhəmmədbaqir Məclisi, "Biharul-ənvar", c. 85, səh. 36.



kitaboxu.com

Təbii olaraq cəmiyyətdə özünəməxsus geyim tərzi və özünü müxtəlif şəkildə nəzərə çarpdırmaq istəyən hansısa bir fərdlə özünü iffətli olaraq tanıtdırmaq istəyən şəxs fərqli şəkildə tanınacaq. Ayə bildirmək istəyir ki, cəmiyyətə iffətli olduğunuzla bağlı mesajlar verin və bu baxımdan örtünərək cəmiyyət arasına çıxın. Hicab ayəsi qadının örtünməsinin vacib olduğunu bəyan edir və örtünmə miqdarının da bədəni başdan ayağa örtmək olduğunu göstərir. Əgər onun ölçüsü barədə ixtilaf yaransa belə, örtünmə məsələsinin özü və əsli ilə bağlı heç bir şübhəyə yer qalmır və örtünmənin vacibliyini sübuta yetirir.

Bəzi müəllif və yazıçılar, bu ayənin kənizi azad qadından ayırd etmək üçün olduğunu bəyan etmişlər. Belə ki, azad qadın kəniz və qul qadından seçilsin və onlara hörmətsizlik edilməsin. Bu məsələdə insanların şəxsi düşüncəsi və seçimi dəlil-sübutsuz olaraq əsas götürülmüşdür.

Birincisi, bu ayənin nazilolma səbəbi ilə bağlı bəyan edilən məsələ mötəbərdir. İkincisi, ayədə keçən nisaul-muminin (mömin kişilərin xanımları) ayəsinin məzmunu ümumidir, ayədə heç bir qeyd yoxdur.

Üçüncüsü, dinin iffətlə bağlı nəzərdə tutduğu məqsədlə qadınların kəniz, qul və ya azad olması arasında fərq qoymaq uzlaşmır. Belə ki, kənizə hörmətsizlik və ya iffətsizlik eyib sayılmasın, amma azad qadında əksinə, eyib sayılsın. Kəniz və azad qadını digər metodlarla bir-birindən fərqləndirmək və ayırd etmək lazımdır. Bu ayə bildirir ki, qadın cəmiyyətə iffətli olmaq mesajı verməlidir. Qadın iki cür mesaj verir: Birincisi, iffətli olmaq, ikincisi isə iffətsizlik. Əlbəttə, hicaba riayət etməyənlərin iffətsiz olmasını da demək olmaz, əksinə bizim mövzumuz geyim tərzi ilə cəmiyyətə verilən mesajla bağlıdır. Bəzi hərəkətlərin özündə mesajlar gizlənmişdir. Quranda buyururlar ki, sizin cəmiyyətə verdiyiniz mesajlar iffət mesajları olsun.

**Hicabla bağlı ayələrdəki bəzi incə mətləblər**

Hicab ailələrin möhkəmlənməsində önəmli rola malikdir, həmçinin, ailələrin qorunması üçün əhəmiyyətli mesajdır. Öncəki bəhsimizdə hicab ayəsinə, yəni "Əhzab" surəsinin 59-cu ayəsinə toxunduq. Bu bəhsimizdə iffət və geyimlə bağlı "Nur" surəsinin 30-31-ci ayələri barədə söhbət açacağıq.

﴿قُلْ لِلْمُؤْمنينَ يَغُضُّوا مِنْ أَبْصارِهِمْ وَ يَحْفَظُوا فُرُوجَهُمْ ذلِكَ أَزْكى‏ لَهُمْ إِنَّ اللَّهَ خَبيرٌ بِما يَصْنَعُونَ. وَ قُلْ لِلْمُؤْمِناتِ يَغْضُضْنَ مِنْ أَبْصارِهِنَّ وَ يَحْفَظْنَ فُرُوجَهُنَّ وَ لا يُبْدينَ زينَتَهُنَّ إِلاَّ ما ظَهَرَ مِنْها وَ لْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلى‏ جُيُوبِهِنَّ وَ لا يُبْدينَ زينَتَهُنَّ إِلاَّ لِبُعُولَتِهِنَّ أَوْ آبائِهِنَّ أَوْ آباءِ بُعُولَتِهِنَّ أَوْ أَبْنائِهِنَّ أَوْ أَبْناءِ بُعُولَتِهِنَّ أَوْ إِخْوانِهِنَّ أَوْ بَني‏ إِخْوانِهِنَّ أَوْ بَني‏ أَخَواتِهِنَّ أَوْ نِسائِهِنَّ أَوْ ما مَلَكَتْ أَيْمانُهُنَّ أَوِ التَّابِعينَ غَيْرِ أُولِي الْإِرْبَةِ مِنَ الرِّجالِ أَوِ الطِّفْلِ الَّذينَ لَمْ يَظْهَرُوا عَلى‏ عَوْراتِ النِّساءِ وَ لا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ ما يُخْفينَ مِنْ زينَتِهِنَّ وَ تُوبُوا إِلَى اللَّهِ جَميعاً أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾[1]

[1] "Nur" surəsi, ayə 30-31.

*“Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.*

*Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Görünən miqdar istisna olmaqla zinətlərini göstərməsinlər; baş örtüklərini sinələrinin üstünə salsınlar (boğazlarını və sinələrini onunla örtsünlər); zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadın dindaşlarından, yaxud sahib olduqları kölələrdən, yaxud qadına meyli olmayan əqli qüsurlulardan, yaxud qadınların ayıb yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını (yerə) vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha qayıdın ki, nicat tapasınız.”*

**Birinci müqəddimə**

Bu qrupdan olan ayələri araşdırdıqda, dinin insanın gözü və digər bədən üzvləri ilə bağlı bir sıra göstərişlərinin olduğunu başa düşürük. Mövzumuz yalnız baxmağın əhatə dairəsi ilə bağlı deyil. Hər halda, İslamın örtünməyin vacibliyi və əhatə dairəsinin nədən ibarət olmasından asılı olmayaraq, baxmağın haramlığı ilə əlaqədar buyurduğu mətləblər vardır. Fiqhi, Quran və hədislə bağlı mövzularla qarşı-qarşıya olduğumuzu nəzərə almaq lazımdır.

Allahın insanın gözü və digər bədən üzvləri ilə bağlı göstərişlər verməsi onu göstərir ki, insan Allaha nisbətdə bu bədən üzvlərinin sahibi deyil. Müasir dövrdə ifratçı azadlıq tərəfdarlarının “insanın bədən üzvlərinə nisbətdə malikiyyəti” adı altında bəyan etdikləri məsələ tövhid məktəbi ilə uyğun gəlmir. Ona görə ki, insan Allahla müqayisədə bədən üzvləri ilə bağlı malikiyyəti yoxdur.

Həmin səbəbdən Allah gözlərimizə nəzarət etmək və bədənimizi də bu cür örtməklə bağlı göstərişlər verir. Qərb mədəniyyətinə təqlid edən bəzi ziyalıların bir növ ifratçı humanizmi təbliğ etməsi Allahın bütün insanlara və onların bədən üzvlərinə nisbətdə malikiyyətə malik olması, o cümlədən, insanların xaliqi və yaradanı olmasını bildirən tövhid prinsiplərinə uyğun deyil.

Buradan həmin ziyalıların sözlərinin əsassız və batil, həmçinin, Qərb mədəniyyətinin bir növ təqlidi olması başa düşülür. Halbuki, ziyalıların əksəriyyəti təqlidlə, hətta düzgün hesab edilən təqlidlə düşməndirlər. Bununla belə, özləri korkoranə təqlidə qərq olmuşlar.

Nəticədə, insan Allahı nəzərə aldıqda, özünün bədən üzvlərinə sahib olmasını deyə bilməz. Ona görə ki, Allah-taala insanın hansı şəkildə baxması və örtünməsi ilə



kitaboxu.com

əlaqədar göstərişlər vermişdir. “Mənim nə geyindiyimin sizə nə aidiyyatı var?”, “Mənim necə baxmağımın (nəzər salmağımın) sizə nə dəxli var?” kimi cümlələr Allahın insan və onun bədən üzvlərinə nisbətdəki malikiyyəti, həmçinin, insanı və onun bədən üzvlərini yaratması ilə ziddiyyətə malikdir. Başqa ifadə ilə desək, insan Allah müqabilində azad (müstəqil) deyil.

Əlbəttə, hermenevtika bəhslərindən söz açaraq bəyan etmək olar ki, Allah-taala bu mətləbləri deməyib, əgər bu mətləbləri isbat edə bilsəniz, istinad və dəlillərlə onu bəyan edə və hətta sübuta yetirə bilərsiniz. Əks halda, bu ayəni məna etdiyimizdə və ayədə insan örtüyə malik olmalıdır deyə buyurulduğunda, insan yenə də azad olduğunu desə, bu cür düşüncə düzgün deyil. Hermenevtika bəhsləri və vəhyin tarixi olması öz yerində bəyan olunmalıdır, amma biz dini hökmləri tarixi hesab etmirik, çünki bununla bağlı hansısa bir dəlilimiz yoxdur. Həmçinin, vəhyi də bir fərdin şəxsi təcrübəsi hesab etmirik. Bu bəhslər kəlami (etiqadi) bəhslərdir və onların mənbə və prinsipləri də öz növbəsində araşdırılıb tədqiq edilməlidir. Amma cəmiyyətdə bəyan edilən məsələ Allah-taalanın hökmlərini fərqli şəkildə məna etmək deyil, Allahın hökmləri müqabilindəki azadlıq məsələsidir.

**İkinci müqəddimə**

İkinci mətləb Allah-taalanın Qurani-Kərimdə iffətlə bağlı bəhslərdə məsələnin xırdalıqlarına da işarə etməsindən ibarətdir. Halbuki, namaz kimi mövzularda yalnız məsələnin külliyyatının bəyanı ilə kifayətlənmişdir. Amma iffət məsələsində uşağın valideynin otağına girişi ilə bağlı icazə, geyim tərzi, insanın məhrəm və naməhrəmlərinə də işarə olunmuşdur. Bu mətləb iffətin qorunmasının cəmiyyətin mənəvi aramlığı və sağlamlığında önəmli rol oynamasına işarə edir. İnsanın iki cür aramlığı vardır: Birincisi, cismani aramlıq və ikincisi, ruhi və mənəvi aramlıq. Stresslər və həyəcanlandırıcı istəklər bəzən iffətsizlikdən və həya ilə bağlı məsələlərə diqqətsizlikdən qaynaqlanır.

**Üçüncü müqəddimə**

Üçüncü mətləb geyim və iffətlə bağlı bəyan edilən bir sıra yanlış anlaşılmalarla əlaqəlidir. Bəziləri yanlışlıqlara yol verir və elə düşünürlər ki, geyimlə iffətin bir-biri ilə heç bir rabitəsi yoxdur. Deyirlər ki, bir qadının örtüyə malik olması, lakin iffətinin olmaması, yaxud da iffətli olması, lakin örtünməməsi mümkündür. Məsələni bu şəkildə bəyan edir və belə nəticəyə gəlirlər ki, geyimin (örtünməyin) iffətlə bağlı heç bir rolu yoxdur.

Bu da yanlış anlaşılma və məsələni sapdırmaqdan başqa, bir şey deyil. Bəzi geyimlərin özünəməxsus mesajları vardır. Biz demək isəmirik ki, özünəməxsus geyimə malik olan insanlar hökmən iffətsiz və həyasız insanlardır. Amma qeyri-

kitaboxu.com

münasib geyim iffətsizliyə gətirib çıxaracaq bir səbəb ola bilər və həm də iffətsizlik mesajı verir. Nəinki, həmin şəxsin iffətsiz olması deməkdir.

Cəmiyyətdə də geyim iffətsizlik mesajı verməməlidir. Cəmiyyət iffətsizlikdən qaynaqlanan həyacanların iztirabı olmadan insanların rahat şəkildə fəaliyyət göstərdiyi yerə çevrilməlidir. Bir daha "Nur" surəsinin 30-cu ayəsinə nəzər salaq:

﴿قُلْ لِلْمُؤْمِنينَ يَغُضُّوا مِنْ أَبْصارِهِمْ وَ يَحْفَظُوا فُرُوجَهُمْ ذلِكَ أَزْكى‏ لَهُمْ إِنَّ اللَّهَ خَبيرٌ بِما يَصْنَعُونَ﴾[1]

***"Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır."***

Ayənin əvvəlində geyimdən söhbət açılsa da, sonda (ذلِكَ أَزْكى‏ لَهُمْ) "zalikə əzka ləkum" ifadəsi ilə bunun insanlar üçün daha yaxşı və paklığa səbəb olduğu bildirilir.

Digər ayə "Əhzab" surəsinin 32-ci ayəsidir. Bu ayədə qadınların işvə və naz-qəmzə ilə danışması məsələsindən söhbət açılır. Ayəyə diqqət yetirin:

﴿يا نِساءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّساءِ إِنِ اتَّقَيْتُنَّ فَلا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذي في‏ قَلْبِهِ مَرَضٌ وَ قُلْنَ قَوْلاً مَعْرُوفاً﴾[2]

***"Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir adi qadın kimi deyilsiniz, (əlbəttə) əgər təqvalı olsanız. Əda, işvə və nazla danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Layiqli tərzdə danışın."***

Bu ayədə qəlblərində xəstəlik olan kəslərə qadınların naz-qəmzə ilə danışmasının xüsusi bir mesajının olduğu bəyan olunur. Ola bilsin ki, digər ayələri də şahid ünvanında göstərmək mümkündür.

**Dördüncü müqəddimə**

Cəmiyyətdə hicaba riayət etməyin hicablı şəxsin cənnətə getməsi ilə heç bir əlaqəsi yoxdur. Əksinə, burada söhbət cəmiyyətin psixoloji baxımdan sağlamlığından gedir. "Biz sizin bizi cənnətə aparmağınızı istəmirik!" – kimi cümlələrin deyilməsi də yanlış anlaşılma və sapdırmadan başqa, bir şey deyil. Məgər biz cəmiyyətdə kimisə cənnətə aparmaq istəyirik?! Yəni, cəmiyyətdə mənəvi sağlamlıq və ruhi aramlıq hökm sürməlidir. Ola bilsin ki, şəxs öz fərdi yaşayışında iffətsiz və fəsad əhli olsun, bunun cəmiyyətə heç bir aidiyyatı yoxdur. Hidayət və doğru yola yönəltmək mövzusu mədəni bir bəhs və hicab və geyimin izahı isə başqa bir mövzudur. Həmçinin, cəmiyyətdə hicaba riayət etmək də ayrıca bir mövzunu təşkil edir. İnsanın hidayəti təbliğ və bəyan etmə ilədir, lakin cəmiyyətin psixoloji sağlamlığının bir hissəsi geyim sayəsindədir. Örtünmə və geyim məsələsində şəxsin hidayət olunmasından deyil, cəmiyyətin mənəvi sağlamlığından söhbət açırıq.

---

[1] "Nur" surəsi, ayə 30.
[2] "Əhzab" surəsi, ayə 32.



kitaboxu.com

Şəxsin hidayət olunmasının cəmiyyətdə hicaba riayət olunması ilə heç bir əlaqəsi yoxdur.

**Beşinci müqəddimə**

"Nur" surəsinin 30-31-ci ayələrindən bir neçə göstəriş əldə olunur. Birinci göstəriş baxmaq və nəzər salmaqla bağlıdır. Kişi və qadın olmasından asılı olmayaraq, haram olan şeyə baxılmamalıdır. Allah-taala da kişiyə göstəriş verib ki, bəzi bədən üzvləri ilə bağlı gözlərini çəksinlər və zilləməsinlər. Burada məqsəd gözləri yummaq və fəaliyyətdən qalmaq mənasında deyil, əksinə nəzərdə tutulan bədən üzvləri ilə bağlı baxmamaq və nəzər salmamaqdır. Bu məsələ həm kişilər, həm də qadınlar üçündür. Nəzər salmaq məsələsində kişi və qadın arasında fərq yoxdur. Belə ki, yuxarıdakı ayələrdə buyurulur:

﴿قُلْ لِلْمُؤْمِنينَ يَغُضُّوا... وَ قُلْ لِلْمُؤْمِناتِ يَغْضُضْنَ مِنْ أَبْصارِهِنَّ...﴾

***"Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar... Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar..."***

İkinci göstəriş kişi və qadının özlərini qoruması və digərlərinin onların bədən üzvlərinə şəhvətlə nəzər salmamasıdır. İmanlı kişi və qadınlar zina etməməli və cinsiyyət üzvlərini qorumalıdırlar. Bu iki ayədə insanların cəmiyyətdə lüt-üryan və çılpaq olması haram edilmişdir. Beləliklə, kişi və qadın özlərini qorumalıdırlar. Həm baxmaq, həm də özünü çılpaq olmaqdan qorumaq məsələsi bu ayənin mömin kişi və qadınlarla bağlı önəmli mətləblərindəndir.

Bu məsələdə qadınlara məxsus göstəriş də vardır. Qadınlar təbiət baxımından cazibədar və qəlboxşayan, həmçinin, ilahi camalın (gözəlliyin) məzhəri olduqlarından, Allah-taala qadınlarla bağlı xüsusi bir hökm bəyan etmişdir. Bu da onların öz zinətlərini aşkar etməmələri və üzə çıxarmamaları ilə əlaqəlidir. Allah-taala buyurur:

﴿لا يبدين زينتهن الا ما ظهر منها﴾

***"Görünən miqdar istisna olmaqla zinətlərini göstərməsinlər!"***

Yəni, örtünməsi vacib olmayan görünən hissə istisna edilmişdir.

**Bu ayənin fiqhi və təfsirlə bağlı mətləbləri**

**Birinci mətləb**

"Qadınlar öz zinətlərini aşkar etməməlidirlər." – ifadəsindəki "zinət" dedikdə məqsəd nədir? Bu haqda müxtəlif ehtimallar irəli sürülmüşdür. Bəzi şəxslər zinəti "qadının bədəni" mənasında götürmüşlər. Yəni, qadın bədənini aşkar etməməli və bədənini örtməlidir. Əlbəttə, öz-özlüyündə aşkar olan bədən üzvləri istisnadır. Bura əlin biləkdən barmaqlara qədər olan hissəsi və üz daxildir.

kitaboxu.com

Bəziləri onu elə "zinətin özü" mənasında nəzərdə tutmuşlar. Yəni, qadınlar, öz zinət əşyalarını, məsələn, qolbaq, sırğa, boyunbaq və sairəni göstərməməlidirlər. Əlbəttə, zinət əşyaları ilə yanaşı, zinət yerləri də görsənməməlidir. Öz-özlüyündə görsənən hissələr istisnadır. Buna barmağı misal göstərmək olar.

Bəziləri zinəti "zinət yeri" barədə kinayə hesab etmişlər. Yəni, boyunbağı əgər qadının bədənindən kənardadırsa, zinət deyil, əksinə qadının bədənində olduğu zaman o, zinət hesab olunur. Beləliklə, "Zinətlərinizi aşkar etməyin!" – deyə buyurulduqda, zinət yerlərinizi, sinə, boyun və qulaqlarınızı aşkar etməyin deyə nəzərdə tutulur. Əl kimi, görsənən hissələr istisnadır.

Bu ayələr qadına həm zinətlərini, həm də zinət yerlərini örtməyin və onları göstərməməyin vacib olduğunu nişan verir.

**İkinci mətləb**

İkinci mətləb ayənin bu ifadələri ilə bağlıdır:

﴿وَ لْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلى جُيُوبِهِنَّ﴾

***"...baş örtüklərini sinələrinin üstünə salsınlar (boğazlarını və sinələrini onunla örtsünlər)..."***

Ayədəki "ximar" sözü yaylıq və məqnəə (baş örtüyü) mənasındadır. Ayədə başın örtülməli olduğu bildirilir. Başın örtülməsi, lakin boyun və sinənin örtülməməsi cahiliyyət dövründə adət halını almış bir məsələ idi və yaylığın kənarından nəzər saldıqda, qadının boynu və sinəsi görsənirdi.

Ayədə buyurulur ki, bu cür etməyin və yaylıq və baş örtüklərinizi boyun və sinələrinizi örtəcək şəkildə bağlayın. Deməli, birinci ifadə zinət yerləri ilə bağlıdır və boyun və sinəyə qayıdır və ikinci ifadə isə yaylıq və baş örtüyünün örtülmə qaydasını bildirir.

Birinci ifadədədən belə başa düşmək olur ki, əgər ayədən "zinət yerilərini" deyil, "zinəti" çıxarış etsək, onda gözəl paltar geyinmiş qadın bədəni görsənməsə belə, zinəti də aşkar etməməlidir. Ayədən çıxarış edilən bir ehtimala istinadən, hətta rəng və bəzək baxımından zinətli və cazibədar geyimlər də görsənməməlidir.

Xülasə, Allah-taala geyim və geyim tərzi barədə göstəriş vermişdir. Allah qadının saçı, boynu və bədəninin örtünməsini əmr etmişdir. Bu göstəriş ayədən qəti şəkildə və yəqin olaraq başa düşülən məsələdir. Qurana etiqadı olan müsəlman buna əməl etməlidir və Allah hər bir müsəlman və mömindən bunu tələb edir.

**Sonuncu mətləb**

Digər bir mətləb xalxal (qadınların ayaqlarına taxdıqları zinət əşyası) ilə bağlıdır. Cahiliyyət dövründə qadınlar ondan ayaq zinəti olaraq istifadə edirdilər. Ayədə

buyurulur ki, zinətləriniz aşkar olmasın deyə, addımlayarkən ayaqlarınızı möhkəm şəkildə yerə vurmayın!

﴿لِيُعْلَمَ ما يُخْفِينَ مِنْ زِينَتِهِنَّ﴾

Cəmiyyətdə qadınları digər insanları cəlb edəcək səviyyədə alçaltmaq olmaz. Allah yaradılışda kişi və qadın üçün ali hədəflər nəzərdə tutmuşdur və qadınlar cəmiyyətdə nəfsi istəkləri təhrik edən olmamalıdır. İslam dini cinsi ləzzət və ehtiyacların cəmiyyətdə təmin olunmasının əleyhinədir. Çünki belə olduqda ailələrin təməli sarsılır. Cinsi ehtiyacların isə ailə mühitində qarşılanmasının tərəfdarıdır! Bu göstərişlər ailə təməlini möhkəmlətməyə xidmət edir.

**Hicabsızlıq səbəblərinin araşdırılması**

Hicabsızlığın səbəblərindən biri dini inanclardakı zəifliklə bağlıdır. Öncəki bəhslərimizdə bu məsələyə işarə edilib. Qeyd etdik ki, ilahi rübubiyyətə və onun faydalarına həyatının dərinliklərində yer verməsə, itaət və tabeçilik və əməl etmək məqamında səhlənkarlığa düçar olacaq. Bu baxımdan, hicabsızlıq və ya hicaba düzgün riayət olunmaması əqidəvi inanclar və Allahın təşrii (qanunverici) rübubiyyətinə inamdakı zəifliklərlə bağlıdır.

İkinci problem əqidəvi inanclardakı zəiflikdir. Belə ki, bu məsələlərlə bağlı itaət və üsyanın insanın həm dünya, həm də axirəti ilə bağlı təsirləri vardır. Əgər Allah-taala hansısa bir göstəriş vermişdirsə, həmin göstərişə tabe olmağın həm dünyada, həm də axirətdə faydaları vardır və insanın səadətini təmin edir. Hikmət əsasında olan və insanın dünya və axirət səadətini təmin edən ilahi göstərişlərə inancın zəifliyi Allahı tanımaqla bağlı zəiflikdən doğur. İnsan Allahı tanımasa, yaxud onunla bağlı səthi tanışlığa malik olsa, bu, həmin məsələ ilə bağlı onun əməllərində də özünü biruzə verəcəkdir. Allah, onun rübubiyyəti və dini göstərişlərdə ilahi hikmətlə bağlı zəif məlumata malik olmaq dini cəhətdən zəif olmağa səbəb olan ən önəmli məsələlərdəndir.

Dini zəifliklə bağlı üçüncü məsələ hicab məsələsinin bəzi fərdlərə kamil şəkildə təbliğ olunmaması və bu məsələdəki diqqətsizlikdir. Bəziləri üçün hicab məsələsi yaxşı şəkildə aydınlaşmayıb və onlar elə düşünürlər ki, guya, hicab məhdudlaşdırma və başağrısıdır. Halbuki, hicab cəmiyyətdə qadının amanda qalmasıdır. Məsələnin həqiqəti budur ki, hicabın məhdudiyyəti kişi üçündür. Qadının münasib geyimi kişilər üçün məhdudiyyət və qadınlar üçün isə amanda qalma və mühafizədir. Hicab məsələsinə səthi yanaşma bəzilərinin hicabsızlığına və ya hicaba düzgün şəkildə riayət etməməsinə səbəb olmuşdur.

Dini prizmadan bəzən insan dəqiq inanca yiyələnməmiş və məlumatın (tanışlığın) dərinliyinə varmamış olur. Məsələn, Allahın rübubiyyəti və ilahi hikmət kimi

kitaboxu.com

mövzular dini tanışlıqla bağlı maarifin cilvələdir. Əlbəttə, din sahəsi iki cürdür: Bəzən dünya görüşü, bəzən də təmayül, fiqhi və əməli məsələlər əsasındadır. Bəzən insanın gözü görmür, ayağı da hərəkət etmir. Qeyd etdiyimiz öncəki iki hal insanın gözü hökmündədir. Bu zəminədə insanın gözlərini açmaq lazımdır. Həm Allahı, həm də ilahi sifətləri insana tanıtdırmalıyıq. Rübubiyyət və hikməti, həmçinin göstərişlərində hikmət sahibi olmasını insana təlim vermək lazımdır. Bu məsələlər insanın ilahi məsələlərdən agah olması üçün ona yardım edir.

Təmayül sahəsində də bəzi məsələlər mövcuddur. İnsanın bilməsi (elmə malik olması), lakin əməl etməməsi də mümükündür. Nəfsini paklamadığı üçün elminə və tanışlığına əməli don geyindirməmişdir. Üçüncü dini zəiflik amili insanların nəfslərini saflaşdırmamasıdır. Bəzi insanların yaşayışı nəfsi istəklər əsasındadır. İnsanın namaz və orucun Allahın hökmü olduğunu bilməsi, lakin nəfsinin qarşısını almadığından, onlara əməl etməməsi mümkündür.

Üçüncü məsələ özünü nəzarətdə saxlamaqda zəiflik və öz elmi və məlumatlarına, inanclarına təmayüldəki zəifliklə bağlıdır. Bəzən inancını səthi şəkildə dərk etmiş, bəzən də həmin inancı əməl mərhələsinə çatdıra bilməmişdir. Bəzən gözü kordur, bəzən də ayağı topaldır.

Əgər dini inancların bu hissəsinin cəmiyyətdə tətbiq olunmasını istəyiriksə, onda, cavanlarımıza imanla bağlı mövzuları dərin məlumatlar, dəqiq cavablar və mətləblərin tədrici dərki üçün səbirlə yanaşı aşılamalıyıq. Həqiqət bundan ibarətdir ki, bizim təlim və təhsil metodumuz və müəssisələrimiz tövhid və Allahı tanımağı Quranın bəyan etdiyi kimi, cəmiyyətdə cavanlarımızın zehninə yeridə bilməmişdir.

Əgər statistikaya nəzər salsaq, Allahın rübubiyyəti, təşrii rübubiyyət, ilahi hikmət sözlərinin mənasının şagird və tələbələr arasında qeyri-müəyyən və anlaşılmaz olduğunu görərik. Təlim-tərbiyə insanın ehtiyaclarına uyğun şəkildə maarif bəxş etməlidir və insanların ilahi göstərişlərə əməl etməkdə ehtiyac duyduqları şeylərdən biri Allahın rübubiyyəti və hikməti ilə bağlı tanışlıqdır.

Bu mövzular məktəb, universitet, mədrəsə və məscidlərdə dəqiq və dərin şəkildə bəyan olunmalıdır ki, bəndə və məbud arasındakı rabitədən ibarət olan inamın Allahla münasibətini dərk etməyə zəmin yaransın.

İkinci amil ictimai amildir. Dini amilin bəyanından sonra, növbə hicaba riayət etməməyin amillərindən olan ictimai amillərə yetişir. Bəzən cəmiyyət qeyri-münasib meyar və nümunələr təqdim edir. Həmin səbəbdən də insanlar bu qeyri-münasib nümunələr əsasında müəyyən geyim, rəftar və həyat tərzinə yönəldilirlər. Bu qeyri-münasib nümunələrin ən önəmliləri cəmiyyətdəki tanınmış aktyorlardır. Məsul şəxslərin bu cür insanları məşhurlaşdırmaqdakı səhlənkarlığı, onların cavanlar üçün nümunə və meyara çevrilməsinə səbəb olub. Əgər onlar doğru yolda inkişaf edib

sırf aktyor olsaydılar, o qədər də problem olmazdı. Amma əqidə, yaşayış və geyim və danışıq tərzi və digər yaşayış metodları cavanlar üçün meyara çevrilmişdir. Halbuki, onlar sadəcə incəsənət sahəsində təqlid olunası kəslərdir.

Bir mətləbi də qeyd etməliyik. Dinin nəzərində insan başqasının izi ilə özünə ev tikməməlidir. Bu həqiqəti də etiraf etməliyik ki, biz bəzi ictimai yönlərdən başqalarının izi ilə getmək istəmişik. Hicaba etiqadlı olmayan birini aktyorluq və filmdə hicab təbliğatçısı etməməliyik. Bir neçə dəfə evlənmiş və talaq vermiş və dəyişikliklər ardınca olan kəsi ailə, ailədə mənəviyyat və bu kimi mövzularda aktyor seçməməliyik ki, cavanların təfəkküründə ziddiyyət yaratmasın və ya rəftar tərzi cavanları şəxsiyyətsizləşdiməkdə nümunəyə çevrilməsin. Dini maarifə etiqadlı olanları aktyor olaraq seçməli və cəlb etməliyik. Bu məsələlər əlaqədar təşkilatların başqalarının izi ilə dini hədəflər üçün bina tikməsinə bənzəyir. Əlbəttə, bu şəkildə nəyəsə nail olmaq olmaz. Beləliklə, ictimai amillərdən biri məsələni bəzi şəxslərə naqis şəkildə təqdim və bəyan edən "qeyri-münasib nümunələr təqdim etmək"dir.

İkinci ictimai amil özünü ziyalı kimi göstərməkdir. Bəzi vaxtlarda hansısa bir geyim, bəzən hansısa bir rəng mədh olunur. Bəzən də özünü ziyalılğa vurmaq təriflənir. Həqiqi ziyalı cəmiyyətin nöqsanlarını və zəif cəhətlərini tanıyan və onun kamala doğru istiqamətlənməsi və islahı üçün təlaş göstərən kəsdir. Bu prizmadan ziyalılıq bəyənilən və mübarək bir fenomendir. Amma təəssüflər olsun ki, bəzi mədəniyyətlərdə ziyalılıq ədası həqiqi ziyalıların yerini almışdır. Guya, din əleyhinə, dəlilin dini hökmlə bağlı olmasının əleyhinə söz danışmaq insanı filosof və alim edir. Guya, keçmişdəki bütün əqidələrin inkarı insanı mütəfəkkir edir. Bəzi insanlar dəlil-sübut və təfəkkür yerinə, özlərini ziyalılıq ədasına vururlar.

Ziyalılıq ədası çıxarılan yerlərdən biri də hicabla bağlıdır. Elə düşünürlər ki, əgər insan hicablı olsa, onun səviyyəsi aşağı düşər. Əgər saçı-başı açıq və bəzənmiş şəkildə görülsə, bu, elm, tərəqqi və ziyalılığın əlamətidir. Məsələnin özəyi, möhtəvası, dərki, elm və dəlildən uzaq olaraq yalnız onun səthi və qabığından yapışmağı özləri üçün qənaətbəxş hesab edirlər. Guya, beləliklə tərəqqi və ziyalılıq yolunda həyat sürürlər. Mədh etmək də bu məsələ ilə yanaşıdır. Bəziləri elə düşünür ki, cəmiyyətdə yüksək səviyyədə nişan verilən kəslər kimi olmağa və görünməyə çalışmaq lazımdır.

Hətta onlar kimi danışmaq, onlar kimi ayaqqabı geyinərək özlərinin daxili boşluğunu gizlətməyə çalışırlar. İnsan zahirən deyil, daxilən zəngin olmalıdır. İnsanın zahirdə özünü başqalarına bənzətməsi təkamül deyil. İnsan daxildən kamala çatmalıdır. Ziyalılıq ədası çıxarmaq deyil, dərrakə və maariflə və insancasına yaşamaq tərəqqi və ziyalılığın meyarıdır.

kitaboxu.com

**Dini inanclardakı zəiflik hicabsızlıq amillərindən biridir**

Quranda hicab ayələri hicabın vacib olmasına aşkarcasına dəlalət edir. Həmçinin, qadınların örtünməsi, geyimlərinin saçlarını və bədənlərinin zinət yerlərini örtəcək şəkildə olması vacibdir. Sual budur ki, bəzi şəxslərin hicabsızlığa meyl etməsi və ya hicaba düzgün şəkildə riayət etməməsinin səbəbi nədir? Hicab İslam dininin və fiqhinin zəruri məsələlərindən olmasına baxmayaraq, nə üçün bəziləri ona riayət etmir?

Dinlə tanışlığı olmayan bəzi kəslər hicabın üsuliddindən olmadığını deyirlər. Cavabında deməliyik ki, üsuliddin mükəlləflərin (insanların) vəzifələri ilə bağlı deyil, əksinə Allahla və Allahın öhdəsində olan şeylərlə (yəcibu ələllah) bağlıdır. Mükəlləflərə vacib olan şeylər furuiddindədir. Hicab da furuiddindən sayılır. Onun vacibliyi dinin zəruri vacibatlarındandır. Həm ayələr, həm hədislər, həm də fəqihlərin icması (yekdil fikirdə olması) bu məsələnin vacibliyinə dəlalət edir. Beləliklə, hicabın vacibliyi barədə heç bir fiqhi şübhə yoxdur.

Məsələ burasındadır ki, vacib olmasına baxmayaraq, cəmiyyətdə hicaba yetərincə önəm verilməmişdir. Bu məsələdə müxtəlif amillərin təsiri vardır. Müxtəlif səbəblər müxtəlif proqramların irəli sürülməsini tələb edir. Onun bəzi amilləri dini, bəziləri ictimai, bəziləri psixoloji, bəziləri isə siyasidir. Bu fenomenin mürəkkəb amilləri vardır və onu bir amil əsasında təhlil etmək olmaz.

kitaboxu.com

**Dini amillər**

Dini amillərdən biri bəzi insanların dini inanclarındakı zəiflikdir. Həqiqət budur ki, bəzi fərdlər dinə nisbətdə səthi maarifə malikdirlər və dini öz duyğularının istəyi səthində başa düşürlər. Bunu belə ifadə etmək olar: “Allaha qurban olum”, “Allahın varlığı ilə aramlıq tapıram” və sairə.

Din, yəni insan üzərində Allahın təşrii rübubiyyəti – bu da insanın Allahla rabitəsində Allahı öz rəbbi olaraq dərk etməsi üçün dini dərindən bilməsini tələb edir. Bundan əlavə, Allah təkvini rübubiyyətə, yəni aləmdə tədbir görməyə malik olduğu kimi, təşrii rübubiyyətə də malikdir, yəni insanlar öz yaşayışında Allahın qanunları ilə yaşamalıdırlar. Dini qəbul edən insan Allahın Rəbb olmasını da qəbul etməlidir. Din – yəni, Allahın təşrii rübubbiyyətinin təcəlli və təzahürü.

İnsan deyir “Mən Allahı qəbul edirəm” bu zaman sual verməк lazımdır ki, bu cümlədəki məqsədiniz nədir? Siz Allahı vacibul-vücud olaraq qəbul edirsiniz? Yoxsa, yaradan olaraq qəbul edirsiniz? Yaxud da Rəbb, təkvin (ontoloji) və təşrii (qanun qoyan) aləmin rəbbi olaraq qəbul edirsiniz? Bu cür suallar verməklə insanda dini maariflə bağlı dərin təfəkkür yaratmaq lazımdır. Quran ayələrinə əsasən, bütpərəstlər Allahın xaliq və yaradan olmasını qəbul edirdilər, amma onların qəbul

etmədiyi Allahın təşrii rübubiyyəti idi. Onlar deyirdilər: Müxtəlif rəblər vardır. Həmin məsələyə həzrət Yusif (ə) də işarə edir:

﴿يَا صَاحِبَيِ السِّجْنِ أَ أَرْبَابٌ مُتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ﴾

***"Ey mənim zindan yoldaşlarım! Pərakəndə tanrılar yaxşıdır, yoxsa tək olan qalib Allah?"***[1]

Müasir dünyada da Allahın təşrii rübibiyyəti barədə də şübhə doğurmuşlar. Deyirlər ki, biz insanlar azadıq və ürəyimiz istəyən kimi yaşayırıq. Bu cümlə Allahın təşrii rübubiyyəti ilə ziddiyyətə malikdir. Əgər Allah bizim rəbbimizdirsə, deməli, biz onun müqabilində azad (müstəqil və özbaşına) deyilik. Əgər Allah bir şeyi əmr edirsə, ona tabe olub itaət etməliyik. "Nə üçün Allahın əmrinə tabe olmalıyıq?" sualına cavab olaraq deyirik ki, çünki o, bizi özümüzdən daha yaxşı tanıyır, həmçinin, bizə məhəbbət və vilayəti (üzərimizdəki səlahiyyəti) daha çoxdur. Allah bizə bizim özümüzdən daha yaxındır. İlahi ayələr də həmin məsələni hekayət edir. Ayədə buyurulur:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَجِيبُوا لِلَّهِ وَ لِلرَّسُولِ إِذَا دَعَاكُمْ لِمَا يُحْيِيكُمْ وَ اعْلَمُوا أَنَّ اللَّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَ قَلْبِهِ وَ أَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ﴾

***"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizlərə həyat bəxş edəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda Onun hüzuruna toplanılacaqsınız!"***[2]

﴿وَ لَقَدْ خَلَقْنَا الْإِنْسَانَ وَ نَعْلَمُ مَا تُوَسْوِسُ بِهِ نَفْسُهُ وَ نَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ﴾

***"Biz insanı yaratdıq və onun nəfsinin vəsvəsələrini də bilirik. Biz ona şah damarından da yaxınıq."***[3]

﴿وَ نَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْكُمْ وَ لَكِنْ لَا تُبْصِرُونَ﴾

***"Biz ona sizdən daha yaxın oluruq, siz isə görmürsünüz."***[4]

Bu ayələr insanın Allaha təslim olduğu zaman özündən daha yaxın olan birinə üstünlük verdiyini göstərir. Əgər dini inanclar zəifləyərsə, insan ilahi hökmlərə nisbətdə səhlənkar olar.

Bu məsələ təkcə hicabla bağlı deyil, namaz və digər ibadətlərlə əlaqədar da keçərlidir. Əgər insan ilahi rübubiyyəti və onun faydalarını dərin şəkildə başa düşməsə, tabeçilik, təsdiq və əməldə səhlənkarlığa düçar olacaq. Bu baxımdan deməliyik ki, hicabsızlığın səbəblərindən biri təşrii rübubiyyətlə (Allahın qanun çərçivəsindəki rəhbərliyi) bağlı inancın zəifliyidir.

---

[1] "Yusif" surəsi, ayə 39.
[2] "Ənfal" surəsi, ayə 24.
[3] "Qaf" surəsi, ayə 16.
[4] "Vaqiə" surəsi, ayə 85.

**Hicabla bağlı şübhələrə cavab**

Quranda ailə ilə bağlı olan və bir növ ailənin sağlamlığını təmin edən və onun təməllərini möhkəmləndirən mövzulardan biri də "cəmiyyətdə hicab" mövzusudur. Hicab İslamın qadına vacib etdiyi xüsusi bir geyim növüdür. Öncəki bəhslərimizdə hicabla bağlı olan bəzi ayələrə işarə etdik.

Bu bəhsimizdə hicabla əlaqədar olan şübhələrə cavab verəcəyik. Bəhsə başlamazdan əvvəl bir müqəddiməni nəzərinizə çatdırmalıyıq. Əgər şübhə və sual həqiqətə yetişmək məqsədilə olsa, o, kamala doğru bir körpüdür. Əgər şübhə qəbul etməmək üçün bir bəhanə olsa, onda o, elmi bəhsə aid olmaz, əksinə həqiqətdən qaçmaq üçün bir bəhanə sayılar.

Quranın məad kimi bəzi dini bəhslərində bəyan edilir ki, bəziləri həqiqətə nail olmaq üçün qiyamət barəsində sual vermirlər, əksinə məsuliyyətdən qaçmaq məqsədilə qiyaməti inkar edirlər və onların qiyamətin baş vermə zamanı və keyfiyyəti barədəki sualları məsuliyyəti qəbul etməmək üçün bir bəhanədir.

Beləliklə, insanda şübhə yaranmasının heç bir maneəsi yoxdur, bu şərtlə ki, şübhədə qalmasın və bəhanə ardınca olmasın. Habelə şübhə və sualına məntiqli cavab tapsın. Həqiqət ardınca olan şəxsin əlaməti yalnız danışmaq deyil, həm də dinləməkdir. Quran ayələrində müşriklərdən bəzilərinin Peyğəmbərin (s) yanına yalnız o həzrətlə mübahisə etmək, öz sözlərini demək və çıxıb getmək məqsədi ilə gəldiyi bəyan olunur.

Sağlam danışıq insanın həm də qarşı tərəfi dinləməsindən ibarətdir. Əgər öz sözümüzü deyib gediriksə, deməli, həqiqət ardınca deyilik, əksinə bəhanə axtarırıq. Qadın hüquqlarından, hicab və qadın azadlığından dəm vuran kəslər əgər insaflı olsalar, qarşı tərəfin də sözlərini araşdırmalıdırlar. Elmi bəhslərdə də həm danışmalı, həm də dinləməliyik. Danışdıqda dəlillə danışmalı və qarşı tərəfin sözlərini dəlil əsasında rədd etməliyik. "Ürəyim istəmir", "Ondan xoşum gəlmir" kimi cümlələr və bunların bənzərlərinin heç bir dəyəri yoxdur. Elmi bəhslərdə dəyərli olan şey məsələn, filan dəlilin bu müddəa ilə bağlı olması və filan mətləbin bu mətləbin tənqidi olmasıdır. Yəni, filan mətləbi qəbul etməməyin səbəbi bu mətləbin onun inkarı olmasıdır. Elmi bəhslər bu cür olmalıdır. Fəzanı şantajla, təbliğlə, içiboş sözlərlə yanlışa sapdırmaq elmi bəhslər aid deyil. Xülasə, birinci müqəddimə sual və şübhənin bəhanədən fərqli olması ilə bağlı oldu və onun əlaməti tədqiq, araşdırma və dəlil əsasında danışmaqdır.

**Birinci şübhə: "La ikrahə fid-din" (dində heç bir məcburiyyət yoxdur) ayəsi**

Belə bir şübhə irəli sürürlər ki, dində heç bir məcburiyyət yoxdur və bu baxımdan kimisə hicaba məcbur etmək olmaz. Cavabında deməliyik ki, birincisi, ayənin mənası nədir? Görəsən, ayənin mənası bəzilərinin məsuliyyət və ilahi vacibatlardan

qaçmaq üçün bəyan etdiyi məsələdirmi? Bu ayədə insanşünaslıqla bağlı bir mövzudan bəhs olunur. İman qəlbə aid məsələdir. Qəlbə aid olan məsələlərdə məcburiyyətə yer yoxdur və icbar qəbul olunmur. Siz bir kəsi dildə kəlimeyi-şəhadəti deməyə məcbur edə bilərsiniz, amma həmin şəxs bunu qəlbən deməyəcək. Gərək kəlimeyi-şəhadəti demək üçün qane olsun, anlasın və özü ona iman gətirsin. Bu baxımdan kimisə imana məcbur etmək olmaz.

Dində vaciblər və haramlar vardır və feillər məcburedilmə xüsusiyyətinə malikdir. Əgər bir şəxs başqasının haqqını verməsə, onun malından satır və qarşı tərəfin haqqını ödəyirlər. Beləliklə, insanın feilləri məcburetmə xüsusiyyətlidir. Hüquq, qanun və icbar bu prizmadandır. Qanun, yəni məcburetmə, deməli, "la ikrahə fid-din" qəlbə aid məsələlərə aiddir və qəlbi məsələlərin qəbul etdirilməsi icbarla qeyri-mümkündür və bunun təşrii aləmə (qanunverici aləmə) heç bir aidiyyatı yoxdur.

İnsan təkvini (yaradılış) baxımından məcburiyyəti qəbul etməyəndir. İman qəlbi məsələ olduğu üçün bu ayə ilə bağlı onun fiqhi bəhslərə deyil, insanşünaslığa aid olduğunu deməliyik. Yəni, burada insanın məcburiyyəti qəbul etmədiyi bəyan olunur. Əgər insan qayda-qanunları qəbul etməsə, onda onu buna məcbur edəcəklər. Bu məsələ təkcə hicab bəhsinə aid deyil, əksinə bütün dünyada qanunlar məburetməyə bərabərdir. Dində də müxtəlif məcburetmələr vardır, məsələn, hüquqi, və sairə kimi. "La ikrahə fid-din" ayəsinin şəriət, qanun və hüquqa aidiyyatı yoxdur, əksinə bu ayə fəlsəfi və insanşünaslıqla bağlı ayədir.

**İkinci şübhə: Hicab ictimai fəaliyyətlərə maneədir**

Bir ölkəddəki ictimai fəaliyyətlərin yarısının hicabla həyata keçməməsi ilə bağlı bir şübhə irəli sürürlər. Bu da araşdırılmadan söylənən təəccüblü bir yalandır. Bunun əksinin isə düzgün olduğunu söyləmək olar. Belə ki, əgər fərdlər qarışıq (kişi və qadın birlikdə) şəkildə, cazibədar və çəkici geyimlərlə, qeyri-adi şəkildə bəzənmiş halda birlikdə iş görsələr, iş mühiti qeyri-münasib bir mühitə çevrilər və iş prosesi tamamilə zəifləyər və öz hədəfindən yayınar. Bunlar olmasa belə, hicablı həyat tərzi sürməyin yerinə yetirilən fəaliyyətlərə heç bir maneçilik törətmədiyini nişan verir. Hansısa bir ölkədə, mədəniyyət və ənənədə insanlar onların (hicablı kəslərin) fəaliyyətinə maneə ola bilər, amma bu məsələnin hicab məsələsinə aidiyyatı yoxdur.

**Üçüncü şübhə: Qəlbin təmiz olsun**

"Əsas ürəyin təmiz olsun" – deyə bir şübhə irəli sürürlər. İnsanın zahirdə yaxşı insan olması, lakin qəlbinin pak olmaması mümkündür. Bu da insanı yanlışa sapdırmaq üçün söylənən sözlərdən biridir. Məgər kimsə insanın qəlbinin təmiz olmamasını deyirmi? Amma məsələ burasındadır ki, insanın qəlbi saleh əməllə pak



kitaboxu.com

olur. Bu da insanşünaslıqla bağlı bəhslərdən biridir. Ruhu qidalandırmasanız, ruh sağlam olmaz. Ruh saleh və ya fasid əməllərlə ya inkişaf, ya da tənəzzül edir. Hər halda, insan əməli ilə ruhunu qidalandırır. Onların dedikləri yanlışa sapdırmaqdır və sanki, insanın əməlinin onun ruhuna heç bir təsiri yoxdur.

**Dördüncü şübhə: İnsan ona qadağan olan şeyə hərisdir**

Şübhə irəli sürürlər ki, insan ona qadağan olan şeylərə nisbətdə hərisdir. Bu da insanı tanımamaqdan qaynaqlanmış olan yanlışa sapdırmalardan biridir. Adətən, bu cür şübhələri irəli sürənlər öz həyat tərzlərinə haqq qazandırmağa çalışırlar. Onlar bu məsələlərdə diqqətlə, araşdırmaya malik deyillər və yalnız öz həyatlarını əsaslandırmaq istəyirlər.

İnsanşünaslıq baxımından insanın instinktləri açıq mühitdə seyr etmir. Onların bu cür bəyanı insanı və onun instiklərini, xüsusilə də cinsi instinktləri tanımamasından qaynaqlanır. Onlar elə düşünürlər ki, insan açıq fəzada və aşkar münasibətlərlə yaşamalıdır və beləliklə, onların meyilləri bitəcək və sağlam və pak yolda addımlayacaqlar. İnsanın instinktləri od kimidir. Ona nə qədər qida (odun) verilsə, iştahası bir o qədər çoxalacaq. Bəzi ölkələrdə əks cinsə olan istəklərin rəngarəngliyi onu göstərir ki, əgər insan instinktlərini nəzarətdə saxlamasa, onu daha da alovlandıracaq və insanın sərmayəsi əldən çıxacaq.

Deməli, birincisi, insanın instinktlərinin açıq mühit ilə uzlaşmasından söhbət gedə bilməz. İkincisi, İslam dini də insanın instinktlərinin zay olması və yox olmasını istəmir. İslam dini insanın instinkt və qərizələrini kontrol etmək istəyir. Deməli, ən yaxşı metod onun mötədil saxlanmasıdır ki, nə alovlansın, nə də sönsün.

İslam dini hicabla yanaşı, nikah məsələsinə də diqqət yetirmiş və onun bir çox müsbət nəticələrə malik olduğunu bildirmişdir. Beləliklə, dini hökmlər bir-birinə bağlı olan bir məcmuədir və burada sadəcə hicabdan söhbət getmir, əskinə onun kənarında evlilik, evlilikdə sadəlik və evlənməyə tələsmək də yer tutur. Sadalanan məsələlər insan instinktlərinin nə tamamilə aradan getməsi, nə də tamamilə sərbəst buraxılmasından söhbət açır. Açıq mühitdə insan ruhunun yanğısının (əlbəttə, söhbət cinsi ehtiyacların təminindən gedir) sönməsinin deyilməsi, açıq-aşkar yalandan başqa, bir şey deyil.

**Beşinci şübhə: Hansı ayədə hicabın vacib olduğu bildirilib?**

Deyirlər ki, hicabın vacib olduğunu bildirən ayə yoxdur. Cavabında deyilməlidir ki, öncəki bəhslərimizdə hicabın vacibliyi barədə iki ayəni araşdırdıq. Bundan əlavə, hicabın aydın dəlillər əsasında fiqhi zərurətlərdən (vaciblərdən) olduğu sübuta yetirilib.

kitaboxu.com

**Altıncı şübhə: Seçim məsələsində insanın azad olması**

Deyirlər ki, insan azaddır və özü bilər. İnsanın necə geyinəcəyi onun özünə bağlıdır və digərlərinə heç bir aidiyyatı yoxdur. Bu da yalnış anlaşılan məsələlərdən biridir. Başqalarına aid olmasa belə, Allaha aiddir. İnsan Allaha nisbətdə azad deyil. İnsan başqalarına nisbətdə azaddır. Bu səbəbdən, əgər Allah-taala vilay nisbətdə azaddır. Bu səbəbdən, əgər İnsan Allaha nisbətdə azad deyil. digərlərinə hxşılğa dəvət) və nəhy əz munkər (pisliklərdən çəkindirmək) formasında da həmin məsələnin başqalarına aidiyyatı olmazdı. Allah-taala yaxşılığa dəvət etməkdə və pislikdən çəkindirməkdə, belə buyurur:

﴿وَ الْمُؤْمِنُونَ وَ الْمُؤْمِناتُ بَعْضُهُمْ أَوْلِياءُ بَعْض﴾[1]

***"Həqiqən, mömin kişilərlə mömin qadınlar bir-birinin dostudurlar (yardımçılarıdırlar)."***

İnsan Allahın bəndəsidir. Bəndə olmağı bəzən irfani baxımdan bəhs edir və deyirik: "Allah mənə mənim özümdən daha yaxındır." Bəzən də insan deyir: "Mən özüm nə edəcəyimi bilirəm."

Bəzən də insan Allahın onun üçün nə dediyini nəzərdə tutur. Belə ki, o, Allahın ona özündən daha yaxın olduğunu və nəyə ehtiyac duyduğunu daha yaxşı bilir. Beləcə, Allahın onu üçün nə dediyini nəzərə alır.

Allah insanın yaradanı və malikidir. İnsanın azad olduğunu dedikdə, onun azadlığının mənşəyi nədir? Sizin azadlığınızın mənşəyi heç nədən asılı olmamağınızdır, halbuki dinə görə Allah sizin malikinizdir. Dini dünyagörüşü əsasında Allah bizim malikimizdir və biz Allaha məxsusuq. Deməli, Allaha nisbətdə azad deyilik.

Həmin səbəbdən dini fəzada söhbət vacib və haramlardan gedir. Vaciblər yerinə yetirilməli olan şeylərdir. Vacibdə zərurilik mövcuddur və onun dəlili Allahın yaradan, malik və Rəbb olmasıdır. Ona görə də buyurur:

﴿أَطِيعُوا اللَهَ...﴾[2]

***"Allaha itaət edin..."***

İtaətin mənbəyi Allahın yaradan və malik olmasıdır. Quran bəhsləri baxımından da deməliyik ki, əgər insan Allaha ibadət etsə və onun göstərişlərini yerinə yetirsə, təkamülün kamil formasına nail olar. Ona görə ki, Allah insanın ehtiyaclarını onun özündən daha yaxşı bilir. İnsanın ehtiyaclarının və təkamül yolunun tanınması məsələsi Quranın bəhslərindən biridir.

---

[1] "Tövbə" surəsi, ayə 71.

[2] "Ali-İmran" surəsi, ayə 132.



kitaboxu.com

**Hicab insanın deyil, Allahın haqqıdır**

İnsanın bu məsələdə özünün qərar verməsinə haqqı yoxdur. Abır-həya, iffət və izzət Allahın haqqıdır. İnsan abrını aparacaq yerlərə getməməli və həyasını sual altına aparmamalıdır. İnsan abrını və şəxsiyyətini satmamalı və alçaltmamalıdır. Çünki insanın abrı özünəməxsus deyil. Eynilə insanın bədən üzvləri də onun özünün deyil. Yəni, onların həqiqi maliki Allahdır.

Həmçinin, hicab insanın haqqı deyil ki, o desin: "Mən özüm hicablı olub olmamağımla bağlı qərar verirəm." Hicab Allahın haqqıdır. Allah göstəriş verdiyi üçün ona əməl edilməlidir. İnsanın kafir olması və onun yaradan və malik olduğunu qəbul etməməsi istisnadır və burada bəhs tövhidi bəhsdir. Əgər insan müsəlmandırsa və Allahın təkliyini, peyğəmbərini, onun yaradan və malik olmasını qəbul edirsə, deyə bilməz ki, "Mən Allaha nisbətdə azadam."

**Yeddinci şübhə: Hicabın iffətdən ayrı olması**

Deyirlər ki, hicab iffətdən ayrıdır. İnsan iffətli olmalıdır. İffət və həya da batini məsələdir. İnsan daxilən iffətli olmalıdır. Hicab isə zahirlə bağlıdır. Əsas məsələ hicab deyil, iffətli olmaqdır. Bu da özün aldatmaqdır. Hicabsızlıq, iffətsizliyə zəminədir. Hicabsızlığın müqəddiməsi şəxsin iffətsizliyidir və hər bir əda və davranışın bir mesajı vardır. Dayanmaq, danışmaq və geyim tərzinin də mesajları vardır. İnsan bəzənib qeyri-münasib vəziyyətdə hansısa bir fərdlə söhbət edirsə, bunun mənfi nəticəsi ola bilər. Hicabın mənasının iffətlə fərqlərə malik olmasına baxmayaraq, hicabsızlıqda mənfi təsirə malikdir. Bəziləri cəmiyyətə bəzənib çıxmaqla mesajlar verirlər.

Həmin səbəbdən, Quranda hicab bəyan edilib və qadınlara hicab geyinmək əmr olunub ki, iffətli olaraq tanınsınlar və onlara söz atılmasın. Hicabla iffətin hər birinin ayrı-ayrılıqda öz mənasının olmasına baxmayaraq, hicabsız olmaq kiminsə iffətsiz olması demək deyil. Amma geyim tərzinin cəmiyyətdə mesajları vardır. Bu baxımda hicab və iffət məsələsi bir-birindən ayrı olsa da biri digəri üçün zəminə hesab olunur.

**Hicaba nisbətdəki yanlış anlaşılmalarla bağlı mətləblər**

Quranda ailə mövzuu ilə bağlı bəyan edilməli məsələlərdən biri hicabdır. Əlbəttə, burada hicabın leksik mənasına toxunmuruq. Bəziləri heç bir araşdırma aparmadan elə düşünür ki, hicabdan söz açıldıqda, onun leksik mənasına istinad edilir. Həmin səbəbdən, ziyalı ədası çıxararaq "Quranda hicabla bağlı heç bir şey gəlməyib və dində hicab məsələsi yoxdur. " – deyirlər. "Hicab" termini bizim dövrümüzə yaxın bir zamanda istifadə olunmağa başlamışdır deyə iddia ortaya atırlar.

kitaboxu.com

Bizim hicab sözü ilə işimiz yoxdur, əksinə məqsəd qadınlar üçün nəzərdə tutulan xüsusi geyimdir. Hicab mövzusunda söz düşdükdə, materialist düşüncəli insanlarda qərəzçilik, cəhalət və kin-küdurət səbəbindən deyilir ki, hicab məsələsi yoxdur və hansı fəqih, təfsir alimi və ya tədqiqatçı Quranda "hicab" sözünün olduğunu və məqsədin də qadınlar üçün nəzərdə tutulan geyim olduğunu deyir? Əksinə, Quranda hicabın möhtəvası və məzmunu, yəni qadın üçün xüsusi geyim vardır.

**Birinci mətləb**

Bu bəhslər yarımçıq şəkildə bəyan edilməməlidir. Bəziləri bu məsələni yarı-yarımçıq bəyan edir və qadın azadlığından söhbət açırlar. Başqa sözlə, mövzunu ictimai məsələlərə çəkirlər. Halbuki, hicab ictimai məsələdən öncə, dini məsələdir. Bu səbəbdən, ilk öncə dini mənbələr əsasında İslamın qadınlar üçün xüsusi geyim tərzi vacib edib etmədiyini araşdırmaq lazımdır.

Amma bəzi şəxslər öz məqsədlərinə nail olmaq üçün insanları yalnış yola sapdırmaqla azadlıqdan söhbət açır və deyirlər ki, nə üçün hicab məsələsində məcburiyyətdən söz getməlidir? Halbuki, məcburiyyət bir bəhs, xüsusi geyimdən istifadənin vacibliyi isə başqa bir bəhsdir. Əgər hicabın məcburi olması kimi yalnış fikirlər yayanlar hicabın qadınlar üçün vacib bir geyim tərzi olması ilə bağlı ayələri işıqlandırmış olsalar, onda, problemlərin əksəriyyəti həll olmuş olar. Dinin gətirdiyi vacibatlardan biri qadının xüsusi geyimi ilə bağlıdır. Bundan sonra növbə digər bəhslərə çatır. İlk öncə bu məsələ aydınlaşdırılmalıdır ki, daha sonra yanlış anlaşılmalara yer qalmasın.

kitaboxu.com

**İkinci mətləb**

Görəsən, insan Allaha nisbətdə də azaddırmı? Yoxsa, dində bəyan edilən azadlıq digərləri müqabilində olan azadlıqdır?

Əmirəl-möminin Əli (ə) buyurur:

﴿لا تکن عبد غيرٍ و قد جعلک الله حراً﴾[1]

***"Allah-taala səni azad yaratdığı halda, başqalarının qulu olma!"***

Deməli, azdlıq Allah müqabilində deyil, digərləri ilə bağlıdır. Başqa sözlə, insan Allah müqabilində bəndədir, çünki onun yaradanı, mövlası və Rəbbidir. Əlbəttə humanizm məktəbində insanın Allaha nisbətdə azad olması mümkündür, lakin məsələ dini prizmadan müzakirə olunsa və Allahın insan üçün hansısa bir şeyi vacib olaraq təyin etdiyi bilinsə, artıq insanın Allah müqabilində azadlığından söhbət gedə bilməz və o, Allahın bəndəsi hesab olunar.

---

[1] İbn Şöbə Hərrani, "Tuhəful-uqul", səh. 77.

Bu bəhs əqidəvi bəhslərdəndir. Qərbin bəyan etdiyi azadlıq İslamın bəyan etdiyi azadlıqdan tamamilə fərqli bir məsələdir. Bu mövzu gözəl şəkildə bir-birindən ayırd edilməlidir. Qərbdəki azadlıq bəşərin haqqı və mütləqdir. O, yalnız başqalarına zərər verməməklə bağlı məhdudiyyətə malikdir. Əlbəttə, sonuncu hissəni də şəxsi prizmadan deyil, əksəriyyətlə bağlı bəyan edirlər.

Bu əhatə dairəsi istisna olmaqla, insanın azad olduğunu deyirlər. Amma dinin nəzərində nə insan başqalarına zərər yetirməlidir, nə də o, Allaha nisbətdə azaddır. Allah onun yaradanı və maliki olduğundan, insan ona məxsusdur. Bir kəsin mülkiyyətində olan şey azadlığa malik deyil. Dinin təməli bu mətləbdən qaynaqlanır.

Dinə ehtiyac müxtəlif prizmalardan bəhs edilmişdir. Bir yanaşma belədir ki, insan insanı onu yaradandan daha yaxşı tanıya bilməz. Deməli, insana təkamül yolunu göstərmək Allah tərəfindən olan bir ilahi lütfdür. İkinci yanaşma Allahın insanın potensialları ilə bağlı agahlığıa malik olmasıdır. Üçüncü yanaşma qanun və qaydalar riayət etməklə bağlıdır. Dördüncü yanaşma Allahın malik və Rəbb olmasıdır. Deməli, insan onun mülkiyyətində və ona məxsusdur və bu baxımdan azad deyil.

**Üçüncü mətləb**

Bəzən insan öz zövqünə uyğun olaraq tədqiq olunmalı bir bəhsi zay edir. Qadının geyimindən söhbət açan bir şəxs öz şəxsi düşüncələrini bir kənara qoymalı və tədqiq məntiqi ilə məsələləri bircə-bircə bəyan etməlidir. Öz şəxsi nəzəri əsasında danışmaq barədə Allah belə buyurur:

﴿وَ ما لَهُمْ بِهِ مِنْ عِلْمٍ إِنْ يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَ إِنَّ الظَّنَّ لا يُغْنِى مِنَ الْحَقِّ شَيْئاً﴾ [1]

***“Ancaq buna dair heç bir bilgiləri yoxdur. Sadəcə, əsası olmayan zənnə qapılırlar. Halbuki zənn əsla həqiqət ola bilməz.”***

Zənnə qapılmaq və öz şəxsi düşüncəsi əsasında Quran ayələrini təfsir etmək günümüzdə bəzilərinin düçar olduğu yalnış anlaşılan məsələlərdən biridir. Yəni, heç bir dəlil olmadan ayədən hansısa bir çıxarış edir və onu mötəbər və müasir nəzəriyyə kimi təqdim edirlər. Tədqiqi şəxsi zövqdən ayırmaq məsələsi diqqət olunası mətləblərdəndir.

**Dördüncü mətləb**

Tədqiqat və elmi bəhslərdə müxtəlif nəzəriyyə və düşüncələrin bəyan edilməsi mümkündür. Tədqiqatçı o kəsdir ki, mətndaxili və xarici nüanslara diqqət yetriməklə bu nəzəriyyə və düşüncələrdən ən yaxşısını seçsin. Müasir dünyamızda

---

[1] “Nəcm” surəsi, ayə 28.



kitaboxu.com

təəssüflər olsun ki, qəzet və jurnalların, medialarınn məqalə yazarları tədqiqatçı və yazıçı olaraq ən yaxşı nəzəriyyələri deyil, öz zövqlərinə uyğun olanları seçirlər.

Dorğudur, həmin nəzəriyyəni də hansısa bir alim irəli sürmüşdür. Lakin bu nəzəriyyənin seçilməsi qəti və mötəbər dəlillər əsasında deyil, bəzi hallarda çox güman ki, seçən şəxsin zövqü və humanist düşüncələri ilə uyğun gəldiyinə görədir. Bu baxımdan həmin nəzəriyyə zəif və qeyri-mötəbər olmasına baxmayaraq, bu araşdırmaçının nəzərində digər nəzəriyyələrə nisbətdə üstünlük təşkil edir.

Beləliklə, yazıçılar hansısa bir mövzuda peşəkarlığa malik olmadan zəif və qeyri-mötəbər nəzəriyyələrdən bəzi haşiyyələri götürür və onu elmdə mötəbər nəzəriyyə kimi təqdim edirlər. Qadının geyimi ilə bağlı bu cür yanlış anlaşılmalar və dəlilsiz seçimlərin, həmçinin elmi olmayan şəxsi düşüncələrin tədqiqat adı ilə cəmiyyətə sırınmasının şahidi oluruq. Əgər kimsə hicab mövzusunu dini prizmadan kamil şəkildə araşdırmaq istəyirsə, bunu tədqiq etmək üçün elmi səviyyəsi olmalıdır. Yəni, fəqihlərin, təfsirçi alimlərin və mütəxəssislərin nəzəriyyələrini də sənədli şəkildə bəyan etməlidir.

kitaboxu.com

## İstifadə olunan ədəbiyyat


1. Qurani-Kərim, Ərəbcədən tərcümənin və şərhlərin müəllifi: Ayətullah Mirzə Əli Meşkini Ərdəbili, Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Bakı, 2008-ci il.
2. "Nəhcül-bəlağə", Şərifur-Rəzi, Məhəmməd ibn Həsən, tərcüməçi Feyzul-İslam, Əli Nəqi, "Feyzul-İslamın əsərlərinin çap və yayım müəssəsi" nəşriyyatı, Tehran, beşinci çap, 1379-cu hicri-şəmsi ili.
3. Abdullah Cavadi Amuli, "Təsnim" təfsiri, birinci çap, "İsra" nəşriyyatı, Qum, 1378-cı hicri-şəmsi ili.
4. Cəfər Həqşünas, "Qərb yazıçıları nöqteyi-nəzərindən feminizmin tənqidi", birinci çap, "Əmir-Kəbir" nəşriyyatı, Tehran, 1389-ci hicri-şəmsi ili.
5. Əli ibn Məhəmməd Leysi Vasiti, "Uyunul-hikəm vəl-məvaiz", "Darul-hədis" nəşriyyatı, Qum, 1376-cı hicri-şəmsi ili.
6. Fəzlullah ibn Əli Ravəndi, "Ən-Nəvadir", "Darul-kitab" nəşriyyatı, Qum.
7. Həsən ibn Fəzl Təbərsi, "Məkarimul-əxlaq", dördüncü çap, "Əş-Şərifur-Rəzi" nəşriyyatı, Qum, 1370-ci hicri-şəmsi ili.
8. Hürr Amuli, "Vəsailuş-şiə", birinci çap, "Alul-beyt (ə)" müəssisəsi nəşriyyatı, Qum, 1409-cu hicri-qəməri ili.
9. Hüseyn ibn Məhəmmədtəqi Nuri, "Mustədrəkul-vəsail və mustənbitul-məsail", "Alul-beyt (ə)" müəssisəsi nəşriyyatı, Qum, 1408-ci hicri-qəməri ili.
10. İbn Babəvəyh, Məhəmməd ibn Əli, "Səvabul-əmal və iqabul-əmal", "Şərifur-rəzi" nəşriyyatı, Qum, ikinci çap, 1046-ci hicri-qəməri ili.
11. İbn Şöbə Hərrani, Həsən ibn Əli, "Tuhəful-uqul", ikinci çap, "Camieyi müdərrisin" nəşriyyatı, Qum, 1404-cü hicri-qəməri ili.
12. İsmail Çirağı, "Ailə, İslam və Feminizm", ikinci çap, "Təlim-tərbiyə müəssisəsi" nəşriyyatı, Qum, 1393-cü hicri-şəmsi ili.
13. Məhəmmədbaqir Məclisi, "Biharul-ənvar", "Əl-Vəfa" müəssisəsi nəşriyyatı, Beyrut, 1403-cü hicri-qəməri ili.
14. Məhəmmədhüseyn Təbatəbai, "Əl-Mizan" təfsiri, beşinci çap, "Camieyi müddərisin", "İslami" nəşriyyatı, 1417-ci hicri-qəməri ili.
15. Məhəmməd ibn Yaqub Kuleyni, "Əl-Kafi", dördüncü çap, "Darul-kutubil-islamiyyə", Tehran, 1407-ci hicri-qəməri ili.
16. Məhəmməd Mənsur Nejad, "Qadın, İslam və Feminizm", birinci çap, "Zeytun yarpağı" nəşriyyatı, Tehran, 1381-ci hicri-şəmsi ili.
17. Nasir Məkarim Şirazi, "Nümunə" təfsiri, iyirmi altıncı çap, "Darul-kutubil-islamiyyə" nəşriyyatı, Tehran, 1380-ci hicri-şəmsi ili.


kitaboxu.com